KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 36 (500) 06-19 24-30 Îlon Sentyabr sal. il 2022
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: 40 qəpik
Hêjaye:

“DİPLOMAT” qəzetinin 500-cü nömrəsi işıq üzü gördü

Səh. 2

Azərbaycan və Bolqarıstan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Səh. 9

Serok Barzanî pêşwaziya Balyozê Vatîkan li Iraqê kir

Səh. 10

Rojnameya ``DÎPLOMAT``, em benda hejmara 1000-ine

Səh. 10

Bizim xalqlarımızın gücü dostluğumuzdadır

Səh. 11

BILA ROJNAMA“DÎPLOMAT” HER TIM SERKEFTÎ BE

Malbata Jîna Emînî li dijî kiryarên girtina keça xwe gilî vekir

Səh. 3

Divê helwesta Serok Barzanî, ji hisîyatê dûr, baş û erênî bê şirove kirin

Səh. 13

Baregeha Barzanî: Em daxwaz dikin Herêma Kurdistanê êdî nebe qada yekalîkirina nakokiyên hindurê dewletên cîran

Səh. 3

O GÜN OLSUN, MİNİNCİ SAYINI QEYD EDƏK , ”DİPLOMAT“

Səh. 11

KOMELA KESKESORÊ

Səh. 9

XALQIMIZIN SEVİNCİ,TARİXİ MƏKTƏBİ ”DİPLOMAT” -IMIZIN 500-CÜ SAYI MÜBARƏK

Səh. 13

Səh. 10

Kürd ziyalısı, ağsaqqalı xalqı maarifləndirməlidir

Səh. 12

500-cü sayın mübarək “Diplomat”

Səh. 13

Beş yüzüncü sayın mübarək, beynəlmiləl “Diplomat”, minincidə görüşənədək

Baş redaktordan:

“Diplomat” təşəkkür edir!

Azərbaycan rəhbərliyinin, Azərbaycanda yaşayan azsaylı xalqlara verdiyi demokratik haqlar isbat edir ki, bu gün Azərbaycan demokratiyası nəinki Qafqazda, hətta yüzillik dövlətlərin demokratiyasına örnəkdir. Bu demokratiyadan bəhrələnən və 2003-cü ilin fevral ayından yayımlanmağa başlayan “Diplomat” qəzeti Azərbaycan mediasına, Azərbaycan xalqına yeni düşüncələr, üslub və fikirlərlə tarixi hadisələrin zülmət qaranlığını aydınlatmağa çalışdı. Bəlkə də heç kəsin demədiyi daha doğrusu deyə bilmədiyi tarixi faktları gündəmə gətirdi və özünə oxucu kütləsi qazandı. Çalışacağıq ki, bundan sonra da, xalqlarımızın qardaşlıq, dostluq, birlik və bərabərliyinə xidmət edək! Ümummilli Liderimiz Böyük Heydər Əliyev cənablarının dediyi kimi: “Azərbaycanda yaşayan xalqlar güllü-çiçəkli gülüstana bənzər”. Çox düzgün ifadə edilmişdir, biz də çalışacağıq ki, bu gülüstanın çiçəkləri günü-gündən təravətlənsin.

Bu gün “Diplomat” qəzetinin 500-cü sayı işıq üzü görür. Qəzetimizin ərsəyə çatmasında əməyi olan bütün dostlarımıza minnətdarlığımızı bildiririk. Qəzetimizin onlarla, istər iqtidaryönlü, istərsə də, müxalifyönlü oxucuları “Diplomat”ın 500-cü sayı münasibətilə qəzetimizin redaksiya heyətini təbrik edirlər. “Diplomat” qəzetinin əməkdaşları da “Diplomat”ı təbrik edən oxuculara öz təşəkkürünü bildirir.

Azərbaycan və Bolqarıstan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm, hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, məni Bolqarıstana dəvət etdiyiniz üçün, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Prezident Radev bu gün müzakirə olunan məsələlər haqqında geniş məlumat verdi. Öz tərəfimdən onu əlavə etmək istərdim ki, bizim həm təkbətək söhbətimiz, həm də nümayəndə heyətlərinin iştirakı ilə gedən müzakirələrdə səmimi şəraitdə bir çox məsələlər müzakirə edildi. Əminəm ki, bu səfərin nəticələri çox uğurlu olacaq və bu gün əldə edilmiş razılaşmalar mütləq yerinə yetiriləcəkdir, necə ki, bundan əvvəlki dövrlərdə əldə edilmiş razılaşmalar yerinə yetirilirdi. Xüsusilə 2015-ci ildə Bolqarıstanla Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu Bəyannamə həm bizim əlaqələrimizi yüksək səviyyəyə qaldırmışdır, eyni zamanda, o bəyannamədə təsbit edilmiş bütün məsələlər həyatda öz əksini tapmışdır. Bu gün Bolqarıstan və Azərbaycan iki dost və strateji tərəfdaş ölkələr kimi bir-biri ilə daha sıx

əlaqədədirlər.

Siyasi əlaqələrə gəldikdə, təkcə bizim təmaslarımızı qeyd etmək kifayətdir, eyni zamanda, nazirlər səviyyəsində çoxsaylı görüşlər keçirilib. Mənim səfərim, əlbəttə, bir az gecikib, amma buna səbəb COVID-dir. Mən COVID-dən dərhal sonra bir neçə ölkəyə, o cümlədən Bolqarıstana səfərlər etmişəm. Əminəm ki, strateji tərəfdaşlar kimi biz bu gün müzakirə edilən əsas məsələ olan enerji təhlükəsizliyi sahəsində əlavə addımlar atacağıq. Artıq bu sahədə də tərəfdaşlıq gerçəkləşib, Azərbaycan qazı indi Bolqarıstandadır. Bu gün Prezidentlə söhbət zamanı biz Bolqarıstana ixrac ediləcək Azərbaycan qazının həcminin artırılmasını da müzakirə etdik və müvafiq göstərişlər verilmişdir. Enerji təhlükəsizliyi məsələləri bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edir, ancaq indiki şəraitdə bu əhəmiyyət daha da artmışdır. Biz bunu yaxşı dərk edirik. Ona görə əlimizdən gələni edirik ki, qaz hasilatını artıraq və tərəfdaşlarımızı təbii qazla təmin edək. Azərbaycan uzun illərdir etibarlı tərəfdaş kimi xam neftini dünya və Avropa bazarlarına ixrac edir. İndi təbii qazı ixrac edən Azərbaycan bu sahədə də etibarlı tərəfdaş kimi özünü göstərəcəkdir.

Sabah keçiriləcək mərasim haqqında da bu gün fikir mübadiləsi aparıldı. Mən Prezident Radevi bu böyük tarixi nailiyyət münasibətilə təbrik etdim. Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi doğrudan da tarixi əhəmiyyətə malikdir. Əminəm ki, bu interkonnektor həm Azərbaycan qazının Avropaya daha geniş miqyasda nəql olunmasına imkan verəcək, eyni zamanda, Avropa qitəsində enerji təhlükəsizliyinə də bunun çox böyük faydası olacaqdır.

Prezidentin qeyd etdiyi kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında bu yaxınlarda enerji sahəsində strateji tərəfdaşlıq haqqında Memorandum imzalanmışdır. Bu Memoranduma əsasən, növbəti bir neçə ildə biz Avropaya qaz ixracatımızı ən azı 2 dəfə artıracağıq və buna imkan var. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Yeni və çoxşaxəli qaz nəqliyyat infrastrukturu bizə imkan verir ki, bir çox ölkələri təbii qazla təmin edək. Əlbəttə ki, bu sahədə əldə edilmiş uğurlar gələcək planlar üçün də gözəl zəmindir.

Eyni zamanda, bu gün artıq Prezident də qeyd etdi, SOCAR-ın Bolqarıstanda ofisinin açılması məsələsi müzakirə olundu. Biz enerji sahəsində təkcə təbii qazın ixracı ilə işimizi bitmiş hesab etməməliyik. Biz enerji ilə bağlı olan digər məsələləri müzakirə etdik. Elektrik enerjisinin ixracı və bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq, xam neftin Bolqarıstan istiqamətinə nəqli, Bolqarıstanda enerji infrastrukturunun yenilənməsində SOCAR-ın mümkün iştirakı və digər məsələlər müzakirə olundu. Bir sözlə, SOCAR-ın Bolqarıstandakı ofisinin açılması vaxtı çatıb və əminəm ki, biz yaxın vaxtlarda bunu da edəcəyik.

Bütövlükdə isə digər məsələlərə gəldikdə, bu gün yeni geosiyasi vəziyyəti nəzərə alaraq nəqliyyat təhlükəsizliyi də əlbəttə ki, önəmli məsələdir. Azərbaycan öz ərazisində çox müasir nəqliyyat infrastrukturu yaratmışdır, - dəmir yolları, avtomobil yolları, yeni Beynəlxalq Dəniz Ticarət Limanı, - bütün bu infrastruktur obyektləri bir məqsədi güdür ki, Azərbaycan üzərindən tranzit yüklərin həcmi artsın. Bu il bu yüklərin həcmi təqribən 50 faizə yaxın artmışdır. Gələcəkdə bu rəqəm daha da böyük olacaq. Ona görə Bolqarıstan və Azərbaycan nəqliyyatçıları indidən bir araya gələrək uzunmüddətli və genişmiqyaslı gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparacaqlar.

Mən bu gün Bolqarıstanın bir neçə aparıcı şirkətinin rəhbərləri ilə görüşəcəyəm. Artıq görüşlər üçün mövzular da kifayət qədərdir. Əminəm ki, bu görüş bütövlükdə iqtisadiyyat və sərmayə sahələrində əməkdaşlığın dərinləşməsi üçün çox önəmli rol oynayacaq. Eyni zamanda, mən Bolqarıstan şirkətlərini Azərbaycanda daha genişmiqyaslı işlərin görülməsinə dəvət edəcəyəm, o cümlədən işğaldan azad olunmuş ərazilərə. Hazırda orada böyük quruculuq-abadlıq işləri aparılır və biz dost ölkələrin şirkətlərini orada görmək istərdik.

Bir sözlə, bu gün aparılan müzakirələrin və hələ davam edəcək müzakirələrin, - biz Prezident Radevlə hələ axşam bərabər olacağıq, mənim Baş nazirlə görüşüm olacaq, sabah tədbirdə bərabər iştirak edəcəyik, - çox gözəl bir ab-havada keçən bu görüşlərin çox böyük əhəmiyyəti var və olacaq.

Qonaqpərvərliyə və göstərdiyiniz diqqətə görə bir daha Sizə minnətdaram. Sağ olun.

Prezident İlham Əliyev Sofiyada Rumıniyanın Baş naziri ilə görüşüb

Oktyabrın 1-də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanın paytaxtı Sofiyada Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke ilə görüşüb.

Görüşdə dövlətimizin başçısı Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq əsasında inkişaf etdiyini xüsusi vurğulayıb. Prezident İlham Əliyev ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin, geniş əməkdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib.

Baş nazir Nikolae-Yonel Çuke Azərbaycanla Rumıniya arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində inkişafından məmnunluğunu ifadə edib. Baş nazir müxtəlif sahələrdə geniş gündəlik əsasında əlaqələrin daha da inkişafı üçün böyük imkanların olduğunu bildirib. Eyni zamanda, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu xüsusilə qeyd edib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması və bundan irəli gələn məsələlərin icrası baxımından ölkəmizin xüsusi rolu diqqətə çatdırılıb. Eyni zamanda, Azərbaycanla Rumıniya arasında kənd təsərrüfatı, neft-kimya, energetika, o cümlədən elektrik enerjisinin ixracı, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

Görüşdə, həmçinin ikitərəfli gündəlikdə duran və qarşılıqlı

maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüş zamanı toxunulan məsələlər üzrə müzakirələrin davam etdirilməsi üçün aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verilib.

Rumıniyanın Baş naziri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət edib. Öz növbəsində Prezident İlham Əliyev Rumıniyanın Baş nazirini Azərbaycana səfərə dəvət edib.

Serok Barzanî pêşwaziya Balyozê Vatîkan li Iraqê kir

Li Selaheddîn Serok Mesûd Barzanî pêşwaziya birêz Mitja Leskovar Balyozê Vatîkan li Iraqê kir.

Li hevdîtinê de Balyozê Vatîkan li Iraqê bi navê dewleta Vatîkanê ve bi tundî êrîşa Komara Îslamiya Îranê ya li ser navçeyên cûda cûdayên Herêma Kurdistanê şermezar kir û ji bo qurbaniyên wê êrîş û bombebaranê sersaxiyê li Serok Barzanî û gelê Kurdistanê kir.

Balyozê Vatîkan li Iraqê pêzanînên xwe ji bo pêgeh û rola Serok Barzanî ya li xebata gelê Kurdistanê û berqerarkirina aştiyê da hebû û her wiha ji bilî derbirîna pêzanînên xwe ya ji bo kultûra pêkvejiyana gelê Kurdistanê, spasî gelê Kurdistanê jî kir ku li rojên dijwar da sedan hezar koçber û penaberên ji pêkhatên cûda cûda û bi taybet Krîstiyanan himbêz kiriye.

Her li vê hevdîtinê de Serok Barzanî balkişand li ser kûrahiya çanda pêkvejiyana li nav gelê Kurdistanê da û tekez jî li wê yekê kir ku gelê Kurdistanê li pêşxistina wê çandê de berdewam dibê û eger çend dengeke nexwastî jî ji bo dijayetiya pêkvejiyanê hebê ji aliyê gelê Kurdistanê ve ew deng nayên pesend kirin.

Li dirêjahiya hevdîtinê de di derbarê rewşa siyasiya Iraqê de danustandina bîr û ramanan kirin û Serok Barzanî wê yekê dûpatkir ku pêwîste kêşeyên Iraqê li ser bingeha guftûgo û destûrê bê çareser kirin.

Li dawiya vê hevdîtinê de Balyozê Vatîkanê spasî gelê Kurdistanê û sazî û damezraweyên Herêma Kurdistanê ya ji bo pêşwazî û mîhvandariya Papayê pîroz kir û her ji bo vê helkeftê jî diyariyeke taybetî pêşkêşî Serok Barzanî kir. ***rojevakurd.com***

Malbata Jîna Emînî li dijî kiryarên girtina keça xwe gilî vekir

Malbat daxwaz dike ku lêkolînên pêwîst û berfireh derbarê çawaniya desteserkirina Jîna de werin kirin.

Malbata keça Kurd a Rojhilatê Kurdistanê Jîna Emînî, li dijî kesên ku keça wan girtine gilî tomar kir.

Salih Nîkbext ku yek ji parêzerên malbata Jîna Emînî ye ji medyaya Îranê re got, malbata Jîna Emînî gilî li dijî kesên ku keça wan girtine tomar kir.

Herwaha got; di yekemîn civîna dadgehê de ku duhî Çarşemê 28ê Îlonê de hat lidarxistin, wan daxwaz kir ku lêkolînên pêwîst û berfireh derbarê çawaniya desteserkirina Jîna, ji dema girtina wê û heta dema veguhestina wê bo nexweşxaneyê, bi vîdeo û wêneyên were kirin.

Parêzer her wiha daxwaz ji rayedarên Îranê kir ku hemû vîdyo û wêneyên ku di heyama girtina Jîna Emînî li

navenda polîsên exlaqî de peyda bikin.

Mehsa "Jîna" Emînî keçeke Kurd a 22 salî bû, roja 13ê Îlona 2022an bi birayê xwe re ji bajarê Seqizê serdana Tehranê kiribû û ji ber ku hîcaba xwe bi awayekî rêkûpêk girê nedaye ji aliyê polîsan ve hate binçavkirin û piştî du demjimêran ji bo nexweşxaneyê hat birin û roja 16ê mehê li nexweşxaneyê canê xwe ji dest da. Malbata Jîna û çalakvanên Rojhilatê Kurdistanê dibêjin, Jîna di bin eşkenceyê de hatiye kuştin.

Kuştina Jîna Emînî gelek karvedanên berfireh yên li ser asta navxwe û navdewletî li piştî xwe anîn û xwepêşandan li bajarê Seqiz, Urmiye, Mehabad û Pîranşar û bajarên din ên Rojhilatê Kurdistanê û hejmarek ji bajarên Îranê derketine. ***Nerina Azad***

Baregeha Barzanî: Em daxwaz dikin Herêma Kurdistanê êdî nebe qada yekalîkirina nakokiyên hindurê dewletên cîran

Baregeha Barzanî derbarê topbaranên Îranê yên ser navçeyên Herêma Kurdistanê de daxuyaniyek belav kir û ragihand, mûşekbarankirin û êrîşkirin, kêşeyan çareser nake, divê êdî xwe nespêrin van cûre kiryaran.

Ev jî daxuyaniya Baregeha Barzanî ye:

"Ev cara çendan e ku Herêma Kurdistanê dikeve ber êrîşên mûşekî û bombebaranên hêzên Îranê. Em van êrîş û bombebaranan şermezar dikin, çimkî bûye sedema kuştin û birîndarbûna welatiyên sivîl û jin û zarokên bêguneh û ev yek jî di rastiyê de tawankarî ye. Di heman demê de jî ev êrîş û bombebaran, binpêkirina bingehên cîrantî û dostanî û serweriyê ne û ti hicetekê li xwe nagre û li dijî berjewendî û seqamgîriya Herêma Kurdistanê ne.

Mûşekbarankirin û êrîşkirin, kêşeyan çareser nakin û divê êdî xwe nespêrin van cûre kiryaran, ku ji bilî tawankarî û neseqamgîriyê, ti tiştek jê berhem nayê.

Em daxwaz dikin ku, demildest ev êrîş û bombebaran werin rawestandin û Herêma Kurdistanê jî êdî nebe qada yekalîkirina girift û nakokiyên hindurê dewletên cîran.

Baregeha Barzanî
28.9.2022"

Mesrûr Barzanî bang li hukumeta Iraqê û civaka navdewletî kir da êrîşan bidin rawestandin

Serokwezîrê hukumeta Herêma Kurdistanê îro tevlî merasima derçûna xwendevanên zankoya Selahaddînê bû û di axaftina xwe de bang li hukumeta Iraqê û civaka navdewletî kar da mudaxeleyê êrîşên Îranê yên ser Herêma Kurdistanê bikin û bidin rawestandin. Barzanî di axaftina xwe de weha got:

"Berê jî bi bahaneyên cûr bi cûr bi awayekî nerewa êrîşê ser Herêma Kurdistanê kirin. Eger em hezkirina welat, çanda xweşbîniyê xwurt bikin û bibin welatekî bi hêz, em dikarin temamê zahmetiyan têkbibin. Êrîşa ser me pirsgirêkan çareser nake. Em milletekî aştîxwazin û naxwazin bi welatekî cîran re pirsgirêkan derxin. Peyama me: Aştî, azadî û rêzgirtina li hemberê hev e."

Barzanî di axaftina xwe de got ku dixwazin Herêma Kurdistanê pêşdetir bibin û weha dewam kir:

"Em dixwazin geşepêdanê bidin Kurdistanê. Em sipasiya wan dikin yên ku alîkariya me dikin. Yên naxwazin alîkariya me bikin, bila ji me re pirsgirêkan dernexin. Ji ber me biryarê daye ku em bijîn, pêşde herin, welatê xwe ava bikin, em neviyên xwe bi zanistê barbikin û ber bi pêş de gav bavêjin.

Em her êrîş û îhlalên ser me, şermezar dikin. Em bang li hukumeta Iraqê û civaka navdewletî dikin ku sînor ji bo van îhlalan deynin."

Serokwezîr Barzanî her weha behsa rola zankoya Selahaddînê ya di perwerdê de kir û got: "Rola Zankoya Selahaddîn di avakirina gelek zankoyan de heye. Serok Barzanî di dewrên gelek zahmet de destekê da zankoyan. Divê zankoyên me yên Herêma Kurdistanê karibin bi zanko yên herêmê û dinyayê re di seha teknolojiyê û zanistê de hevdengiyê bikin. Hukumeta me di her sehayê de projeyên nûjeniyê dimeşîne û ev proje ji bo temamê sehayan e." ***PeyamaKurd***

Serokatiya Kurdistanê: Em bang li Hikûmeta Iraqê dikin ku bi erkê xwe rabe û xak û serweriya welat biparêze

Serokatiya Herêma Kurdistanê îro Çarşema 28ê Îlona 2022an derbarê êrîşên Îranê yên li ser axa Herêma Kurdistanê daxuyaniyek belav kir. Ev jî tekesta wê daxuyaniyê ye:

"Em bombebarankirina Herêma Kurdistanê ji aliyê hêzên Komara Îslamî ya Îranê ve bo ser çend armancan û çêbûna ziyanên canî yên ku di nav de sivîl hene, şermezar dikin û em dubarekirina van êrîşan bi tevahî red dikin. Helwesta Herêma Kurdistanê eşkere ye ku ji sînorên xwe rê nade ti metirsiyeke ewlehiyê bo ser dewletên cîran hebe. Herwiha em tekez dikin ku nabe Herêma Kurdistanê bibe qada yekalîkirina nakokiyên.

Em careke din teqez dikin ku çek û hêz pirsgirêkan çareser nakin û çareserî ya ku di berjewendiya hemû aliyan de ye, diyalog û aştî ye.

Em bang li Hikûmeta Federal a Iraqê dikin ku bi erkê xwe rabe û xak û serweriya welat biparêze.

Serokatiya Herêma Kurdistanê – Iraq
28.9.2022"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Mayın 10-da - xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoydular.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömürgün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq

qalacaq. Çünki bu dahi insan öz işləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. “Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub”, - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri tariximizdə milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. “Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir”, - deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz fəaliyyətində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas ideoloji fəlsəfəsi isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz uğurlara imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun”.

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı. Bununla da “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!” deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçdi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.

HEYDƏR ƏLİYEV 99 — ANIM GÜNÜ — XÜSUSİ BURAXILIŞ

ULU ÖNDƏR HƏR ZAMAN BİZİMLƏDİR

Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Ümummilli lider, Ulu Öndər Böyük Heydər Əliyev də ürəklərdə yaşayacaqdır!

Unudulmaz xatirələr

Hər bir insan arzu edər ki, dahi, möhtərəm və mötəbər dövlət rəhbərləri ilə görüşsün. Belə fürsətlərdən biri də mənə qismət oldu. Və mənə dünya siyasətçilərinin öndərləri sırasında olan Ümummilli Lider, Böyük Öndər, müdrik insan, dövlət rəhbəri Heydər Əliyev cənabları ilə görüşmək nəsib oldu. O gün mənim həyatımın ən xoş günlərindən biri idi. O günü mən hər zaman xoş xatirələr kimi anıram və yeri düşəndə o görüş barədə dostlara fəxrlə danışıram.

-1992-ci ilin dekabr ayı idi. Hər yerdə hərc-mərclik hökm sürürdü. Cəbhədə itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu.

Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim heç kimin ərizəsini oxumaq istəmirdi. Demək olar ki, ölkə idarə olunmurdu.

O zaman faşist Səddam Hüseyn zülmündən qaçıb Araz çayını keçərək Naxçıvana pənah gətirən və hakimiyyətdə olan sərişdəsiz cəbhəçilərin əlinə düşən bir qrup kürd və türkman qaçqınlarının həbs olunduğunu eşitdim, hansı ki, əksəriyyəti qadın-uşaq, yaşları yetmişi haqlamış qocalar və ona qədər orta yaşlı kişilər idilər. Hətta həmin günlərdə bir qadın iki qız övladı dünyaya gətirmişdi, birinin adını Azərbaycan, digərinin adını isə Kürdüstan qoymuşdular. O vaxtkı səbatsız dövlət rəhbərlərinin ucbatından, Naxçıvan sərhədçiləri onları saxlamış və 6 aya qədər həbs etmişdilər.

Havaların çox soyuq olmasına baxmayaraq, biz Naxçıvan MR-na getdik. Ora gecə saatlarında çatdıq, məsələ ilə bağlı Milli Məclisin sədri Heydər Əliyev cənablarına müraciət etdik, onunla görüşmək istədiyimizi bildirdik. Vasif Talıbov cənabları, Heydər Əliyev cənablarının bizi qəbul edəcəyini bildirdi.

Gecə saat 24.00 idi. Qarabağ məsələsi barədə kiminləsə telefonla söhbət edirdi. Qapı yarıaçıq olduğundan hərdən qulağımıza Qarabağla bağlı sözlər çatırdı.

Bizi içəri dəvət etdilər. Naxçıvan Kürd Mədəniyyət Mərkəzinin sədri Nizami Alıyevlə qapını döydük, içəri daxil olduq. Naxçıvanda heç bir yerdə elektrik işığı olmadığından otaqda neft lampası yanırdı, otaq yarıqaranlıq idi, sol tərəfdə neft sobasının istisi hiss olunurdu. İş otağının baş tərəfində dəyirmi masa var idi. Heydər Əliyev cənabları, masanın arxasında əyləşmişdi. Biz içəriyə daxil olanda o, yerindən qalxıb bizə tərəf gəldi. Bizimlə birbir görüşüb xoşgəldiniz dedi və qolumuzdan tutaraq masaya tərəf apardı. Bizi oturtduqdan sonra, özü keçib kresloya əyləşdi. Üç saata qədər bizimlə çox sakit, səmimi söhbət etdi. Mavi gözlərində müdriklik, sonsuz mərhəmət görünürdü. Bizi diqqətlə dinlədi, İşimizlə bağlı məlumat alandan sonra, tapşırıqlar verdi və dedi: "Qaçqınlarla görüşün, əgər onlar bu qışı Naxçıvanda qalmaq istəyirlərsə, biz onları kəndlərdə yerləşdirə bilərik, qaçqınlarla görüşdən sonra vaxt tapıb mənim yanıma gələrsiniz".

Sonra Bəylər müəllimə tapşırdı ki, gecdi, maşın olmaz, qonaqları aparın. Biz nə qədər təkid etsək də o, razı olmadı.

O, böyük insanın hər işə belə diqqətlə yanaşması məni valeh etdi. Öz-özümə düşünürdüm; görəsən onda işə belə maraq, həvəs hardandır. "Heç bir dövlət məmuru gecənin bu vaxtına qədər qalıb işləməz." Səhərisi günü bizi Naxçıvan MTN-nə dəvət etdilər. Axşam saat səkkizə qədər bizi sorğuladılar. MTN-nin əməkdaşları günorta yeməyinə getsələr də biz yeməksiz qaldıq. Axşam saat səkkizdə MTN-nin iki əməkdaşı ilə birlikdə qaçqınların saxlandığı hərbi hissəyə getdik. Hərbi hissənin həyəti işıq olmadığından zil qaranlıq idi. Bir azdan dar dəhlizə keçdik. Dəhliz qaranlıq olsa da dəhlizin sonunda zəif lampa işığı görünürdü. Geniş bir otağa keçdik, bizi Şahmurad, Şahmərdan və bizi dindirən MTN-nin əməkdaşlarından biri və tanımadığım daha bir neçə mülki geyimli adamlar qarşıladı. Yenə sorğu suallar başladı, sonda o qərara gəldilər ki, qaçqınlarla kürd dilində danışmayaq. Aralarında olan türkmanlar kürd dilini də bilirdilər, onların vasitəsi ilə öyrəndik ki, onlar tranzit bir ölkə kimi Azərbaycandan Rusiyaya, oradan da Avropaya getmək istəyirlər.

Qaçqınların istəklərini öyrəndikdən sonra "qonaqlı" otağa gəldik və qaçqınların istəklərini onlara bildirdik. MTN-nin əməkdaşlarından biri mənə tapşırdı ki, Bakıya qayıdanda nazirliyə gedim. Səhərisi günü, qaçqınların problemləri ilə bağlı, Ulu Öndər Böyük Heydər Əliyev cənablarına məlumat vermək üçün yenidən onunla görüşməyə getdik, işin bütün incəlikləri ilə maraqlandı, soruşdu və bizə dedi: "Siz gedin, mən münasib yoldaşlara tapşıraram, onları azadlığa buraxıb, yola salarlar". Səhərisi qaçqınlar həqiqətən hissə-hissə Bakıya göndərildilər və oradan da Moskvaya yola salındılar. O, ölməz insanla görüşdüyüm üçün özümü xoşbəxt sayıram. Yuxarıda qeyd etdiyim kimi o dövrlərdə Azərbaycanda böyük hərc-mərcliklər baş alıb gedirdi. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi Milli Liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi. Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi bizə qaytardı. O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siyasətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq.

Çünki xalqımız və ölkəmiz üçün tale yüklü anlarda düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istəyirdilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqları fəlakət qarşısında idilər. Məhz Heydər Əliyev onları bu fəlakətdən xilas etdi. Xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər Əliyevin siyasətini dəstəkləyib və dəstəkləyəcək. Biz Heydər Əliyevin ideyalarının həyata keçməsi üçün ömrümüzün sonuna kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün möhtərəm prezidentimiz İlham Heydər oğlu Əliyev cənablarına möhkəm dəstək olacağıq. O, ölümü ilə xalqlarımızı birləşdirdi və onun məzarı millətimizin ziyarətgahına çevrildi. Bu gün Ulu Öndərimizin anım günündə minlərlə insan axını onun məzarını ziyarət etmək üçün sübh çağından əllərində gülçiçək güllü-gülüstana dönmüş Fəxri Xiyabana axın edir, Milli Liderimizi anırlar. "Günəşdən nur doğar", deyiblər. Doğrudan da bu gün xalqımız Heydər Əliyevdən doğan nurun, İlham Heydər oğlu Əliyevin ətrafında birləşərək Öndərimizdən miras qalan Vətənimiz Azərbaycanı inamlı addımlarla qabaqcıl ölkələr sırasına aparırlar. O, hər zaman, hər an bizimlədir, çünki onun xalqımıza bəxş etdiyi tükənməz sərvətlər hər yerdədir. Xalqımızı azadlığa çıxaran, ona xoşbəxt gələcək bəxş edən, Ümummilli liderimizə Uca Tanrıdan rəhmət diləyirik.

Tahir Süleyman

HEYDƏR ƏLİYEV 99 — ANIM GÜNÜ — XÜSUSİ BURAXILIŞ

ÖMRÜNÜ-GÜNÜNÜ XALQINA HƏSR EDƏN DAHİ İNSAN

Dahi şəxsiyyətin keşməkeşli ömür yolu

1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə Naxçıvanda anadan olub. 1939-cu ildə Pedoqoji texnikumu, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1941-1944-cü illərdə Naxçıvan MSSR-də SSRİ-nin Daxili Məsələlər Üzrə Milli Komissarlığında, 1944-cü ilin mayında isə Dövlət Təhlükəsizlik Orqanlarında çalışmağa başlayıb. 1964-cü ildə Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildən isə Komitənin sədri təyin edilib. 1969-cu ilin iyul ayından Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilib.

1982-1987-ci illərdə SSR Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə yüksəlib, eyni vaxtda, 1986-cı ildən SSRİ Nazirlər Soveti Sosial-İnkişaf Bürosunun sədri olub. 8-11-ci çağırışlarda SSRİ Ali Sovetinə deputat seçilib.

1987-ci ildə təqaüdə çıxsa da, 3 ildən sonra yenidən siyasətə qayıdıb. 1990-cı ilin yanvarında Bakıda qanlı hadisələr dövründə Heydər Əliyev Azərbaycan SSR-nin Moskvadakı nümayəndəliyinə gələrək Qorbaçov siyasətinə qarşı kəskin çıxış edir. 1991-ci ilin iyulunda isə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası sıralarından çıxır.

Vətənə qayıdan Heydər Əliyev 1991-ci ildə Naxçıvan MR-nin Ali Məclisinin sədri seçilir. 1993-cü ilin yayında Azərbaycanın Prezidenti Əbülfəz Elçibəy başda Sürət Hüseynov olmaqla qiyamçıların təzyiqi altında Bakını tərk edərkən Heydər Əliyev paytaxta gəlir və Azərbaycan Ali Sovetinin sədri seçilir və bir neçə gün sonra Ali Sovetin qərarı ilə Prezidentin səlahiyyətləri ona verilir. Həmin ilin oktyabrında isə Prezident seçilir.

Dövlətə başçılıq edən Heydər Əliyev Qarabağda müharibəni dayandırır, "Əsrin müqaviləsi"ni imzalayır, 1998:-ci ildə isə yenidən Prezident seçilməndən sonra "Əsrin tikintisi" - Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin təşəbbüskarı olur. 2003-cü ilin Prezident seçkilərində isə son anda İlham Əliyevin xeyrinə namizədliyini geri götürür. Heydər Əliyev müstəqillik dövründə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə sabitlik, əmin-amanlıq yaradıb, qanunsuz silahlı qruplaşmaların fəaliyyətinə son qoyub. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanması və cəbhədə atəşkəsin elan olunması dövrünün başlanması onun adıyla bağlıdır. Avropada Qərbin diplomatik dairələrində onu sabitliyin qarantı və yeni iqtisadi islahatların aparıcısı kimi tanıyırlar.



Heydər Əliyev bütün ömrünü Azərbaycan xalqının xoşbəxt gələcəyinin qurulmasına həsr edib.

Azərbaycan tarixinin təxminən 34 illik bütöv bir dövrü onun adı ilə bağlıdır.

Heydər Əliyevin işıqlı xatirəsi Azərbaycan xalqının yaddaşında daima yaşayacaq!

Yeni Azərbaycanın qurucusu

İstər Sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Heydər Əliyev Azərbaycanın inkişafı naminə əlindən gələni əsirgəməyib. Xüsusilə də son on ildə Azərbaycanda dövlət quruculuğu sahəsində onun rolu müstəsnadır. Heydər Əliyev respublikamızın ilk prezidenti olmasa da, onun dövlətçiliyimizin möhkəmlənməsi, bir növ yenidən qurulması istiqamətində göstərdiyi səylər əvəzedilməzdir. Təsadüfi deyil ki, onun adının qarşısına artırılan və ən çox istifadə edilən ifadələrdən biri də "Yeni Azərbaycanın qurucusu" sözləridir.

HEYDƏR ƏLİYEV 99 — ANIM GÜNÜ — XÜSUSİ BURAXILIŞ

ÖMRÜNÜ-GÜNÜNÜ XALQINA HƏSR EDƏN DAHİ İNSAN



Dahi şəxsiyyətin keşməkeşli ömür yolu

90-cı illərin əvvəllərində SSRİ-nin məngənəsindən yenicə çıxan və özünün ilkin müstəqilliyindən 71 il aralı qalan Azərbaycanın dövlətçiliyinin restavrasiyasına öndərlik edə biləcək və böyük təcrübəyə malik bir insana olan ehtiyac özünü açıq şəkildə büruzə verirdi. Sovetlər İttifaqı son anlarını yaşasa da, onun məkrli rəhbərləri müstəqilliyə can atan respublikaların qarşısına müxtəlif əngəllər çıxarmağa cəhd göstərirdilər. İstər Ermənistan azərbaycanlılarının deportasiyası, istərsə də, 20 Yanvar faciəsi bu əngəllərin təzahürü idi. Lakin bütün bunlara baxmayaraq, xalqımızın iradəsi və azadlıq eşqi qəhrəman övladlarının qanı bahasına müstəqilliyi təmin etdi. Lakin müstəqillikdən sonra daha məsuliyyətli bir proses başladı. Çünki müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətin idi.

Bu mənada dövlət strukturlarının möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Heydər Əliyev məhz bu məqamda Naxçıvandan Bakıya rəsmən dəvət edildi. O andan etibarən Azərbaycanın dövlət quruculuğu sahəsində canlanma müşahidə olunmağa başladı. Hər şeydən əvvəl, o, daxildə Azərbaycanın bütövlüyünə xələl gətirməyə çalışan və mərkəzə tabe olmaqdan boyun qaçıran bir qrup qüvvəni zərərsizləşdirdi. Daha sonra müxtəlif səpgili islahatlar həyata keçirməklə böyük quruculuq işlərini davam etdirdi.

Heydər Əliyevin onilliklərə söykənən təcrübəsi və uzaqgörənliyi iqtisadiyyat, milli siyasət, mədəniyyət və digər sahələrin yeni məzmunda formalaşdırılmasına xüsusi kömək göstərdi. Onun məqsədyönlü səyləri nəticəsində yeni Azərbaycan quruldu, Sovet Azərbaycanından tamamilə fərqlənən yeni məz munlu Azərbaycan çiçəklənməyə başladı.Heydər Əliyev dövlətçiliyin təməllərini sarsılmazlığını elə təmin etdi ki, bu gün hər bir sıravi Azərbaycan vətəndaşı bu sistemin uzun müddət yaşayacağına inanır.

Hazırladı:
İsmayıl ƏLİYEV

Nurlu ömrün salnaməsi

Aprelin 28-də görkəmli oftolmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü qeyd edildi.

Gözəl ana, vəfalı ömür-gün yoldaşı, dünya tibb elminə əvəzsiz töhfələr vermiş böyük oftalmoloq alim... Bütün bunlar anadan olmasının 99-cu ildönümünü qeyd etdiyimiz Zərifə xanım Əliyevanın portretinin xarakterik cizgiləridir. Müasirlərinin dediyi kimi, Zərifə xanım Əliyeva elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi. Zərifə xanım sevib seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə bu istedadını tam gerçəkləşdirə bilirdi. Aprelin 28-də XX əsrdə Azərbaycan tibb elminin görkəmli simalarından biri - Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü tamam olur. Zərifə xanım 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilib. Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, Ulu Öndərimizə mənəvi dayaq, arxa olub.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olub. oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, dəyərli elmi-tədqiqat işləri yazıb. Göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib. Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi" mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil edib. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olub. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməyib. Alim dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktiki olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirib. Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q.Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndiriblər. Zərifə xanım Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi verilib. Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb. Görkəmli alim az yaşadı. O, istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi. Ömrünün sonuncu anına kimi həyatla, gələcək planlarla yaşayırdı. Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-də Moskvada vəfat edib. Zərifə xanımın parlaq xatirəsi daim anılacaq, xalqımızın qəlbində əbədi yaşayacaq.

Suraxanıda Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü qeyd edildi

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatı və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə 27 aprel 2022-ci il tarixində Suraxanı Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev irsinin öyrənilməsi" layihəsi çərçivəsində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev və ailə dəyərləri" mövzusunda diskussiya təşkil olunmuşdur.

Tədbirdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban xanım Vəliyeva, RİHB-nin müavini və Təhsil İdarəsinin nümayəndələri, Suraxanı rayonu ərazisində fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin rəhbərləri və 11-ci sinif şagirdləri iştirak etmişlər.

Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tədbir iştirakçıları tərəfindən gül dəstələri qoyulduqdan və Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunmuşdur.

Daha sonra Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və Vətən Müharibəsi şəhidlərinin əziz xatirələri bir dəqiqəlik sükutla anılmış, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən qısa videoçarx nümayiş olunmuşdur.

Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov müzakirə iştirakçılarını salamlayaraq bildirdi ki, akademik Zərifə xanım Əliyeva milli oftalmologiyamızın banilərindəndir. Mayası vətənpərvərliklə, halallıqla yoğrulan Zərifə xanım Əliyeva xalq üçün, vətən üçün əlindən gələni əsirgəməyərək öz mənalı ömrünü Ulu Öndərə və övladlarına həsr etmişdir. Ailəsində qoyduğu iz, yüksək mənəvi dəyərlər, övladlarının milli ruhda tərbiyəsi nəticəsində o, qəlblərdə yanan əbədiyyət çırağına çevrildi. Yerli təşkilatın sədri vurğulamışdı ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı, Vətənin qüruru sayılan iki övlad böyütmüş ana, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda böyük insanın işıqlı obrazı canlanır.

Həmçinin, Suraxanı rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək bildirmişdir ki, Zərifə xanım Əliyeva Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi. Zərifə xanımın fitri istedada malik bir alim kimi yaşadığı ömrü, keçdiyi həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. O, ümummilli liderimiz Heydər Əliyevlə birlikdə qəlblərində daim Vətən sevgisi yaşadan, xalqı üçün çalışan övladlar böyütmüşdür. Görkəmli alimin qəlblərdə yaşayan xoş xatirəsini və xidmətlərini xalqımız daim minnətdarlıq hissi ilə xatırlayır.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva və Suraxanı rayonu 226 nömrəli tam orta məktəbin direktoru, şəhid anası Arzu Məmmədova çıxış edərək bildirmişlər ki, 20-ci əsrin ən böyük şəxsiyyətlərindən olan Heydər Əliyev kimi dünya miqyaslı bir liderin inkişafında müstəsna xidmətlərə malik Zərifə xanım 21-ci əsrə öz imzasını atan Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi bir düha bəxş etmişdir. Xalqının çırağına çevrilmiş cənab Prezident İlham Əliyev kimi bir liderə tərbiyə verən, ona öz sevgisindən pay bəxş edən Zərifə xanım xalqımız tərəfindən daim xatırlanacaqdır.

Sonda görüş iştirakçıları məktəblilərin ünvanladıqları suallara cavab vermişlər.

Gəncədə Mir Cəlal Paşayevin anadan olmasının 114 illiyi qeyd olunub

Mir Cəlal Paşayevin ev muzeyində gerçəkləşən tədbir Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə həyata keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, Mir Cəlal Paşayevin ev muzeyinin direktoru İradə Paşayevə, mədəniyyət və ictimaiyyət xadimləri iştirak ediblər.

Tədbirdə çıxış edən natiqlər ədəbiyyatşünas, Əməkdar elm xadimi, filologiya elmləri doktoru Mir Cəlal Paşayevin həyat və yaradıcılığından bəhs ediblər. Bildirilib ki, kamil insan, alim, yazıçı dünyanı təkcə izah etmir, eyni zamanda, onu dəyişdirir, insanların şüuruna, baxışlarına təsir göstərə bilir. Bu mənada Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

Eyni zamanda çıxış edənlər tərəfindən Mir Cəlal Paşayevin ev muzeyinə müxtəlif eksponatlar hədiyyə olunub.

Bununla yanaşı, mərasimdə Gəncə Dövlət Filarmoniyasının Göygöl Mahnı və Rəqs ansamblı konsert proqramı ilə çıxış edib.

Qeyd edək ki, ədibin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq Gəncədə Mir Cəlal Paşayev adına muzey, məktəb fəaliyyət göstərir, şəhərin görkəmli və abad küçələrindən birinə onun adı verilib.

Peyama Serok Barzanî ya bi helkefta cejna Remezana Pîroz

Bi navê xwedayê mezin û dilovan

Bi helkefta hatina cejna Remezana pîroz ve germtirîn pîrozbahiyê pêşkêşî misilmanên Kurdistan û Iraq û hemû cîhanê dikim. Pîrozbahiya cejna Remezanê li malbatên serbilindên şehîdan û Pêşmergeyên qehreman û hemû welatiyên Kurdistanê dikim.

Li vê helkefta pîroz da hêviya ewe dixwazim xwedayê mezin rojî û îbadetê hemû misilmanan qebûl kiribê û ev cejin bibê sedema dawî hatina nexweşî û êşan û vegerana aramî û aştiyê ji bo hemû mirovayetiyê.

Hêviya xêr û xweşî û tendirustiyê ji bo hemû aliyek dixwazim.

Mesûd Barzanî, 30 Remezana 1443 yê Koçî. 01.05.2022 yê Zayînî

Qubad Talebanî spasiya hêzên ewlehiyê kir

Piştî destgîrkirina tawanbarê ku malbata xwe jinavbiriye bi biryarê Qubad Talebanî

hatibû destgîrkirin, Qubad Talevabî destxweşî û spasiya hêzên ewlekariyê kir.Her weha piştî desgîrkirina tawanbarê Çemçemalê, cîgirê serokê hikûmeta Herêma Kurdistanê Qubad Talebanî stayîşa rola hêzên ewlehiyê kir ku dikanîn di demeke kurdt de tawanbarê ku malbata xwe komkujkiriye destgîr bikin û spz da ku wê sizaya wî li gorî yasayê be. ***PUKmedia***

Li Kerkûkê di navbera artêşa Iraqê û Pêşmerge de ji bo demekê alozî çêbû

Li gorî zanyariyên çavkaniyên ji herêmê, îro 3yê Gulanê li sînorê parêzgeha Kerkûkê di navbera hejmarek Pêşmerge û artêşa Iraqê de alozî çêbû û 6 Pêşmerge ji bo demekê hatin girtin. Hat zanîn ku bûyer îro danê sibehê li xala kontrolê ya Gelî Simayil Beg a artêşa Iraqê ya sînorê nehiyeya Şiwan a parêzgeha Kerkûkê çrû daye û6 Pêşmergeyên Fewca 2 a Lîwaya 6 a Wezareta Pêşmrge ji aliyê hêzên Iraqî yên xala kontrolê ve hatine girtin. Li gorî zanyariyan erkê wan Pêşmergeyan sînorê nehiyeya Şiwan e û mala wan li devera Raperînê ye ku dema vegerê li xala kontrolê hatine rawestandin û lêpirsîn bo wan hatiye kirin.

Hat diyar kirin ku Pêşmergeyan xwe daye naskirin û ji hêzên Iraqî re gotine ew Pêşmerge ne û di erkê xwe de bûne, lê dîsa jî hêzên Iraqê ew girtine. Piştre hêzeke Pêşmerge ketiye tevgerê û hişyarî dane artêşa Iraqê ji bo ew pêşmerge werin berdan û piştî çend demjimêran jî bi navbeynkariya Şaxa Kerkûkê ya YNKê û hêzên emnî yên deverê hatine berdan. ***PeyamaKurd***

KOMELA KESKESORÊ

Bi kurtayî derheqa komela kurdaye li ser nave “Keskesorê” ku Urisêtê perwelatê Krasnadarê hatîye damezirandinê û serwêrîyê ji 1992-ê salêda hetanî roja îro Dursunê Têmirê Evês Balayêv lê dike.

Me li komelêda xebateke pir girîng û berbiçav kirîye. Birêz Dursunê Têmir boy xebata xwene baş eva çend cara ez bijartine çawa jibartine şêwirmendê qubêrnatorê perwelatê Krasnadarê para netewatîyê û olî. Wan şerên ku sere ermenîya û ecema destpêkir nêzînkaya 25-hezar kurdên musilman ji Ermenîstanê koçber bun berênxwe dane Ûrisêtê û Komarên Asîya Navîn. Azerbaycanê. Nezanya zimanê rusî pir dijwarî pêşda anî, li navbera rusa û kurda. Kazakê perwelatê Krasnadarê gellek neheqî kurdara dikirin, li gelara rê nediçûn. Kazak dixwastin gelê mihacirê hatine vira disa ji cî û warênwana raqetînin û zorê bikin herne komareke cûda. Ewê yekê nenihêre emekê me kurda jî pir mezin bû. Li ewî şerî pêşberî nêmsê faşîstda mejî xwînaxwe rêtdîye boy paqişkirina axa xwe ji wan faşîstên xûnxûer. Boy harîkarîyê bidine gellê xwe. Me Krasnadarêda ev komela çanda Keskesorê vekir, bona parastina gellê xwe kurda. Me çanda kurdada etf edetê gelê xwe nîşanî 126- netewa perwelatê Krasnadarê dijîn kir. Me têlêvîzîyonê Krasnadarêda çend cara 45-demjimêr klam

û govendên kurda nîşan kirin. Xêncî wê yekê, dûdemê leşa xûrekê milletada xurekê me kurda çend cara cîhê yekê girtin. Li komelêda me destûra berdana rojnama ,,Kurdskîyê vêstî,,(Elametîyê Kurda) stend û bi zimanê kurdî û rûsî bi sernivîsarê rojnamê Dursinê Têmir hat weşandin. Ew rojname nava cimeetê belaş dihate belavkirinê. Ewê yekê tevgirêdanê me û 126 netewa mayînva helaqetîya me şidand. Me Ûnîvêrsîtêtê Kûbanêda para zimanê kurdî da vekirinê, lê miqabin me nikaribû 30 xwandevan peydakin wekî navda bixwînin. Ew para kurdayetîyê careke din hate girêdanê. Me helbestên zimanê kurdî nivîsîn û welgerande zimanê rusî û kovar rojnamên Krasnadarêda dihatin weşandinê û me belavdikire nava cimeetê. Xêncî wê me festîfal û konsera derbas dikir û pir mevana ji per welatê Krasnadarê dewat dikir û herê carê hezar, hezar bênsed meriv beşdar dibun. Roja îro em bextewarin ku, cîwanên kurdên me xwandina bilindda dixwînin û digêhjine merteba bilind û kar û xebatên başda kar duşuxlin. Bi teşkîldarîya endamên komeleyê kurdên me bune dêpûtat, serkarê tendurustîyê, muhendîs, rêvevebirê gûnda, serkarê karxanê mezin, ulumdarê zanîstîya bilind derketine. Boy xebata meye baş me gelle cara nama spasdarîyê ji alîye seroktaya Gubêrnatora û ji alîyê serkarê Wezîrê Çanda Krasnadarê wergirtîye. Ez çawa serogê Komela ,,Keskesor,,-ê çawa helbestvan, dixwazim helbesteke xwe bi zimanê kurdî rewayî gellê xwe bikim. Ez bawarim rojnama ,, Dîplomata Kurd,, wê vê helbestamin biweşîne û temamîya xwendevanê rojnamê wê bixwînin û binirxînin.

Ez silavên xwe dişînim hemû kurdên meye mêrxas, welatparêz û serhildarara ku belavî topa cîhanê bune û hîvîya Kurdistana Azad û Serbixwenêne.

ROJNAMA “DÎPLOMATA KURD”

Rewayî Xûdan Îmtîyaz û Sernivîsarê rojnama “DÎPLOMATA KÛRD” Tahir Silêman dikim.

Rojnama ,,Dîplomat..-ê weşandin dijmin qut kir
Lê Tahirê Silêmîn neyar xema wûr barkir
Bi serfinyazîyêva li wana qirik zakir
Neheqî da rûyê wan weşandin dûbare kir

Rojnama ,,Dîplomat,,-ê Tahir rupelek vekir
Dîroka Kûrdistanê perçe perçe cî war kir
Bona xwandevanê me hûr gilî şirove kir
Li kurdênme cîhanê çar zimana rewa kir

Ne şêkrandin derdara Tahir gel mîlîyon rakir
Hêrsa xwe wîya werkir şermezarî wan barkir
Pêwîste ez binvîsim hember kurda bûn kafir
Xwîna bêwa hilşandin, neheq barandin hêsir

Çar perçê Kurdistanê tev şervana te gav kir
Fêrizîya te dijmin dît, qametê xwe wan xar kir
Te çewa dît sengera kek Berzanîyê nemir?
Sîmvola azadarîyê ew ala kû bilind kir!

Rupelê rojnamêda dîroka me kevn lêkir
Selaheddîn Eyyubî û şerêwî bîr nekir
Wîya çawa bi rûh can dînê Îslêm xayîkir
Dewleta Misirêda wûya padşatî lêkir

Mam Celal Telebanî ku Tahir pêşwazî kir
Got, eskerê Amrîka ji Îraqê me derkir
Birakujîya nav gela bi rumet me rakir
Rojnama ,,Dîplomat,,-ê elametî belakir

Wî got kek Mesud Berzanî dine kurdê me nas kir
Derd kullê hezar sala serfinîyazî we qenç kir
Elamke serbest dewlet ser vê axa rizgar kir
Wî caw da hê newexte hinekî bikin sebr

Ewladê mexlûqetîyê, Tahir li gel hewar kir
Qot nebine kole, bindest gere-laljî bi zar kir
Xayînetî hiz nekir, kê pişta me xençer kir
Ajanê piş perdêda ser pusîya wana vekir

Dûrsin qot; ,, Tahir pir pir ber neheqîyê debar kir
Bi şeref şîrê wî mêt herd dayika helal kir
Xwîn xurî bê şerefî, pajda ku ewa nezvir
Rojnama ,,Dîplomatê,, bi her mecala xurt kir

Dursunê Têmir Balayêv

Rojnameya ``DÎPLOMAT``,em benda hejmara 1000-îne

Rojnameya ``DIPLOMAT`` ya kurdên Azarbaycanê ku bi çar zimanan (kurdî,azerî, tirkî û rûsî) tê weşandinê, hejmara xwe ya yekê di 01.01.2003-ê de weşandîye. Naha hejmara 500-î ronahî dît. Xwedî xwedan îmtîyaz û sernivîskarê ``Diplomat``-ê, rewşenbîrê hêja, welatparêzê bê humber Tahir Silêman e.

Gava min bihîst ku, rojnameyek kurdî li Azerbaycanê tê weşandin, ez wûsa fikirîm ku ji teref gellek xebatkaran ve tê amade kirin û weşandinê. Lê piştî ku ez çûm mala mamoste Tahir Silêman, min dît ku ev rojnameya rengîn ya bi navarokek dewlemend, tenê bi kar û xebata malbatek fedakar ve tê meşandin!

Ev rojnameya rengîn bi ked û xebata şexsekî tê amade kirin û weşandinê. Hêjayî gotinêye ku hemjîna birêz T. Silêman û kurê wî xortê hêja Îsmail Tahir jî herdem bi ked û xebata xwe alîkarîyê didin rojname yê. Careka din ez bûm şahidê hêza afirandinê ya hestên kurdînîyê. Heta nuha 499 hêjmara ``Dîplomat`` hatiye weşandin, gava ku min ev gotar dinivîsand mamosta Tahir jî hejmara 500-î an ji bo weşandinê amadeyî çapê dikir.

Bêguman weşandina rojnameyek weka ``Diplomat``-ê bi çar zimanan gellek xebat û bi aborîyek hindik re zehmet e. Lê birêz Tahir Silêman sîngê xwe daye hemberî hemû zor û zehmetîyan û dibêje berxwedan jîyan e. Car caran kurdên fedakar hinek alîkarîyê ji bo rojnameyê dikin, lê piranîya mesrefên rojnameyê ji bêrîka mamosta Tahir Silêman derdikeve. Li gor mamosta Tahir her hejmarek rojnameyê 2500-3000 heb tê weşandin. Piranîya rojnameyê mift (belaş) tê belaw kirin. Gellek ji van rojnameyan li Azarbaycanê tê belav kirinê, lê her weha xwendevanên rojnameyê li Rusya, Gûrcîstan, Kazakîstan, Qirasnedar û di gellek cîyên din de jî heye, ji ber wê jî rojname di van cîyan de jî tê belav kirin. Hêjayî gotinêye ku hikumeta Azarbaycanê maf û azadîya weşanan daye kurdan. Bi xebata kesên weke birêz T. Silêman pir a dostanîyê di nava gelê kurd û azerîyande ava dibe. Weke ku me li jor jî anîye ziman rojname bi çar zimanan tê weşandinê, Tahir Silêman bi zimanê azerî û rusî pirsgirekên kurdan tîne rojeva birayên azerî û gellên din ku bi zimanê rusî dikarin bixwînin. Xebata rewşenbîrê hêja mamosta Tahir Silêman deng û rengê kurdên Azarbaycanêye ku, bi rêya rojnameya ``Diplomat``-ê sînoran derbas dike û di hêlîna dilê kurdan cîyê xwe digre. Ji ber ew ked û xebata ku wî daye û bi îmkanên xwe 500 hejmar weşandîye, divê mirov mamosta Tahir pîroz bike. Rojnameya ``Diplomat`` weke zarokekî mamosta Tahir Silêman e û ew xwedî li zarokê xwe derdikeve. Em bi ser navê malpera Netewe birêz Tahir Silêman ji dil û can pîroz dikin û ji bo rojnameya ``Diplomat``-ê jî temenek dirêj hêvî dikin. Mala te ava be

mamosta Tahir Silêman. Em benda hejmara 1000-ne

Amadekar: Çeto Omerî

Bizim xalqlarımızın gücü dostluğumuzdadır

«Əkinçi» qəzeti milli mətbuatımız üçün nümunə oldu. «Əkinçi» sübut etdi ki, cəmiyyətin inkişafının əsas göstəricilərindən biri də mətbuatdır.

Doğrudur,həm «Əkinçi», həm də ondan sonra nəşr olunan mətbuat nümunələri çox çətin, əzablı, dövrün qeyri-demokratik abhavasının təsirindən qurtula bilməyən ömür yolu keçmişdir. Lakin şükürlər edirik ki, Azərbaycan milli müstəqilliyini əldə etdikdən sonra mətbuat üzərində senzuranın «demokl qılıncı» götürülmüş, son illərdə mətbuatımız xeyli demokratik dəyərlərə sahib olmuşdur. Azərbaycan tarixən müxtəlif xalqların birgə yaşadığı ölkə olmuş, bu gün də belədir. Dərdləri, faciələri eyni olan, kədərlərini, sevinclərini bir-biri ilə bölən bu xalqlar müstəqil Azərbaycanın aydın və işıqlı gələcəyi üçün çalışır. Azərbaycanın müstəqilliyi bu torpaqda yaşayan milli azlıqların da həyatında yeni üfüqlər açmışdır. Bu gün ölkəmizdə yaşayan ləzginin, talışın, kürdün, tatın Azərbaycanı vətəni bilən, bu vətən üçün canından, qanından keçən digər xalqların da milli hüquqları qorunur, adət-ənənəsinə, dilinə, dini mənsubiyyətinə hörmət edilir, keçmişini,tarixini, ədəbiyyatını öyrənmək və yaymaq üçün şərait yaradılır. Buna çoxlu örnək gətirmək mümkündür.

Bu gün 500-cü sayı işıq üzü görən «Diplomat» qəzeti də belə bir ictimai-siyasi abhavanın nəticəsində meydana gəlmişdir. Qəzetin ərsəyə gəlməsində xüsusi xidməti olan, redaktor Tahir müəllimi yorulmaq bilmədən xalqının-kürdlərin tarixini, dilini, cəmiyyətin üzdəki ictima-siyasi yerini bilərəkdən təbliğ və tədqiq edən istedadlı jurnalist kimi tanıyıram və onun redaktoru olduğu «Dirlomat» qəzetinin daimi oxucusuyam. Xalqına, onun keçmişinə, tarixinə bu qədər bağlı olan qələm dostumun fədakarlığı məni heyrətə gətirir. Onun Azərbaycanda yaşayan xalqların:-türklərin, kürdlərin, talışların, saxurların və digərlərinin dostluğuna birgə yaşayışına həsr etdiyi məqalə və yazıları diqqətlə oxuyuram. "Diplomat" qəzetində dünyada yaşayan kürdlərin həyatı ictimai-siyasi fəaliyyəti, yaşayışı, mübarizələri ön plana çəkilir və görünür ki, bu mübarizədə Tahir müəllimin və onun qəzetinin də müəyyən dərəcədə qatqısı vardır.

O, dünyada yaşayan bütün kürdlərin bugünkü və gələcək taleyi ilə ciddi maraqlanır və bəzən bu siyasi mübarizə xarakteri alır. Doğrudur, bəzən mən Tahir müəllimin radikal siyasi maraqları ilə razılaşa bilməsəm də, milli mücadilənin hər kəsin özəl haqqı olduğunu da dana bilmərəm və bəzən, hətta, dostum olmağına baxmayaraq, mövqelərimizdə üst-üstə düşməyən anların da olduğunu etiraf etməliyəm.

Hörmətli Tahir müəllim qəzetimizin 500-cü nömrəsi çıxmağı münasibətilə sizi təbrik edirəm. Fəaliyyətinizi, xalqımızın gələcək taleyi ilə bu qədər yaxından maraqlandığımızı təqdir edirəm və arzu edirəm ki, qəzetimizin və sizin siyasi gücünüzün istiqaməti ilə bu günü keçmişi və gələcəyi birgə olmuş və olacağına ümid etdiyimiz türklərin və kürdlərin dostluğuna Azərbaycan adlı yurdumuzun bütövlüyünə, tamlığına, suverenliyinə, qələbə ilə qazandığımız Qarabağın, itirdiyimiz Göyçənin, Vedinin, Dərələyəzin, Dərbəndin geri alınmasına yönələcəkdir. Bizim xalqlarımızın gücü dostluğumuzdadır. Bu dostluğun əbədi olacağına inanıram.

Kürd ziyalısı, ağsaqqalı xalqı maarifləndirməlidir

Hörmətli oxucular! "Diplomat" qəzetinin fəaliyyəti haqqında hörmətli ziyalılarımız öz fikirlərini bildirəcəklər. Mən isə "Diplomat"ın əsl diplomat olub kürd xalqında olan bəzi steriotipləri məhv edərək yeni bir düşüncə tərzi yaratmasından söz açmaq istəyirəm. Məsələn çoxları elə bilirdilər ki, Azərbaycanda bir kürd qəzeti var – "Kürdün səsi", o da çıxandan çıxana, heç bir samballı məlumat olmayan 8 səhifəlik inqilab zamanı camaata paylanılan proklamasiya. Xalq öz etirazını bildirəndə - deyirlər ki, Dövlət imkan vermir və s. Lakin "Diplomat" qəzetində Kürdüstan, Abdullah Öcalan, Barzani haqqında son xəbərləri oxuyanda, sadə bir kürddə belə bir fikir yaranır – demək bizim normal fəaliyyətimiz üçün dövlət heç bir manea törətmir. Artıq insanlar düşünürlər ki, Dövlət bizə belə demokratik şərait yaradıb, niyə biz tanıdığımız "ağsaqqallar", "xalqı arxasınca aparanlar", "maarifçilər" heç bir iş görməyiblər. "Diplomat" qazeti çap olunandan bizim xalqda çox suallar yarandı. Artıq xalq get-gedə maariflənərək oyanmağa, özünü aldadılmış görüb çarəsiz bir lazımlı informasiya axtarmağa başladı. Həqiqətən biz siyasi və iqtisadi oyunların qurbanı olmuşuq? Niyə kürdlər min illərdi yaşadıqları torpaqlardan qovulur? Bəzi kürdlərin xain əməllərindən, yoxsa böyük siyasi oyunlar nəticəsində?

Laçından olan gənc bir yoldaş mənə demişdir: "Bizdə bir aclıq var – informasiya aclığı. Daima vətənim, xalqım, mədəniyyətim haqqında bir məlumat axtarışındayam". Məncə "Diplomat" qəzeti bu aclığı qisməndə olsa ödədi. Bu qəzet vasitəsi ilə xalq nəinki maarifləndi, çoxlu suallarına cavab tapdı, həmçinin senzurasız, sərbəst şəkildə öz sözünü dedi! "Diplomat" kürd xalqının oyanmasına təkan verdi. Artıq nəinki Azərbaycanda, həmdə digər dövlətlərdə "Diplomat" qəzetini mütəmadi olaraq əldə edirlər. Bütün bunlar Tahir Süleymanın cəsarətinin, uzun illər cəkdiyi əziyyətinin bəhrəsidir. Tahir müəllimlə və digər kürd ziyalılarına və kürd xalqının gələcəyi olan gənclərə bizə sırıdılmış "ağsaqqallar" tərəfindən çox nalayiq böhtanlar atılmış, xalqın gözündə alçaldmağa çalışmışlar, nəlayiq hərəkətlər etmişlər.

Lakin kürd xalqının böyüklüyü ondadır ki, xainlərin vurduğu bütün zərbələrə baxmayaraq, kürdlər ayağa durmağı bacaran xalqdır. Tahir müəllim heç nəyə baxmayaraq öz xalqına məhəbbətini, onun talehinə olan məsuliyyəti nəticəsində xalqa "Diplomat" qəzeti bəxş etdi. Yuxarıda qeyd etdiyim kimi, bu əməyin nəticəsində isə xalqımızın düşüncəsində, təfəkküründə yeni səhifələr açıldı, xalq yuxudan oyanmağa başladı.

Sonda bildirmək istəyirəm ki, kürd ziyalıları xalqın boğazına ip bağlatdırıb dalınca süründürməməlidirlər. Kürd ziyalısı, ağsaqqalı xalqı maarifləndirməlidir, ona ən əsas bilik verməlidir, özünə inam yaratmalıdır. Bundan sonra artıq xalq – xalq olur, və özü özünə layiqli rəhbər seçir.

O GÜN OLSUN, MİNİNCİ SAYINI QEYD EDƏK , ”DİPLOMAT“



Həkim Hamlet Serdar və Kürdüstanın Sabiq Mədəniyyət naziri mərhum cənab Fəlakəddin Kakeyi

Həyatda elə insanlar var ki, ömrünü həyatını, xalqına, dövlətinə həsr edir, onun yolunda bütün çətinliklərə sinə gərir. Bu cür şəxsiyyətlər zaman-zaman insanların qəlbində daima yaşayır, vətənpərvər şəxsiyyət kimi xatırlanır, heç bir zaman yaddan çıxmır, unudulmur. Mən birinci dəfə Tahir müəllimlə tanış olanda fikirləşirdim ki, bu insan nəsə başqa bir şəxsdir. Ona görə ki, «Diplomat» kimi bir qəzeti boya-başa gətirmək,ərsəyə çatdırmaq üçün, fiziki cəhətdən nəhənq insan olmaq lazım idi. Bu fikir məndə Tahir müəllimi şəxsən tanımayana qədər idi.

Qarşıma üzündən illərin əzab-əziyyəti əks olunmuş, ağ saçlı, nurani baxışlı, gözlərindən mehribançılıq, təmizlik yağan orta boylu bir insan çıxdı. İlk baxışdan adi insan fikri oyadan bu şəxslə söhbət zamanı onun heç də bizlər kimi adi insan olmadığını başa düşdüm. Tahir müəllimlə söhbət edərkən bu şəxsin dünya görüşünə intellektinə, xalqına, millətinə olan sevqisinə heyran olmamaq mümkün deyil. Həyatda ən mürəkkəb insanlar sadə, olanlardır. Tahir müəllim də belə sadə ancaq daxilən mürəkkəb xüsusiyyətlərə malik insanlardandır.

Dəfələrlə onun necə əzmlə kompyuter arxasında oturub «Diplomat» qəzeti üçün mətnlər yığılmasının şahidi olmuşam. Onun necə diqqətlə məsuliyyətlə, həvəslə oturub kürd xalqının tarixini adət-ənənəsini. Folklorunu araşdırdığını görmüşəm Bəzən saatlarla stolun arxasında oturub işləyərkən deyirdim: «Tahir müəllim bəsdir bir az dincəlin yorğunluğunuz çıxsın». Cavabı bu olurdu ki, mən bu işdən zövq alıram, hər dəfə qəzet ərsəyə gələndə elə birəm dünyaya yeni bir körpəm gəlir.

Vaxt gələcək mənim gördüyum işlərin Kürd xalqı və Azərbaycan xalqları üçün necə böyük bir iş olduğunun şahidi olacaqsınız. Zaman keçdikcə Tahir müəllimlə əlaqələrimiz daha da yaxınlaşdı və mən 2007-ci ilin oktyabr ayında Tahir müəllimlə Kürdüstan Mədəniyyət Nazirliyinin dəvəti ilə Kürdüstana getdik. Bu tarixi günlər mənim üçün həyatımın ən gözəl anları idi. Zaxoda, Dohukda, Ərbildə, Səlahəddində, Bərzanda olduq, orada Tahir müəllimin necə isti hisslərlə, hörmətlə qayğı, diqqətlə qarşılandıqının və orada olarkən «Diplomat» qəzetinin necə maraqla qarşılandıqının,diqqətlə oxunduğunun şahidi oldum. Bunlar «Diplomat»-Tahir Əliyevin uğurları idi. Bunlar Tahir müəllimin illərdən bəri bu xalqın yolunda çəkdiyi əziyyətlərin uğurundan xəbər verirdi, bunlar Kürdüstanla orada yaşayan Kürdlərin, Azərbaycan xalqı və Azərbaycanda yaşayan kürdlərlə isti münasibətlərin, dostluğun qardaşlığın yaranmasından xəbər verirdi. Bunlar Tahir müəllim kimi bir şəxsiyyətin illərlə çəkdiyi əziyyətlərin, yuxusuz gecələrin bəhrəsi idi. Bunlar «Diplomat»ın uğurlarından xəbər verirdi. «Diplomat» qəzetinin boya-başa, ərsəyə gəlməsində bir nəfər insanı qeyd etməmək insafsızlıq olardı. Hərdən zarafatla deyəndə ki, Tahir müəllim «Diplomat» qəzeti senzuradan keçir?

Tahir müəllim gülərək: «Keçməsə çap olunmazdı» deyirdi. Ona görə ki, «Diplomat»in ilk birinci oxucusu ona mənəvi dəstək olan şəxs Nigar xanım onunla həm həyatda, həm də işdə birgə addlımlayır, ona arxa kömək olur. Həyatının ən çətin günlərində, işlərinin çətin məqamlarında «Diplomat»ın bu səviyyəyə çatmasında Nigar xanımın əməyinə qiymət verməmək mümkün deyil. Bu gün «Diplomat»ın 500-cü nömrəsi işıq üzü görür. Tahir müəllimin də «500 yaşı» tamam olur. Bu «20 ildə» «Diplomat»ın amalı, məqsədi Azərbaycan-Kürd dostluğunu qardaşlığını, möhkəmləndirmək, dövlətimizin mənafeyini qorumaq, dövlətimizin siyasətini dəstəkləmək, Kürd-Azərbaycan mədəniyyətini, adət-ənənəsini daima inkişaf etdirmək, dünyanın istənilən yerində yaşayan kürd və azərbaycanlılarla, dostluq və qardaşlıq əlaqələrini yaratmaqdan ibrət olmuşdur. «Diplomat» ona qarşı aparılan haqsızlıqlara, çətinliklərə baxmayaraq öz işinin öhtəsindən uğurla, şərəflə gəlmiş və gələcəkdir. Bu şərəfli işdə Tahir müəllim başda olmaqla bütün «Diplomat» kollektivinə ona mənəvi və maddi dəstək göstərən bütün insanlara çətin günlərdə Tahir müəllimi tək qoymayan qorxmaz Nəriman müəllimə uğurlar, müvəfəqiyyətlər, can sağlıqı arzulayıram.

«Diplomat» «Beş yüzüncü» sayın mübarək.! O gün olsun mininci sayını qeyd edək.

Hamlet Sərdar

BILA ROJNAMA“DÎPLOMAT” HER TIM SERKEFTÎ BE

Hejmara 500-î pîrozbe

Raperîna rojnama “Dîplomat”-ê.

Piştî hilweşandina dewleta Sovyêtê gellek mecal û derfetên dêmokratîk ji bo pêşdaçûyînê di warê çand, wêje û emrjîyana kurdên Azerbaycanêda pêşda hatin. Kurd li vê herêmêda ji demên kevnarda dijîn, bê şik mirov dikare bêje kurd nijatek binecîye li vê herêmêda. Di pêşketinên vê herêmêda her awayîda roleke kurda balkêş heye.

Lê ji sala 1930-ya heya 1990-dî di belga nasnamada peyva kurdî li vê herêmêda resmî hatibû qedexe kirin.

Bi kurdî ne pirtuk ne jî rojnama nedihatin weşandin. Kurd bi zanetî dihatine helandinêda. Di warê neteweyîda ji bo pêşketinan ji bo gelê kurd, tu destûr nemabû. Lê piştî rûxandina Sovyêtan li bajarê Bakûyêda Navenda Çanda Kurd “Ronahî” (sal 1992) ava bû. Rojnama “Dengê Kurd” sala 1992-a dest bi weşanê kir. Bi dehan bi zimanê kurdî pirtuk hatine weşandin. Kurdên binecî hêdî-hêdî nasnamaya xwera xwedî derdiketin.

Tirs û bandora li ser wan ji holê dihate rakirin. Di radîyoya dewletê ya Azerbaycanêda heftê du cara her carê 15 deqîqe (sal 1993) ji bo weşana zimanê kurdî destûr hate dayînê. Pey van karên pîrozra, nava kurdên Azerbaycanêda pêşerojêra bawerî çê dibû. Lê ev pêşketinên ku ji bo gelê kurd xûya bûnê şunda, gellek hêzên nijatperest bi fikr û ramanên qirêjva di çapamenîya muxalîfetêda bi nivîsarên qirêj êrîşî kurdan dikirin.

Rewşenbîrên kurdên herêmê nikaribûn demêda bersîva van nijatperestan bidin. Rojnama “Dengê Kurd” salê 3-4 hejmar dihate weşandin. Ev jî gellekî kêm bû. Di warê çapemenîya kurdada hejarîk, kêmasîk hebû. Nikaribûn bersîvan demêda bide.

Demeke wehada rewşenbîr û welatparêzê kurd ê hêja Tahirê Silêman ji bo ku vê valabûnê ji holê rake berpirsîyarîke bi şeref û dîrokî hilda ser xwe. Ji 2003-yê sale meha şûbatêda dest bi weşanîna rojnama “Dîplomat”ê kir.

Ev rojname rojnameke serbixweye. Çar zimanada ronahîyê divîne: kurdî, azerî,tirkî û rûsî. Weşanîna “Dîplomat”ê bû raperînek dijî nijatperestên herêmê yên ku hertim dijî gelê kurd helwesteke xirabda bûn.

Hertim hêzên nijatperest hewl didan ku weşanîna ``Dîplomat``-ê bidine rawestandin. Hertim “Dîplomat” û xudanê “Dîplomat”ê êrîşê nijatperesta dihat. Lê bi saya Tahirê Silêman rojname hertim wedêda tê weşandin û bi cesaret bersîva nijatperesta hêzên nexêrxaz eşkere tê dayîn. Yek jî ev tiştê rojnamê balkêşe ku, rewşenbîrê kurd Tahirê Silêman ji destpêkê heya îro tik tenê vê rojnamê dide weşandinê û li Rûsya, li Kazaxstanê, li Azerbaycanê tê belav kirinê. Û wusa jî bi rêya înternêtêva li malpera www.diplomata-kurdi.com tê weşandinê. Rojnama “Dîplomat”ê bi awayekî professîonal ronahî divîne û di hemû pêdivîyara bersîv dide.

Bi giştî daxwaz û xastekên gelê kurd diweşîne digîhîne gellên kurd û netewên din. Ev jî nexastîyên gelê kurd gellekî nerehet dike. Bi saya cesaret û berxwedana Tahirê Silêman, îro ev rojnama 20 sale ser pîyaye, hemû pirsgirêk û dijwarî alt kirin, bi gavên pîrozva pêşda dimeşe û ev hejmara 500 yê tê weşandin.Rojnama “Dîplomat” bi bawerî qavên hêz, qaîm davêje, qedera wê destê kurdekî gelperwer û bi cesaret daye. Cesaret jî wesîla altindarîyêye.

Ez ji vê katê pêk dînim, di rupelên vê hejmarêda sala 2022-a, xandevanên vê rojnamêra, xudan û sernivîsarê (rêdaktorê) “Dîplomat”êra pêşketinên nû, emrekî bi sîyanet bi baristanî, bi dil û can dixwazim û divêjim, bila “Dîplomat” her tim wiha serkeftî be.

Bêwar Barî Teyfûrî.
09.30.2022.

Diplomat qəzetinin Beş yüzüncü sayına

DİPLOMAT

Beş Yüzüncü sayın mübarək olsun,
Doğru əqidəli olan Diplomat.
Rəngin saralmasın, nə də ki solsun,
Oxuyanlar oxuduqca qalsın mat.

Daimi çəkirsən Vətən dərdini,
Tərif eyləyirsən olan mərdini.
Tənqidə tutursan hər namərdini,
İstəyirsən gözəl olsun bu həyat.

Hər sayında həqiqəti söylədin,
Xalqın ürək istəyini eylədin.
Naqisləri əyri yoldan əylədin,
Nanəcibə cavab verdin iki qat.

Dolan bu dünyanı keçdikcə illər,
Qoy səni oxusun bütün nəsillər.
Qarşılasın səni obalar, ellər,
Yüzdən sonra neçə belə yüzə çat...

Köks ötürdü sənə qarşı naqislər,
Yaxşılar sevindi, qəmləndi pislər.
Səhifəndə səsləndi səmimi səslər,
Həqiqəti dedin, yaşadın rahat.

Xeirxaxlıq olub daimi işin,
Belə davam etsin olan vərdişin.
İllər gəlib keçsin olsun min beşin,
Yaşa illər boyu, yaşa Diplomat!

Nəriman Əyyub

K a m i l N o v r u z

"Diplomat" qəzetinin 500-cü sayına

Axarlı olsun

Dünyamızın ağ üzü,
Həmdə qara, üzü var.
"Diplomat", o bir güzgü,
Güzgüdə tutub qərar.
Bu güzgüdə saf arzu,
Vətənə xidmət eylər.
Namərdə nifrət eylər,
Yalana salmaz meyl,
Onda var əsas dəlil,
Qələm aç ona könül.
Oxusun şeyda bülbül.
Bu dünya zülmət deyil,
Hər bəladan insanı
Doğru amal qurtarar.
Çiçək açar arzular.
Onda Sabir qeyrəti,
Onda el məhəbbəti,
Vətəvə sədaqətdi.
O, əbədi hərəkətdi,
Bu hücrə ibadətdi.
"Diplomat" cəsarətdi.
Gizlətməyək məramı,
Seçək ağı-qaranı,
Unutmayaq Tanrını,
Tanrı göydən baxır.
Bulaqlar daşdan çıxar.
Çayların axarı var,
Günəş tək çırağın var.
"Diplomat"ın dərsi var.
Barı var, bəhrəsi var,
Özünə məxsus mərdi var,
Tahir kimi nəri var!
Dədəm Qorqud deyib ki,
Ad qoyduq uğur olsun.
Axar baxarlı olsun!

500-cü sayın mübarək "Diplomat"

Respublikamızda olan demokratik mühitdən bəhrələnərək yüzlərlə qəzet və jurnallar çap olunur. "Diplomat" qəzeti belə bir zamanda işıq üzü gördü. Əlbəttə bu zaman tanınmaq, həyata vəsiqə qazanmaq çox çətin idi. "Diplomat" qəzeti bu çətinliklərə sinə gərdi, özünü təsdiq edə bildi. Artıq onun çoxsaylı oxucuları var, qəzetin nə vaxt nəşr olacağını gözləyirlər. Qəzet nəinki Respublikamızda, ölkəmizdən kənarda da oxunur. Bir çətinlikdə onda idi ki, qəzeti təkbaşına Tahir Süleyman ərsəyə gətirdi. Bu böyük səriştə və cəsarət tələb edirdi. Artıq baş redaktor Tahir Süleyman ətrafına savadlı əməkdaşlar cəlb etmişdir. Nəriman Əyyub kimi ziyalı, şair dostumuz qəzetin dolğun, məzmunlu olmasında əməyini əsirgəmir.

İlk nömrələrindən başlayaraq "Diplomat" qəzeti Dövlətçiliyimizə, dostluğa xidmət edir. Respublikamızda azsaylı xalqlara, o cümlədən kürdlərə yaradılan şəraiti göstərir. Bilirik ki, Respublikamızda kürd dilində qəzetlər, kitablar çap olunur. Azərbaycan radiosunda kürd dilində verlişlər olur. Tarixə nəzər salsaq ta qədim zamanlardan Azərbaycan və Kürd xalqları dost olmuşlar. Həmişə bir-birinə arxa-dayaq olmuşlar. Azərbaycanın görkəmli şair və yazıçıları öz əsərlərində müsbət kürd qəhrəmanı obrazını yaratmışlar. Görkəmli yazıçı Mirzə İbrahimovun, adlı-sanlı şairlərimiz Səməd Vurğun, Söhrab Tahir əsərlərini misal gətirmək olar. Son zamanlar bəzi qəzetlərdə heç bir fakta əsaslamadan kürd xalqı əlehinə kompaniya aparılır. Mənə elə gəlir ki, həmin qəzetlərin müxbirlərinin bir qismi bunu sensasiya, qəzetin satılması üçün, digərləri isə tarixi bilmədiyi, Azərbaycan-Kürd dostluğundan xəbəri olmadığı üçün edir. Belə zamanlarda "Diplomat" qəzeti tutarlı faktlarla çıxış edir, tarixi yada salır, haqqı-ədaləti tələb edir.

"Diplomat" qəzeti vaxtaşırı olaraq Azərbaycanın tanınmış Dövlət xadimləri, ziyalıları ilə müsahibələr nəşr edir. Bu müsahibələr dolğun, əhatəli, çox maraqlı olur. Buna misal olaraq şair Söhrab Tahirlə, professor Qəzənfər Paşayevlə olan yazıları göstərmək olar. Qazetin baş redaktoru Tahir Süleyman bir neçə dəfə İraqda, İraqın Kürdüstan bölgəsində olmuş, orada kürdlərin, turkmanların vəziyyəti haqqında ətraflı məlumatlar çap etdirmişdir. Silsilə şəklində nəşr olunan bu məlumatlar, şəkillər çox maraqlı olur.

Məlumatı olmadığımız hadisələr haqqında öyrənirik. Qəzetdə Dünyada gedən qlobal proseslərdən, ictimai-siyasi hadisələrdən danışılır. Sətri xəbərlərdə maraqlı yazılar çap olunur. Bədii-publisistik yazılar da rast gəlmək olur. Bir çox gənc şairlərin şerləri çap olunur, biz onların yaradıcılığı ilə tanış oluruq. Qəzetin əməkdaşları daim əhali ilə təmasda olurlar. Xüsusi ilə qaçqınların yaşadıqları yerlərə gedirlər. Yas mərasimlərində iştirak edirlər, həmin çətin günlərdə insanların kədərinə şərik olurlar. Tahir müəllimə müraciət edən şəxslərlə müxtəlif idarələrə gedir, yaranan problemlərin həllinə çalışır. Mən "Diplomat" qəzetinin əməkdaşlarını 500-cü nömrə münasibəti ilə təbrik edir, həkim kimi onlara cansağlığı arzu edir, işlərində müvəfəqiyyət arzulayıram.

Arzum budur ki, qəzet xırda hisslərdən, qərəzli mövqelərdən uzaq olsun. Yuxarıda sadaladığım böyük amallar uğrunda fəaliyyət göstərsinlər. Çünki qəzetlərin hər bir sayı tarixdir, yenilikdir. Gələcəkdə qəzetlərin materialları əsasında kitablar çap olunur, həmin dövrün ictimai-siyasi hadisələri, baş verən olaylar araşdırıla bilir.

"Diplomat" qəzetinin 500-cü sayı münasibəti ilə

Ulu öndər sənə verib ilhamı
Hər bir sayındada gördük İlhamı
Dünyanın sirrindən faş etdin bizi
Göstərdin bu yoldur həqiqət izi

Bir daha anlatdın yaxşı pis nədir?
Həqiqət yolunun sirri nədədir?
Söylədin hamıya sevin vətəni
Yurda buraxmayın yoldan ötəni.

Anlatdın vətənin ağrı-acısın,
Əsirlikdə olan ana-bacısın.
Yazdın ki, yurdumuz alınmaz qala,
Qələbə bizimdi nə ola-ola.

Göz yaşı tökmüsən xocalı üçün,
Qırğın törədəndən sormusan neçin?
Təcavüz etmisən yurduma dığa,
Əsir torpağımda olmusan ağa.

Yazirsan yurdunun dərdi sərindən,
Məlun məhv etdiyi məğrur ərindən.
Yazirsan ədalət ərşə çəkilib,
Yerində hiylədən toxum əkilib.

Xocalı adında yaran sağalmaz,
Ordakı müsübət tarixdə olmaz.
Hər bir sətirində Qarabağ səsi,
Büsbütün varlığın onun nəfəsi.

Sətirin səhifən hər an vətəndi,
Vüqarın qeyrətin anınla təndi.
Az qalıb yazasan zəfər günündən,
Yurdda edəcəyin toy düyünündən.

Hacı Paşa Ağaoğlu

PÎROZBAHÎYA DÎPLOMATA BAKÛYÊ

Dîplomatek kurdî li Azerbaycanê ji alîyê Tahir Silêman tê weşandên.

Esas "Diplomat" navê rojnamê ye; Rojnameyek bi 4 zimana; Kurdî, Azerî, Tirkî û bi Rûsî tê çapkirine, ku peywira Diplomatekî Kurd/Kurdistanê girtiye ser millê xwe. Rojname ji sala 2003'an û vir ve weşanê dike. Ev rojname erê li Bakû yê dertê. Lê belê xwe digihîne Asya Navîn, Kurdên Rûsya yê û gelek welatên din jî.

Xwedî û sernivîskarê Dîplomatê birêz Tahir Silêmane. Birêz Silêman, ji bona Kurd û Kurdistanê bi aweyeke realist û demokratîk, humanîst û bi rêzdarî û her wiha bi fedekarî vî karê xwe didomîne. Tahîr Silêman û rojnameya Diplomat rastî êrîşan jî tê; Nîjadperestên Tirkîyê, nerazîne ku rojnameyek gelê Kurd û bi Kurdî li Azerbaycanê derdikeve. Rojname bi çi ideolojîyê dibe bila be, evana rojnamê weke dengê terorîsta nîşan didin. Ku ev nîjadperestana ji xwe li hember gelê Kurde. Lê belê li Azerbaycanê û di nava xelkê Azerî de jî tevlihevîyê dikine û li vî welatî bê aramîyê derdixin holê...

Rojnameya Diplomat, li hember van pêkûtîyan, zor û zahmetîyan weşana xwe dike û bi bîr û bawerî û bi serkeftî jiyana xwe didomîne. Her wiha min bihîst, ku rojnameya Diplomat dike hejmara xwe ya 500-emin biweşîne.

Hejmara 500'î bi xêr û bi xweşî û bi serfîrazî be. Hêvîdarim hejmara 1000 û deh hezaran û bêtir jî ev rojname jiyana xwe bidomîne û berjewendîyê Kurd û Kurdistanê li vî welatî biparêze.

Birêz Tahir kesekî çalake; Geh li Bakû, geh li Kurdistana başûr, geh li bakur, li cem Kurdperweran, hunermendan, rêvebiran û serokane. Bi wan re hevpeyvînê dike; hevpeyvînê xweş û balkêş. Dengê wan digihîje Kurdistana Sor û her wiha digihîje Asya navîn û hemû Cîhanê jî.

Li Kurdistana Sor, heta Tahîr Silêman û gelek welatperwerên Kurd, mîrov hez û demokrat ji bona azadya gelê xwe, ji bona Kurdistanê têdikoşin.

Em Kurdên li Kurdîstana Bakur, serfirazî ji Kurdistana Sor re, ji rojnameya Dîplomat ê re, ji birêz Tahir Silêman re daxwaz dikin. Bi hêvîya hejmara 1000-î ...



Mamed Dêrikî , Dîyarbekir

Beş yüzüncü sayın mübarək, beynəlmiləl “Diplomat”, minincidə görüşənədək

«Diplomat» qəzetinin 500-cü sayının çıxması münasibətilə başda qəzetin baş redaktoru Tahir Süleyman olmaqla, bütün redaksiya heyətini təbrik edirəm. «Diplomat»la, daha doğrusu Tahir Süleymanla ilk tanışlığım 2009-cu ilin fevralında İraq Kürdüstanının baş nazirinin müavini, Covdət Necarın başçılığı ilə Azərbaycana gələn nümayəndə heyətinin, çalışdığım «Həftə içi» qəzetinə qonaq dəvət etməyimdən başladı. O vaxtadək isə həm «Diplomat», həm də onun baş redaktoru T.Süleyman haqqında çox eşitmişdim. Yerli mətbuatda o, PKK-ya işləməkdə suçlanılırdı, rəhbərlik etdiyi qəzet isə PKK-nın orqanı kimi qələmə verilirdi. T.Süleymanla və «Diplomat»ın demək olar ki, bütün sayları ilə tanış olduqdan sonra yazılanların böhtan olduğu qənaətinə gəldim. Bu böhtanların arxasında isə hansı məqamların dayandığını anlamaq o qədər də çətin deyildi. Bütün bunların hamısı T.Süleymanın azərbaycanlılarla kürdlər arasında tarixi münasibətlərin bərpasına, Azərbaycan həqiqətlərinin kürdlər arasında təbliğinə çalışmaq cəhdlərinin üstündən xətt çəkmək məqsədi daşıdığı göz önündədir. Azərbaycan demokratik, sivil bir dövlətdir. Azərbaycanda söz azadlığı, fikir prülarizmi mövcuddur. Bütün Azərbaycan vətəndaşlarının bu prinsiplərdən istifadəsinə tam hüququ çatır. O cümlədən T.Süleymanın və onun rəhbərlik etdiyi «Diplomat» qəzetinin. Onu da yaddan çıxarmaq lazım deyil ki, tarixən Azərbaycanı öz vətənləri hesab edən, bu dövlətin ərazi bütövlüyündə canlarından keçib şəhid olan yüzlərlə azəri türkü arasında kürdlər də var. Qaçqınlıq, köçkünlük onların da taleyinə yazılıb. Onların da dərdi bizim dərdimiz, sevinci bizim sevincimizdir. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri kimi kürd xalqının da konistitusion hüquqları dövlət tərəfindən qorunur. «Diplomat»ı yerli kürdlərin yeganə qəzeti kimi qəbul etmək mənə elə gəlir ki, düzgün deyil. Bu qəzet bütün Azərbaycan vətəndaşlarının, bütün azəri türklərinin qəzetdir. Beynəlmiləlçi dövlət olan Azərbaycanda kürdü, talışı, ləzgini, avarı, tatı və digərlərini azəri türkündən ayırmaq çətindirsə, «Diplomat»ı separatçıların, terrorçuların qəzeti olduğu fikrini hansı əsaslarla söyləmək olar? «Diplomat»da kimlərinsə xoşuna gəlməyən yazılar və yaxud da subyektiv fikirlər dərc olunursa bu o demək deyil ki, qəzet hansısa terror təşkilatına işləyir. Düzdür, bu qəzetdə dünyanın tanıdığı terror təşkilatları sırasında yer alan PKK-nın lideri A.Öcalının fotolarına, onunla bağlı xəbərlərinə rast gəlinir. Amma bu ona heç bir əsas vermir ki, «Diplomat» hədəfə alınsın. Bu qəzeti ittiham edənlərin nəşr etdikləri mətbu orqanlarında da analoji proseslərlə üzləşmək olur. Maraqlıdır ki, bu gün «Diplomat»ı ittihamlayanların bəziləri bir vaxtlar PKK-nın təmsilçiləri ilə Azərbaycanda bir masa arxasında əyləşənlərdirlər. Həm burada, həm də Türkiyədə. Bu dəfə tərəziyə xalqın gözü ilə yox, öz gözümlə baxmaq istəyirəm. «Diplomat» kimi xalqlar arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsinə çalışmaq, Azərbaycan həqiqətlərini, faciələrini kürd xalqının vasitəsilə onların nüfuz etdikləri dövlətlərdə tanıtmaq yaxşıdır, yoxsa, bu qəzeti ittihamlayanların hər sayında dövlət və dövlətçiliyə xidmət edənlərə böhtan atmaq, beynəlxalq aləmdə Azərbaycanı nüfuzdan salacək materiallar vermək, düşmənlərimizi sevindirəcək yazılar dərc etmək, NATO standartları səviyyəsində formalaşan ordumuz haqqında hədyanı danışmaq... Düzdür, söz və mətbuat azadlığı var deyirik. Bəs nəyə görə bundan istifadə edənlərin bir neçəsi hədəfə alınır, onlara «terrorçu», «PKK»çı damğası vurulur, digərlərinə isə yox?

«Onlara bu haqqı kim verib» sualının arxasında qaranlıq məqamlar çoxdur. «Diplomat»ın hər sayında Azərbaycanın mövqeyini dəstəkləyən yazılara rast gəlinir, ağrı-acılarımız təbliğ olunur, ermənilərin, azəri türklərinə düşmən kəsilənlər ifşa olunurlar. Bəs bu qəzeti ittihamlayalarda proses necədir? Bundan isə danışmağa dəyməz. Ən acınacaqlı hal odur ki, bu qəzeti və T.Süleymanı öz millətindən olan bəzi şəxslər də ittihamlayırlar. Qorxudanmı, paxıllıqdanmı, düşmənçilikdənmi... bilmirəm. Bircə onu bilirəm ki, bu qəzet deyilənlər kimi yox, olduğu kimidir. Mən «Diplomat»a bu yolda uğurlar arzulayıram. İnanıram ki, «Diplomat» adını qoruyub saxlayacaq və dünyanın rənglərinə aldanmayacaq, zənginlikləri rədd edərək sağlam düşüncəyə, qardaşlığa və dostluğa xidmətini davam etdirəcək.

500-cü sayın mübarək, «Diplomat», 1000-ci də görüşənədək.

Cavid Şahverdiyev

XALQIMIZIN SEVİNCİ,TARİXİ MƏKTƏBİ ”DİPLOMAT” -IMIZIN 500-CÜ SAYI MÜBARƏK

“Diplomat” qəzetinin 500-cü sayının çapdan çıxacağı xəbərini eşitdiyimdə, 1992-ci ildə Bakıda “Dengê Kurd” qəzetinin birinci sayını çıxardığımız gün gözlərimin qabağına gəldi. Qəzetin ilk nömrəsini əlimizə aldığımızda bir-birimizi qucaqlamış, hədsiz sevinərək birbirimizi təbrik etmişdik. Eyni həyacanı “Diplomat” qəzetinin ilk sayında da yaşamışdım. Lakin dövlət tərəfindən bütün şəraitin yaradilmasına baxmayaraq, çox təəsüflər olsun ki, keçən iyirmi ildə “Dənge Kürd”-ün cəmi 87 sayı işıq üzü görüb.

Ancaq bu ili “Diplomat” qəzeti iyirmi iki yaşına qədəm qoymasına baxmayaraq artiq 500-cü sayı işıq üzü gördü. “DİPLOMAT” qəzeti sanballılığı və rəngarəng zənginliyi sayəsində özünə geniş oxucu kütləsi qazandı.Biz öz tərəfimizdən, başda hörmətli vətənpərvər təsisçi və baş redaktor Tahir Süleyman olmaqla, qəzetə hər zaman öz övladi kimi yanaşan, qeyrətli şeirləri ilə düşmənə kəskin cavablar verən, qəzetin azərbaycan şöbəsinin redaktoru, şair Nəriman Əyyub və qəzetin yaradıcı kollektivi, ağır sınaqlara mətanətlə sinə gerib bu qəzeti Azərbaycan mətbuat baxçasının özünəməxsuz ətirli və təravətli bir gülü olaraq qorumağı bacardılar. Və işbilməzlərə isbat etdilər ki, yoxdan müvəfəqiyyətlər əldə edənlər var. İşi bacaranlara həvalə etmək lazımdır. “DİPLOMAT” qəzetinin səhifələrində heç bir jurnalistin danışmağa cürət etmədiyi, tarixdən xalqımıza qaranlıq qalan dəyərli yazılara rast gəlmək olur. Belə yazıları yalnz “DİPLOMAT”-ın səhifə lərində oxumaq olar. Mətbuatın ictimai həyatda müstəsna rol oynadığı bilinməkdədir. 1609-cu ildə Strasburqda Almanca çıxan həftəlik qəzetlə (Avisa, Delation oder Zeitung) əsası qoyulan dövrü mətbuat, bu gün həyatımızın bir parçası halına gəlmişdir.

Metbuat, başqa xalqlarda olduğu kimi, Kürd xalqının da tarixində, talehində və azadlıq mübarizəsində böyük əhəmiyyət kəsb etmişdir. 22 Aprel 1898-ci ildə Misirin Qahirə şəhərində Miqdad Mihdəd Bədirxan tərəfindən ilk nömrəsi çap edilən “Kürdüstan” qəzetindən sonra Kürd mətbuatı şərəfli bir yol qət etmiştir. Bu gün Kürdüstanda və xarici dövlətlərdə Kürd dilində yüzlərcə qəzet və jurnal, minlərcə İnternet-qəzet nəşr edilməkdədir. Yüzdən çox Kürd radio və televiziyası mövcuddur. Bir çox mötəbər dünya kütləvi informasya vasitələri – “Amerikanın səsi” (ABŞ), “Rusyanın səsi” (Rusya Federasiyası), TRT (Türkiye radyo televizyon üst kurulu), “Le Monde diplomatique” və s. Kürdce bölümlər açmışdır və bu tendensiya dünyada günbəgün artmaqdadır. Hələ müstəqil dövləti olmayan bir xalqın əldə etdiyi bu möhtəşəm nailiyyətlər, onun azadlıq ruhunun nələrə qadir olduğunu nümaiş etdirməkdədir. Bu gün onlarca müstəqil dövlət tək bir peyk televiziyasına sahib deyildir. Halhazırda Kürd xalqı 25-ə yaxın peyk televiziyası açmışdır. Bu ilin axırına qədər belə televiziyaların sayının 30-a çatması gözlənilməkdədir. Ən mötəbər beynəlxalq sosyoloji araşdırma quruluşlarından birinin tədqiqatına görə, 2009-cu ildə Kürd dili, dünyanın mətbuatda ən çox istifadə edilən 25 dilindən biri olmuşdur. Rus dili xaric, köhnə Sovetlər İttifaqında yer almış 15 respublikanın dövlət dillərinin hamısı araşdırma siyahısında Kürd dilinin gerisində qalmışdır. Şüphəsiz ki, bu nəticənin ortaya çıxmasında Kürd jurnalistlərinin müstəsna rolu olmuştur. “Diplomat” qəzeti, geniş Kürd mətbuat ailəsinin sabitqədəm bir nümayəndesi olaraq çox böyük bir misyona sahibdir. Kürd mədəniyyətini, Kürd dünyasındaki hadisələri, qardaş Azərbaycan xalqına çatdırmaq, eyni zamanda Azərbaycandaki hadisələrdən Kürdləri xəbərdar etmək kimi əhəmiyyətli bir rol oynamaqdadır. Bu qəzetdə işləyən jurnalistlər, böyük Azərbaycan və Kürdüstan eşqiylə həqiqətləri yazmaqdan çəkinməmiş, demokratik dəyərlərin içtimai həyatda hakim hala gəlməsi üçün sonsuz qeyrət və iradə göstərmişdir.

“Diplomat”ın bu gündən sonra da Kürd mədəniyyətinin yayılması və Azərbaycandaki demokratik quruculuğun daha da inkişaf etməsi üçün ciddi fəaliyət göstərəcəyinə inanıram.

Xalqlarımızın sevinci,tarixi məktəbi, “DİPLOMAT” 500-cü sayın mübarək, o gün olsun 1000-ci sayını müstəqil Kürdüstanda qeyd edəsən.

Həjar Əsgərov,

Azərbaycan-Kürdüstan dostluq əlaqələri

Biz türkmanlar Məsud Barzani cənablarının yardımı ilə İraqda bir millət kimi tanındıq

İraqda iyirmidən fazla Türkman Mədəniyyət Mərkəzlərimiz var, iyirmidən artıq türkman adı ilə siyasi partiyamız, altıdan artıq teleyayım mərkəzlərimiz, onlarla mətbu orqanlarımız var və bunların bütün məsrəflərini Kürdüstan hökuməti təmin edir

Müsahibim İraq Federativ Respublikasının Kürdüstan bölgəsinin sabiq millət vəkili, Türkman Yazıçılar Birliyinin sədiri, şair Əsəd Ərbildir

Mən hər il bir-iki dəfə İraqa gedirəm. Başqa xalqların nümayəndələri ilə yanaşı türkman xalqının da nümayəndələri, şair və yazıçıları ilə görüşlərim olur. Belə görüşlərdən biri də türkman əsilli millət vəkili və parlament üzvü, on üç kitabın müəllifi şair Əsəd Ərbildir.

Mən istərdim ki, Əsəd bəyin rəhbərliyi altında, bir sıra ziyalı, dövlət xadimi Ərbildən Azərbaycana gəlsin, Azərbaycanın ictimai-siyasi durumunu görsünlər, İraqın ictimai-siyasi reallıqlarını Azərbaycan xalqına çatdırsınlar. Nə vaxta kimi biz gələcəyik? İndi artıq növbə sizindir. Sizlər mütləq gəlməlisiniz! Gəlməlisiniz ona görə ki, əlaqələr yaransın. Çünki bu iki qardaş xalqın talehi demək olar ki, eynidir. Və ilk sualım belədir.

- Əsəd bəy, bildiyimiz kimi oktyabr ayında TBMM- i ordunun İraq ərazisinə girməsi və Kürdüstan İşçi Partiyasının, yəni PKK- nın otuz illik mübarizəsini yox etmək üçün "təskərə" qəbul etdi. Və Qəndil dağlarındakı gerilla qərargahına, sığınacaqlarına və gerilla dəstələrinə ağır zərbələr vurmaq məqsədi ilə təyyarə, vertolyot, top, tank və müasir zirehli texnika ilə təpədən dırnağadək silahlanmış iyirmi minlik ordu ilə hərəkət etdi. Sizin bu məsələyə münasibətiniz necədir?

- İlk öncə çox xoş gəlmisiniz və sizin vasitənizlə bütün Azərbaycan xalqına sayqı və salamımızı yetiririk.

Türkiyədə qəbul edilən "təskərə" yə biz bir İraqlı olaraq, türkman kimi və sonunda Kürdüstan vətəndaşı kimi doğrudan-doğruya fikrimi (yanıtımı) bu şəkildə verəcəyəm. Türkiyənin çıxardığı "təskərə" Kürdüstan İşçi Partiyasına (PKK) görə çıxarılıb. PKK sorunu da İraq sorunu deyil, yüzdə yüz Türkiyə sorunudur. Onun üçün biz arzu edərik bu sorun siyasət və ağıl-məntiqlə masa arxasında, dialoq yolu ilə, danışıqlar vasitəsi ilə öz həllini tapsın. İndiki dönəm kürəlləşmə dönəmidir, demokratiya və sülh dönəmidir. Müharibə, zorakılıq, işğal, yox etmə, milləti danmaq, qan tökmək zamanı bitdi. Millətlər üzeyə (kosmosa) uçurlar, elmi axtarışlar, kəşflər dalınca iş aparırlar. Bundan belə silah yolu ilə heç nəyi çözmək olmaz, faşist Səddamın aqibəti göz qabağındadır. O "ənfal" planı ilə bizə hər zaman dayaq olan 185 min qəhrəman kürd övladını kütləvi şəkildə məhv etdi. Sonuc Səddamın başına nə gəldi yaxşı bilirsiniz. İnsanlıq olan yerdə, ağıl məntiq olan yerdə, sözsüz ki, insani amillər özünə yer tutmalıdır. Dünyanın nə qədər mübahisəli məsələləri olubsa, qanlar tökülübsə əski zamanına da baxsaq sorum sonda masaya oturulub, danışıqlar yolu ilə diplomatik yollarla çözülüb. Ona görə də biz buradan türk qardaşlarımıza, Türkiyə rəhbərliyinə səslənirik: "İraq Kürdüstanının bölgə rəhbəri Məsud Barzani cənablarının burda yaşayan xalqlara verdiyi demokratik haqlar əgər Türkiyə rəhbərliyi də ordakı kürd xalqına verərsə mənə elə gəlir ki, nə PKK sorunu qalar, nə də iqtisadi çətinlik." Türkiyə kürdləri "Demokratik Muxtariyyat" barədə yeddi maddədən ibarət təklif irəli sürmüşlər və dövlət rəhbərinə təqdim etmişlər.

Həmin deklarasiyanı bir daha oxucuların nəzərinə çatdırırıq:

1. Türkiyənin ali kimliyi kimi kürd kimliyi də tanınmalı və qanun Konstitusiyada yer almalı.

2. Kürdlərin dili və mədəniyyəti qarşısında duran bütün qadağalar və əngəllər qaldırılmalı, ana dilində təhsil alma hüququ verilməli, Kürdüstan bölgəsində kürd dili ikinci təhsil dili kimi qəbul edilməli, bununla da başqa azlıqların mədəni hüquqlarının yolu açılmalı.

3. Özünü ifadə etmək təməlində düşüncə və inancın, siyasət yürütmək hüququ verilməli, ictimaiyyət arasında bərabərsizlik aradan qaldırılmalı.

4. Kürd və Türk ictimaiyyətinin bir-birini əfv etməsi məqsədi ilə birgəyaşayış çərçivəsində azad birlik təsis edilməli, Kürdüstan Fəhlə Partiyasının rəhbəri də daxil olmaqla bütün siyasi məhbuslar buraxılmalı.

5. Xüsusi əməliyatlar və döyüş aparmaq məqsədi ilə Kürdüstan bölgəsində dislokasiya edilən əsgəri birliklər geri çəkilməli, qoruyuculuq sistemi aradan qaldırılmalı, əhalinin öz yurd-yuvalarına qaytarılması üçün mədəni və iqtisadi tədbirlər həyata keçrilməli.

6. Bölgədəki idarətmədə yeni bir qanunla düzəlişlər aparılmalı və icrası gücləndirilməli.

7. Yuxarıda sadalanan maddələrlə bağlı əgər irəliyə doğru müsbət addım atılarsa, gerilla gücləri ictimaiyyətə dönüşünü saxlayacaq və silahı yerə qoyacaqdır.

Ədalət naminə etiraf edib deyə bilərəm ki, Kürdüstan rəhbərliyi burada yaşayan bütün azsaylı xalqlara, eləcə də türkmanlara yuxarıdakı təkliflərdən on qat artıq haqq verib. Bunda qorxulu nə var?

Türkiyə rəsmilərinin verdiyi rəsmi rəqəmlərə görə Türkiyə Respublikası PKK -ya qarşı 380 milyard dollar pul xərcləyib, 4500 kürd kəndi boşaldılıb, 30 000 insanın həyatına son qoyulub və dövlət borca görə dünya dövlətlərindən asılı vəziyyətə düşüb. Təkcə son əməliyyatlarda 80 milyard dollar pul xərclənib. Görəsən PKK-ya qədərki inqilabi mübarizələr zamanı da daxil olmaqla bu günə qədər nə qədər sərmayələr izafi gedib? Əgər bu mənasız müharibələrə xərclənən paralar Türkiyə xalqının rifahına, qalxınmasına, inkişafına xərclənsəydi sizi inandırıram ki, Türkiyə bəlkə də iqtisadi baxımdan dünyanın qabaqcıl ölkələrindən biri olardı.

- Əsəd bəy, bir millət vəkili kimi, birinci, İraqın Kürdüstan bölgəsindən kənar yaşayan türkmanları haqqında, ikincisi Kürdüstan bölgəsində yaşayan türkmanlarin ictimai-siyasi durumu haqqında oxuculara məlumat verməyinizi xahiş edirəm.

- İraq ərazisində doğrudan-doğruya türkmanlar istədikləri haqların hamısına sahib deyillər, arzu edirik ki, daha fazla haqlar əldə edək. İraq içərisində türkmanların bütün hüquqi haqları əldə edə bilməməsinin bir neçə səbəbi var. İlk öncə türkmanların birliyinin olmaması, ikinci kənar qüvvələrin türkman xalqının içində öz mənafeyinə uyqun apardığı çirkin siyasət, bizim birliyimizi dağıtdı, parça-parça etdi və biz başqaları üçün oyuncağa çevrildik. Amma Kürdüstan bölgəsində vəziyyət tamam başqadır. Kürdüstan bölgəsinin rəhbəri Məsud Barzani cənabları, İraq anayasasına türkmanların adını demək olar ki, zorla qəbul etdirdi. Lakin İraq ərazisində türkmanlar dağınıq olduğu üçün türkman dilini dövlət dili kimi qəbul etmədilər. Çünki İraq parlamentində söz birliyimiz yox idi, hətta, bəzi türkmanlar ərəblərə səs verirdilər. Birliyimizin olmaması üzündən istəklərimizi İraq parlamentinə qəbul etdirə bilmədik və zəif düşdük. Amma Kürdüstan bölgəsində nəinki biz türkmanlar üçün, mən inamla deyərdim ki, Kürdüstanda yaşayan bütün azsaylı xalqlar üçün bütün demokratik-insani haqlar tanınıb. Mən başqan Məsud Barzani cənablarının toplantıların birində dediyi sözləri xatırlatmaq istəyirəm. O, demişdi: "Biz kürdlər işğalçı dövlətlər tərəfindən o qədər faciələr, zülmlər, dəhşətlər görmüşük ki, bunu sadalamaqla bitirmək olmaz, biz yaşadığımız faciələri bizimlə birlikdə yaşayan türkman, asuri, kıldani xalqları da yaşayıblar. Mən Məsud Barzani heç vaxt icazə vermərəm ki, bizimlə çiyin-çiyinə mübarizə aparan xalqlar hər hansı bir haqsızlığa məruz qalsın. Kürdüstanda yaşayan hər hansı bir xalqın bir fərdi varsa biz onunda bütün insani haqqını vermişik və gələcəkdə hər hansı bir istəkləri olarsa böyük məmnuniyyətlə yerinə yetirməyə çalışacağıq". Cənab Barzaninin bu çıxışı hamımızı məchub etdi, sevindirdi.

İndi 127 üzvdən ibarət Parlamentimiz var və İraq tarixində ilk dəfə olaraq dörd türkman millət vəkili Kürdüstan parlamentində təmsil olunur. Hökumət içində iki nazirimiz var, onların biri sənaye naziridir, digəri isə dövlət naziridir. İraq anayasasında özümüzü tanıda bilməsək də, biz Kürdüstan anayasasında Məsud Barzani cənablarının yardımı ilə bir

millət kimi tanındıq. Çünki Kürd qardaşlarımızın yaşadıqları faciələri biz də birgə yaşamışdıq. İndi Kürdüstan bölgəsində kürdlərdən sonra biz ikinci millətik. Qaldı təhsil məsələsinə, 1991-ci ildən sonra hansı ki faşist Səddam rejimi dağıdıldı, biz ilk ibtidai siniflərimizi açdıq, İstambul şivəsi ilə dərslərə başladıq. Yaxşı olardı ki, Azərbaycan hökuməti Kürdüstan hökuməti ilə əlaqə yaratsın, məktəblərimizdə azəri şivəsi ilə dərslər keçirilsin. Çünki türkman ləhçəsi ilə azərbaycan ləhçəsi demək olar ki, eynidir. İndi Kürdüstanın paytaxtı Ərbildə 13 məktəbimiz var, doqquzu ipdidai, dördü isə orta məktəbləridir. Ərz etmək istərdim oxucular bilsinlər ki, iyirmidən fazla Türkman Mədəniyyət Mərkəzlərimiz var, iyirmidən artıq türkman adı ilə siyasi partiyamız, altıdan artıq teleyayım mərkəzlərimiz, onlarla mətbu orqanlarımız var və bunların bütün məsrəflərini Kürdüstan hökuməti təmin edir. Bu yaxınlarda parlamentdə Kürdüstan Milli Elmlər Akademiyasının yaradılması məsələsinə baxıldı. Bununla bağlı biz, türkmanlar da Kürdüstan parlamentinə öz diləkçəmizi verdik ki, akademiyada türkman dilinin şöbəsi açılsın. Bu məsələ ilə bağlı Kürdüstan Parlamentinin rəhbəri Ədnan Müfti yeni təkliflə çıxış etdi və bildirdi ki, Kürdüstan Milli Elmlər Akademiyasında Kürdüstanda yaşayan bütün xalqların dilində şöbələr açılsın və o xalqların tarixini, mədəniyyətini, keçmişini tədqiq etsin. Bu təşəbbüs Kürdüstanda yaşayan xalqlar tərəfindən, eləcə də biz türkmanlar tərəfindən böyük rəğbətlə qarşılandı. İndiyə qədər türkman xalqının kitabxanası olmamışdır, Xalq əsrlərdir kitabları evlərində saxlamış, nəsldən nəslə çatdırmışdır. İnanıram ki, xalq milli birliyi üçün evlərində olan dəyərli kitabları Türkman Akademiyasına təqdim edəcək və əllərdə saxlanılan xəzinə xalqın ixtiyarına veriləcəkdir və bununla da qismən olsa da, türkman xalqını dünyaya tanıdacağıq. İstərdim oxucular bilsinlər ki, yuxarıda sadalananlar Kürdüstan bölgəsində yaranıb. Lakin İraq daxilində birlik və bərabərliyimizin olmaması bizi hər bir imkandan məhrum etdi.

- Əsəd bəy, Sizin, yəni türkmanların birliyi niyə pozuldu, bunun günahı kimdədi və kimdir günahkar?

- Tahir bəy, bunun çox şaxəli tərəfləri var, danışmaqla bitməz. Mən oxuculara qısa da olsa bəzi məqamları açıqlamağa çalışacam. Səddamın süqutundan sonra, bir çox dövlətlər öz mənfəətləri üçün İraqın daxili işlərinə müdaxilə etdilər. ABŞ başda olmaqla, İngiltərə, İran, Türkiyə, Suriya, Rusiya və Avropanın demək olar ki, bütün dövlətləri müdaxilədə bulundular. Burdakı xalqları qarşı qarşıya qoydular, bəzilərini pul-para ilə ələ aldılar, bəzilərinə vədlər verərək aldatdılar, burdakı xalqların birliyini pozdular və zəif salaraq qismən də olsa məqsədlərinə nail oldular.

- Əsəd bəy, İraq hökumətinin türkmanlara münasibəti necədir? Kürdüstan hökumətinin türkmanlara münasibəti necədir?

- İraqdakı türkmanlarla və Kürdüstandakı türkmanların fərqi, Tahir bəy, bu suala çox qısa cavab verəcəm. Kürdüstandakı türkmanların ümumi vəziyyəti və durumunu dağın zirvəsi, İraqdakı türkmanların durumunu isə həmin dağın ətəyi kimi müqayisə edə bilərəm. Bu fərqə məncə heç bir izahat lazım deyil.

- Əsəd bəy, olmazmı türkman millət vəkilləri və ziyalıları Azərbaycan hökumətinə bir diləkçə göndərsinlər və bildirsinlər ki, biz istəyirik Azərbaycan və Kürdüstan hökumətlərarası ictimai-siyasi və dostluq əlaqələri yaransın. Belə bir addım atmaq olar, ya yox?

- Dünyada elə bir şey olmaz ki, mümkün olmasın. İstəklər olan yerdə əlaqələr də olmalıdır və sözsüz olmalıdır. İndi bir sox ölkələrdən iş adamları Kürdüstana gəlir, külli miqdarda sərmayələr qoyub işləyirlər. Eləcə də Türkiyədən minlərlə şirkət hal-hazırda burda çalışır. Niyə bizə doğma olan əzizlərimiz Azərbaycandan gəlib işləməsinlər? Nə qədər əlaqələrimiz tez yaranarsa, birliyimiz bir o qədər güclü olar, dostluq əlaqələrimiz möhkəmlənər. Əvvəl siz dövlət olaraq gəlin, biz də sizinlə qürurlanaq Kürdüstan hökuməti qarşısında məsələ qaldıraq. Tahir bəy, niyə Rusiyanın, Türkiyənin, Fransanın və bir çox ölkələrin konsulluğu Kürdüstanda olsun, Azərbaycanın nümayəndəliyi olmasın? Biz Azərbaycanı özümüzün doğma vətəni hesab edirik. Nə üçün, Kürdüstanın nümayəndəliyi Anqarada, Moskvada, Avropanın bir sıra ölkələrində olsun, Azərbaycanda olmasın? Nə üçün Azərbaycan rəhbərliyi bizə dost əlini uzatmır?

- Müsahibəyə görə çox sağ olun.
- Mən təşəkkür edirəm, xoş gəlmisiniz.

Müsahibəni apardı:

Tahir Süleyman

Qoy heç kim türkman xalqını öz mənafeyinə qurban etməsin

-Şirzad bəy, özünüzü təqdim edin.

-Mən Şirzad Əmrəl Üzeyirağalı Türkman Milliyyətçi Qurtuluş Partiyasının başkanıyam.

Bizim yaşadığımız Kürdüstan bölgəsi Həvin dağlarının uzunluğu ilə güneyi Ərəbistandır və quzeyi Kürdüstandır. Surcardan Bədrocağa qədər güneydən bizim şəhərlərimiz, kəndlərimiz bu sərhəddə bütün kürd,türkman kəndləri və şəhərləri xarabaya çevrilmişdi. Kürdüstan və ətraf bölgələr Səddam Hüseyn tərəfindən İraq dövlətinin quruluşundan bəri ərəblərin zülmü altında idi. Xüsusilə Səddam Hüseyn hakimiyyətə gəldiyi andan ilk zülmünü türkman millətinə verdi. Türkman millətinin nə adı var idi, nə də bir hüququ. Türkmanlar şəhərlərdən mülk ala bilməzdi, sata bilərdi, uşaqlarının adını belə türkmanca qoya bilməzdi, qadağan idi. Əks təqdirdə onu siyahıya alınmada qeyd etməzdilər, şəxsiyyət vəsiqəsi verməzdilər.Görəsən onda Türkiyə dövləti harada yatmışdı?

Səddam Hüseyn, doğrudur, kürd xalqına qarşı kimyəvi silah işlətdi , kütləvi qırğınlar elədi, repressiyalar etdi. Yüz səksən min dinc ənalini diri-diri gömdü.Səkkiz min insanı səkkiz yaşından səksən yaşına qədər Barzani nəslindən olan kişiləri yox eti. İstədi kürd xalqını yox etsin. Amma eyni zamanda da türkmanlara heç bir haqq tanıtmamışdır. Türkmanlar kütləvi şəkildə doğma vətənlərindən qaçırdılar amma Türkiyəyə yox.Çünki Türkiyə Səddamdan neft alırdı.O zamanlar türkmanlar Türkiyənin yadına düşmürdülər. Səddam Hüseyn heç bir insana heç bir haqq verməmişdir. O, tək zülmündə "adil" idi. Zülmünü adilanə bir şəkildə bölüm yapmışdır. Zülmünü "ədalət" lə kürd xalqına, türkman xalqına paylamışdır. Amma Səddam Hüseynin bu zülmünə xalqımız, başda qardaşlarımız kürd xalqı olmaqla haqlarımızı müdafiə etmək üçün mübarizəyə qalxdıq. O mübarizə 1991-ci ilin mart ayında Məsud Bərzaninin və Cəlab Tələbaninin rəhbərliyi altında xalq mübarizəyə qalxdı və Səddam ordusunu Kürdüstan bölgəsindən qovub çıxartdılar. Biz Kürdüstan bölgəsində yaşayan xalqlar Kürdüstan Parlamentini seçdik. Kürdüstanda yaşayan millətlər seçki keçirdilər və parlamentin vəkilləri seçildi. Parlament seçkisindən sonra bir hökümət quruldu. Və xəyallarımızda arzuladığımız Kürdüstan dövləti elan olundu.

Bu dövlətdə bütün xalqların nümayəndələri təmsil olunurlar. Ən çox böyük demokratik özgürlük Kürdüstanda yaşayan azsaylı xalqlara verildi. Radio və televiziya kanalları, qəzet və jurnallar, dərnəklər, maqazinlər açıldı, bütün millətlərin öz dilində özgürcə yayımları yayımlanır, nəşr olunur və xalq oxuyur. Kürdüstan hökuməti tərəfindən heç bir basqı heç kəsə olmayıb və yoxdur.

- Kürd rəhbərliyi sizə necə münasibət bəsləyir?

- Kürd xalqı tarixi bir zülm altındadırlar. Bu zülmləri görən kürd milləti türkmanlara, məsihlərə, assurilərə, kuldanilərə, ərəblərə qardaşcasına baxır. Onlar istəmirlər ki, bir vaxtlar özləri yaşadıqları zülmləri başqa millətlər də yaşasınlar. Ona görə də Kürdüstan rəhbərliyi tərəfindən böyük demokratik seçim uyğulandı, tətbiq olundu. Bu demokratiyanın içərisində türkman milləti də yararlandı. Xalqımızın arzuladığı milli partiyalar elan olundu. Qanuni parlamentdən iş görmək icazəsi aldı.

"Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman və Türkman Milliyyətçi Qurtuluş Partiyasının başkanı Şirzad Əmrəl Üzeyirağalı

Kürdüstanda bütün azsaylı xalqlar örnək demokratiya əldə etdilər. Hökümət dairələrində təmsil olundular.

Arzumuz budur ki, Yaxın Şərqdə və dünyada Küdüstanda olan demokratiya həyata keçirilsin, heç bir xalqın haqqı tapdanmasın. Necə ki, kürd xalqı bu böyük özgürlüyü bizə rəva gördülər ki, öz dilimizdə məktəbimiz, radio və televiziyamız, qəzetimiz, mədəniyyət mərkəzimiz olsun ki, adət-ənənələrimizi unutmayaq. Bu həqiqəti biz Kürdüstandan bütün dünyaya səsləndiririk, zülm dönəmi getdi!

Qoy Türkiyə bizim daxili işimizə qarışmasın, orda yaşayan iyirmi beş milyonluq kürd xalqının haqlarını versin. Müharibə zamanı bitdi.Cənabınız Azərbaycanın yaşamından nümunə verdiniz ki, orada necə yaşayırsınız. İnanın millət birliyi qarşısında heç bir qüvvə dura bilməz. Bu gün kürd xalqı üzərinə nə qədər basqı çox olursa , qarşı durma da çox olur. Çünki millətin, xalqın qarşısında heç bir şey dura bilməz. Əgər biz istəsək ki, insanlarımız barış içərisində yaşasınlar və bir insan yaşamını tətbiq etsinlər, onda millətlər bir-birinə qardaş gözü ilə baxmalıdırlar. Qoy bir-birlərinə kömək etsinlər. İraq Kürdüstanındakı seçimi ölkələrdə tətbiq etsinlər. Çünki bu demokratiya bizə şan-şərəf verir,biz bu demokratiyanı müdafiə edir və özgürcə yaşayırıq. Bir əldən min könüldən dövlətimizə xidmət edirik.

Türkiyə dövləti öz içində yaşayan xalqların demokratik haqqlarını versin, kürd xalqını millət kimi tanısın, bizə verilən haqqları onlara da versin, ondan sonra başqalarının işinə qarışmağa yox, danışmağa haqq qazansın.

- Dünya türkdilli dövlətlərinə nə demək istərdiniz?

- Bizim soyumuzdan, bizim qanımızdan olanlar, türk dünyasında yaşayan insanlarımız, Azərbaycandır, Türkiyədir, Qazaxstandır, Özbəkistandır və.s. Bizlər bu dildən, bu nəsildən olanlar Səddam Hüseyn dönəmindən başımıza gətirilən zülm zamanı heç kəs səsini çıxartmadı. Bizim ümidimiz bir Türkiyə dövləti idi ki, bizim adımızı dilə gətirsin və bizi müdafiə etsin. Amma çox təəssüflər olsun ki, bir neçə çirkli əlləri istiğbarat fikri ilə göndərdilər içimizə, bizim türkman millətinin istiqbalını öz mənfəətinə qurban verərək yox etsinlər. Düşmən tapmağa, kürd xalqı ilə türkman xalqını düşmən etməyə və şovinist ərəblərlə işbirliyi yapıb, kürd və türkman xalqının əldə etdiyi azadlığı məhv etsinlər.

Bu da bir məzlumiyyəti sürdürməkdir. Kürd xalqı da bizim qardaş xalqımızdır. Kürd xalqının sayəsində biz də başı uca, kəramətlə, şan-şərəflə yaşayırıq. Bu dövlətlərə, türk dünyasına səsləndiyimiz məsələ odur, türkman xalqını qurban etməsinlər öz mənafeylərinə. Türkman azad bir millətdir, burada qardaş xalqlarla birgə yaşayırıq. Bizi özlərinə dost etsinlər. Çalışsınlar ki, buradakı xalqlarla bizim qardaşlığımızı şanlı-şərəfli etsinlər. Kərkük və cənub bölgələrdəki xalqların durumu çox ağırdır. Biz Kürdüstan rəhbərliyindən xahiş edirik ki,bu bölgələri referendum yolu ilə Kürdüstan bölgəsinə aid etsinlər.Heç kimin haqqı yoxdur, biz türkmanların adından danışsın. Biz xahiş edirik ki, Azərbaycan hökuməti, Azərbaycan dövləti bizim hüquqlarımızı müdafiə etsin.Kürdüstan hökuməti ilə ictimai-siyasi, iqtisadi və mədəni əlaqələr yaradılsın. Məktəblərimizdə azərbaycan tədris sistemini təşkil edilsin. Çünki biz Azərbaycanlıyıq!

("Diplomat" qəzeti 60-61-ci say)

Biz heç kimi özümüzə vəkil etməmişik

Müsahibim Kürdüstan Demokratik Türkman partiyasının başkanı Dilşad bəydir.

Dilşad bəy, Səddam Hüseyn zamanında İraq hökuməti türkmanlara hansı haqları vermişdir?

- Həqiqətən Səddam zamanı 1991-ci ilə qədər türkmanlarin heç bir insani hüquqları yox idi. Hətta türkman dilində danışmağa da icazə vermirdilər, yasaq idi, türkman dilində danışmaq. Heç bircə məktəbimiz də yox idi. Məktəblər, dərnəklər, mədəniyyət mərkəzləri, radio və televiziyadan söhbət açmaq olmazdı. Çünki bir millət kimi İraq Konstitusiyasında türkmanların adı belə çəkilmirdi. Hər zaman zülm altında yaşayırdıq. Səddam quruluşu diktator quruluş idi.Mən Türkiyə rəhbərliyindən soruşuram, 1983-85-ci illərdə 13-yaşından 35-yaşına qədər qız gəlinlərimizi Səddam zorla aparıb Səudiyyə Ərəbistanında 60-yaşında ərəblərə satanda onda sizlər harda yatmışdınız?

Onun "ədalət"i dönəmində heç bir haqqdan, hüquqdan danışmaq olmazdı. 1991-ci ildə Məsud Bərzaninin rəhbərliyi altında Kürdüstandakı xalqlar, əsasən kürdlər, türkmanlar, assurilər, məsihilər, kıldanilər, bir qisim ərəblər birləşərək qalxdılar, zülmkar Səddam Hüseynin ordusunu Kürdüstandan qovub çıxartdılar və Kürdüstan hökumətini elan etdilər. Bu hökümət demokratik biçimdə bütün xalqlara öz haqqını tanıtdı və bütün çətinliklərə baxmayaraq, azsaylı xalqların mədəni haqlarını verdi və onlara böyük şərait yaratdı. O dönəmdən həqiqətən Kürdüstan azad oldu. Burada yaşayan xalqlar birlik əldə etdilər və birlik üzərində çalışdıq, seçimlərə qatıldıq, parlament seçiminə . O vaxt bizim andımız, qərarımız bu idi ki, Kürdüstan hökuməti yaradaq və bu hökuməti biz yaratdıq. Bu hökumət azsaylı xalqların, o cümldən türkmanların mədəni haqlarını geniş aləmə tanıtdı. Kürdüstan hökümətin qərarı ilə 120-i məktəb, 20-i dən artıq dərnəklər, mədəniyyət mərkəzləri radio, televiziya, bir çox qəzet dərgiləri işıq üzü gördü.

Soldan: Tahir Süleyman, Vəli bəy və Kürdüstan Demokratik Türkman Partiyasının başkanı Dilşad bəy

- Dilşad bəy partiyanızın neçə üzvü var?

- Partiyamızın üzvləri çoxdur. Büro üzvlərindən başqa, 25 minə qədər partiyamızın üzvü var.

- Kürdüstan hökuməti ayda nə qədər yardım sizə edir?

- Bizim burada 6 türkmən partiyası, bir neçə dərnəyimiz var. Eləcə də 4 müxalif partiyası və 2 dərnəyi var. - Kürdüstan hökuməti kifayət qədər bizə yardımlar edirlər. Eyni zamanda kompaniyalar da bizə yardımlar edirlər.

- Bu bürolarınız kim tərəfindən yaradılıb. Hökumət sizə nə yardım edib?

- Bu büroların yeri hökumət tərəfindən təyin edilmişdir və özümüzün gücü ilə və Kürdüstan hökümətinin köməkliyi ilə tikmişik. Ondan əlavə bütün bölgələrdə bürolarımız var. Dərnəklərin icazəsini Kürdüstanın Xarici İşlər Nazirliyindən almışıq. Partiyaların icazəsi isə Ədliyyə Nazirliyindən alınıb. Amma müxalif partiyalar qeyri-qanuni fəaliyyət göstərirlər. Buna baxmayaraq Kürdüstan hökuməti onlara rəğbətlə yanaşır. Bu gün Kürdüstanda çox sabitlikdir, bu sabitliyə görə biz sərbəst çalışa bilirik.

- İndi müsəlman dövlətləri çalışırlar ki, Avropa Birliyinə daxil olsunlar. Hansı ki, Avropa dövlətləri bütün xammalı və işçi qüvvəsini müsəlman dövlətlərindən aparır. Olmazmı ki, müsəlman dövlətləri birləşib İslam birliyi yaratsınlar və bu İslam birliyini elə inkişaf etdirsinlər ki, Avropa dövlətləri islam birliyinə qəbul olmağa can atsınlar?

- İslam dövlətlərində belə birlik olsaydı, çox gözəl olardı. Lakin islam ölkələrində demokratiya yoxdur, sərbəstlik yoxdur. Bəli, Avropa ölkələrində demokratiya var. Hər bir insan hüquqlarını bilir və istədiyi kimi çalışır. Lakin bizim islam dövlətlərinin yeraltı zənginliklərinin olmasına baxmayaraq çalışırlar ki, bir-birlərini parçalasınlar, biri o birisinin insani haqlarını işğal etsin. Lakin islam dövlətləri demokratik şəkildə birləşərək güclü qüvvəyə çevrilsələr Avropa dövlətləri onlarla hesablaşar. Çünki İslam dövlətlərinin yeraltı sərvətlərinə dikərək, bu qardaş xalqları birbirinin üstünə saldıraraq öz çirkin niyyətlərini həyata keçirirlər.Bayaq qardaşımız da qeyd etdi ki, Səddam Hüseyn bizim başımıza zülm açdığı zaman İran və Suriya dövlətləri qapılarını bizim üzümüzə açan yeganə dövlətlər oldular, şaxtalı qış günündə bizə həyan oldular. Çox təəssüflər olsun ki, ilk əvvəl Türkiyə də qismən bizə öz qapılarını açsa da, türkman xalqını sonda öz mənafeyinə qurban etməyə çalışdı və qapılarını üzümüzə bağladı. İndi biz Kürdüstan hökumətinin demokratiyası altında bütün mədəni haqlara sahib olmuşuq. Lakin Türkiyə dövləti bir qism türkmanı öz tərəfinə çəkərək Kürdüstandakı demokratiyanı və bizim haqlarımızı pozmaq istəyir. Nədənsə türk dövləti istəmir ki, türkman xalqı öz azadlığını sürdürsün. Çünki bundan 5 il əvvəl, 2002-ci ildə Türkiyə dövlətinin rəhbərliyi ilə müxalif türkmanlar Səddam Hüseyn rejimini Kürdüstana gətirmək və Kürdüstanda olan demokratiyanı dağıtmaq istədilər. Türkmanların illər boyu əldə etdiyi haqlarını əllərindən almağa çalışdılar. Çünki Türkiyədə yaşayan kürd qardaşlarımız 25-30 milyondur. Amma heç bir demokratik haqları yoxdur. Türkiyə dövləti Kürdüstan hökümətinin azsaylı xalqlara verdiyi demokratik haqlardan narazıdır. Çünki burda olan demokratiya oraya da təsir edə bilər və Türkiyə Kürdüstanındakı kürd xalqı da öz haqlarını tələb edirlər. Ona görə də Türkiyə Kürdüstan hökumətini və demokratiyasını tanımaq istəmir.İstəmir qoy istəməsin, ancaq qanla əldə etdiyimiz azadlığı heç vaxt əldən verməyəcəyik.Biz türkmanlar Türkiyəni özümüzə vəkil etməmişik.

- Azərbaycan hökumətinə, Azərbaycan xalqına nə çatdırmaq istərdiniz?

- Bizim dilimizlə azəri dili eynidir. Biz Azərbaycan hökümətindən, Azərbaycan dövlətindən ərklə tələb edirik, xahiş edirik.Onlarla dövlətin nümayəndəliyi Kürdüstanda açılıb. Qoy hörmətli prezidentimiz İlham Əliyev cənabları Ərbildə Azərbaycan nümayəndəliyini açsın, biz azərilə-türkmanlara sahib çıxsın.

Kürdüstan hökuməti ilə siyasi, ticarət və mədəni əlaqələr yaratsınlar. Çünki Azərbaycanda neçə minilliklərdir ki, kürdlər və azərilər bir yerdə mehribancasına yaşadıqları kimi, burada da türkmanlarla kürdlər birgə yaşayırlar. Biz çox məmnunuq. Siz birinci şəxs olaraq Azərbaycan vətənimizdən bura təşrif buyurmusunuz, bizimlə görüşürsünüz. Biz təmənna edirik ki, bizim xahişimizi Azərbaycana çatdırasınız.

Müsahibəni apardı:
Tahir SÜLEYMAN

("Diplomat" qəzeti 60-61-ci say)

İRAQDA BİZ TÜRKMANLARIN MİLLİ VARLIĞI CƏNAB MƏSUD BƏRZANİNİN SAYƏSİNDƏ TANINDI

Müsahibim, Kürdüstan Federativ hökumətinin sabiq millət vəkili Karxi Nəcməddin Altıbarmaqdır

Biz türkmanlar faşist Səddam dönəmində yox olmaq ərəfəsində idik.

2003-cü ildə cənab Məsud Bərzani türkmanların milli mənsubiyyətini qırmızı qələmlə yazaraq, İraq parlamentinin gündəminə qoydu və biz türkmanları millət kimi İraq konistitusiyasına saldırdı. Buna görə biz türkmanlar hər zaman Məsud Bərzani cənablarına minnətdarıq. Çünki, o Kürdüstan bölgəsində bütün milli imtiyazlarımıza imkan tanıdı və lazımı maliyyə dəstəyi verdi.

Karxi bəy, biz keçən il İraqa gələrkən, bir sıra dövlət nümayəndələri və türkman partiya rəhbərləri ilə görüşlərimiz olmuşdur. Özünüz də görürsünüz bu görüşlər haqqında "Diplomat" qəzetində ətraflı məlumat vermişik. İstəyirik ki, siz parlament üzvü və türkman xalqının nümayəndəsi olaraq qəzetəimizə müsahibə verəsiniz Azərbaycan oxucuları Kürdüstanda baş verən ictimai-siyasi hadisələrdən xəbərdar olsunlar və ilk sualımız.

- Səddam Hüseyn zamanında türkmanların hansı haqları var idi?

- İlk öncə siz xoş gəldiniz, gəlişinizlə bizə şərəf verdiniz.Türkman olaraq İrak Kürdüstanında yaşamaqdayıq. Kürd qardaşlarımızla bir yerdə xoş həyat sürürük. Sizin sorduğunuz suala gəlincə, biz Səddam dönəmində təkcə türkmanlar deyil,-burda yaşayan heç bir xalqın hüquqları yox idi. Özəlliklə türkman millətini ərəblər İrak vətəndaşı kimi qəbul etmirdilər. Kərkükdə, Altın körpüdə,Bağdadda türkman millətini zorla ərəbləşdirirdilər.Ərəb yazılmayanların isə evlərini, dükanlarını, əkin sahələrini hətta arvad uşaqlarını əlindən alırdılar.Türkmanlar namus dərdindən, ya ərəbçiliyi qəbul edir ya da başqa ölkələrə köçürdülər.

Çox şükürlər olsun ki, 1991-ci ildən Məsud Barzani və Calal Tələbani cənablarının rəhbərliyi altında, Kürdüstanda yaşayan bütün azsaylı xalqlar birləşərək Səddam ordusunu qovub çıxartdılar. İndi Kürdüstan hökuməti çox böyük demokratik sistem əldə edərək, bölgədə əmin-amanlıq yaradıb. Kürdüstan hökuməti orda yaşayan bütün xalqlara o cümlədən,türkmanlara geniş demokratik haqlar vermişdir.

-Karxi bəy, istərdik, özünüz haqqında oxuculara məlumat verəsiniz?

-Mən, Karxi Nəcməddin Altıbarmaq,1967-ci ildə Ərbil şəhərinin Ərbil qalasında dogulmuşam, Səlahəddin universitetinin məzunuyam.-Türkman ailəsində dünyaya göz açdım,türkman olaraq da dünyaya göz yumacağam. Siyasi həyata ilk olaraq, Türkman Qardaşlıq Ocağında başladım. Ərbildə tək siyasi qurum o idi.1990-cı ildən sonra, siyasi partiyalar meydana gəldi və biz partiyalarda çalışmağa başladıq. Lakin türkman cəbhəsinin siyasəti ilə, bizim siyasətimiz uyğun gəlmədi və cəbhədən ayrıldıq. Özümüzə yeni siyasi türkman partiyası yaratdıq. Partiyanın idarə heyəti Ərbildədir və partiyamızın adı Türkman Demokratik Hərəkatıdır. Biz Kürdüstanın qanunları çərçivəsində siyasətimizi yeridirik və bu demokratiyadan çox razıyıq.Mən burdan bütün Azərbaycan xalqına salamlarımı göndərirəm, biz eyni qanı daşıyırıq və dilimiz, inancımız eynidır. Biz Kürdüstanda İrak vətəndaşı olaraq, İrak və Kürdüstan qanunlarına tabe olmalıyıq və bu qanunlara hörmətlə yanaşmaqla öz haqlarımızı əldə etmişik.

Bildirmək istəyirəm ki, İrak tarixində türkmanlar Kürdüstan demokratiyası dönəmində əldə etdikləri azaldığa, heç vaxt sahib olmamışdılar. Ərbildə və başqa türkmanlar yaşayan yerlərdə türkman dilində məktəblərimiz var.

Kürdüstanın qanunları çərçivəsində bütün xalqlar kimi, türkman xalqı da istənilən qədər siyasi partiya açа bilər. Bizim altıya qədər telekanallarımız, ondan artıq qəzet və jurnalımız,bir neçə radio kanallarımız iyirmi dörd saat fəaliyyətdədir.

-Türkmanların Kürdüstanda neçə məktəbləri var?

Kürdüstanda 100-dən artıq türkman dilində orta məktəblərimiz, eləcə də 20-dən çox mədəniyyət mərkəzimiz var.

-Türkman mədəniyyət mərkəzlərinə, siyasi partiyalara, qəzet və jurnallara, radio və televiziya kanallarına Kürdüstan hökuməti tərəfindən maddi yardım olunurmu?

-Kürdüstan hökuməti, bütün azsaylı xalqlara etdiyi yardımı, türkman xalqına da edir. Onun üçün biz Kürdüstan hökumətinə minnətdarlığımızı bildiririk.

-Mən parlament iclasında olarkən gördüm ki, üç türkman qardaşımız və bir bacımız Kürdüstan parlamentinə üzv seçilib. Parlamentə üzv seçildiyinizə görə sizi və yoldaşlarınızı səmimi qəlbdən təbrik edir, sizə uğurlar arzulayıram. Sizin parlamentə üzv olmağınız necə baş verdi?

-Təbii, biz partiyamızı qurduğumuz zaman,iki böyük siyasi təşkilatımız tərəfindən təklif gəldi. Bizim iki yolumuz var idi. Ya tək öz partiyamızla seçkilərə getmək, ya da mövcud olan siyasi partiyalarla koalision şəkildə birləşmək idi. Biz koalisya yolunu seçdik. Gələcəkdə partiyamızı genişləndirərək ayrıca seçkilərə gedəcəyik. Bizə elə gəlir ki, bundan daha artıq deputat təmsilçimiz seçiləcəkdir. Buna əminik.

- Səddam dönəmi ilə Məsud Barzani hökuməti arasında nə fərq görürsünüz?

-Təbii, müqaisə olunmayacaq fərq var. Səddam Hüseyn sistemi ərəbləşdirmə, assimliasiya etmə siyasəti idi. Amma hörmətli Məsud Barzani cənablarının sistemi demokratik bir sistemdir. Biz türkmanlar olaraq, sistem içində böyük demokratik haqlara malikik,bütün insani haqlara sahibik. Lakin Səddam dönəmində bu haqların heç birinə sahib deyildik.

-Sizin Azərbaycanın prezidenti hörmətli İlham Əliyev cənablarına, azərbaycan parlamentinə, azərbaycan ziyalılarına və azərbaycan xalqına nə deyəcəkləriniz var?

-Biz burdan,səmimi salamlarımızı ürəkdən, böyüyümüz İlham Əliyev cənablarına,bütün azərbaycan xalqına, qardaşlarımıza, azərbaycan parlament nümayəndələrinə, azəbaycan ziyalılarına göndəririk. Onlardan istəyimiz odur ki, bizdən xəbərdar olsunlar. Bizim hansı məqamda olduğumuzu bilsinlər, problemlərmizin həllində bizə yardımçı olsunlar. Arzumuz odur ki,Türkiyənin nümayəndəliyi Ərbildə,Kürdüstanın nümayəndəliyi Ankarada olduğu kimi Bakıda Kürdüstanın nümayəndəliyi,Ərbildə Azərbaycanın nümayəndəliyi açılsın.İstəyimiz odur ki, mədəni, siyasi, iqtisadi əlaqələr hər iki hökumətlər arasında yaransın. Bizim Azərbaycan mədəniyyətinə ehtiyacımız var. Tahir bəy, sizin Azərbaycandan Ərbilə, Kərkükə gəlişiniz biz türkmanları çox sevindirir. "Diplomat" qəzetinin baş yazarı kimi bizim dərd-sərimizi işıqlandırıb, dünyaya yaymaq və xalqlarımız arasında dostluq əlaqələrinin qədim tellərini daha da biribirinə möhkəm bağlamaq, təqdirə layiqdir. Bunun üçün türkman xalqı adından sizə təşəkkür edirəm.

-Bu müsahibəni bizə verdiyiniz üçün, siz də çox sağ olun.

Tahir Əliyev.

("Diplomat" qəzeti, 19-cu say)

HDP'nin seçim çalışması toplantısına polis baskını: Siyasetçi ve gazeteciler gözaltına alındı

HDP
HALKLARIN DEMOKRATİK PARTİSİ

İstanbul'da seçim çalışması için düzenlenen halk toplantısına polis baskın yaptı, çok sayıda katılımcı gözaltına alındı.

Aralarında ilçe yöneticilerinin de olduğu 39 kişi gözaltına alındı.

Alınan bilgiye göre, Güngören İlçe Emniyet Müdürlüğü ve Güvenlik Şube Müdürlüğü ekiplerince düzenlenen operasyon kapsamında gözaltına alınanların güvenlik işlemleri yapılıyor.

Seçim çalışmaları ve 1 Mayıs gündemli HDP Güngören ilçe binasında yapılan halk toplantısını polisler bastı. Haber takibi yapan Mezopotamya Ajansı'nın stajyer muhabirlerimiz Melike Ceyhan ile Servet Karaduman ile HDP İstanbul İl Eşbaşkanı Cengiz Çiçek'in de içerisinde olduğu çok sayıda kişi gözaltına alındı.

Halkların Demokratik Partisi (HDP) İstanbul İl örgütü, seçim çalışmaları ve 1 Mayıs gündemli HDP Güngören ilçe binasında yapmak istediği halk toplantısı polisler tarafından basıldı. Yapılan baskın sırasında içerisinde HDP İstanbul İl Eşbaşkanı Cengiz Çiçek ile Mezopotamya Ajansı stajyer muhabirleri Melike Ceyhan ile Servet Karaduman'ın da olduğu çok sayıda kişinin gözaltına alındığı belirtildi.

Polisin baskın gerekçesi öğrenilemezken, gözaltına alınanlar Merter Keresteciler Polis Karakolu'na götürüldü. ***tr.zer.news***

İstanbul'da HDP binasına polis baskını; Gözaltılar var

HDP'nin İstanbul Güngören ilçe örgütü binasına yapılan polis baskınında 41 kişinin gözaltına alındı. 1 Mayıs ve 24 Haziran seçim çalışmalarına yönelik HDP

Güngören ilçe binasında yapılan halk toplantısına polis baskın düzenledi. Mezopotamya Ajansı'nın haberine göre, baskında HDP İstanbul İl Eşbaşkanı Cengiz Çiçek'in de aralarında bulunduğu :: kişi gözaltına alındı. Polisin baskın gerekçesi öğrenilemezken, gözaltına alınanlar Merter Keresteciler Polis Karakolu'na götürüldü. Gözaltına alınan 41 kişiden 31 kişi ifadelerinin ardından serbest bırakıldığı belirtiliyor. Gözaltına alınanlar hastane kontrollerinin ardından İstanbul Emniyet Müdürlüğü'ne götürüldü. Burada ifadeleri alınanlardan 31 kişi serbest bırakılırken, 10 kişi ise hala gözaltında. ***tr.zer.news***

KÜRD XALQININ ZƏFƏR TARİXİNDƏN



Səbahəddin Eloğlu

Mərhum şair, publisist, tarixçi, filosof, xalq qəhrəmanı SULTAN bəy, HƏSƏN bəy ZƏRDABİ, ŞƏHRİYAR adına mükafatların laureatı Səbahəddin Eloğlu 40 ilə yaxın DÜNYA TARİXİNİ nəzmə çəkməyə çalışmışdır.

Onun "Kürdlərin zəfər tarixindən" poemasından bir parçanı oxuculara təqdim edirik. Poemadakı bu fəsil 100 illik SƏLİB müharibəsini darmadağın edən, İSLAM DÜNYASININ ÇİÇƏKLƏNMƏSİNƏ şərait yaradan Qədim Misir hökümdarı, məşhur KÜRD sərkərdəsi SƏLAHƏDDİN ƏYYUBİYƏ ithaf olunur.

...Xudaya, səndən bir umacağım var,
Sən məni nadanın əlindən qurtar.
Güc ver aşa bilim uca sədləri,
Açım bağlı qalan həqiqətləri.

Əcəmi, yezidi kürdlər bir zaman,
Yayılıb tutmuşdur dünyanı tamam.
Tarix xəlbirləmiş bu qədim xalqı,
Başqa xalq onun tək çətin qalardı.

Qədim tarixləri öyrənən zaman,
Söz verdim, söz açam bir gün bu xalqdan.
Bu xalqın şərəfli bir keçmişi var,
Bu şərəf tarixdə bu gün də yaşar.
Ən böyük idraklar haçan oyanmış,
Yerin dan ulduzu kürdləri sanmış.
Qədim buzlaşmadan əvvəlki dünya,
Çalışmış həyatda kürdü qoruya.
Uzaq keçmişləri saldıqça yada,
Asan tapacaqsan kürdü dünyada.
Kürdlərin soyunu axtarsan əgər,
Sənə dastan verər qədim ölkələr.
Dünya allahların kürdlər azaltmış,
Odur ki, dünyada Allah tək qalmış.
Bir zaman inkişaf o yerə çatmış,
Uçan xalçaları kürdlər yaratmış.
Bir vaxtı dunyanı su alan zaman,
Nuh Nəbi salamat çıxmışdır ondan.
Elə ki günəşin istisi sönmüş,
Kürdün taleyi də o vaxtdan dönmüş.
Dağılmış dünyadan sonra nə olub,
Bir qədər danışmaq qəlbimə dolub.

****

Qədim illərdən bu günə qədər,
Kürdün mərdliyindən söz açmış bəşər.
Kürlərin tarixdə iki xidməti,
Bu xalqa gətirmiş böyük hörməti.
Biri ədalətdir, onlar yaratmış,
Zülmün zəncirini çox qırıb atmış.
O biri sərvətdir, sərvətlə inan,
Yaşayıb yaratmış dünyada insan.
Kürdün saxladığı saysız quzular,
Demişlər azalsa həyat pozular.

Qədim Amazonlar, qədim Şumerlər,
Göz açıb kürdləri atlı görüblər.
Nilin sahilindən ta Çinə qədər,
Abadlıq işləri görmüşdür kürdlər.
Kürdlərin tikdiyi qədim qalalar,
Axtarsan dünyanın hər yerində var.
Kürdün şəhərləri torpağın altda,
Axtarsan taparsan çox dərin qatda.
Keçmişdən səs verən o sirli daşlar,
Kürdün adı ilə söhbətə başlar.
Bir ac Anna - Bani kitabəsini
Öyrən kainatı, yer kürəsini.
Kürdlər varisidir Lullubeylərin,
Qolda güclülərin, adda yeylərin.
Mesapotomiyanı - qədim şəhəri,
Məgər yaratmamış Kürdün hünəri?
Lullular, Kutilər, o mərd tayfalar,
Məgər kürd deyildi, niyə danırlar?
Miladdan üç min il əvvəl də bəli,
Yazılmış tarixə kürdün hünəri.
O zalım, o qəddar Naramsis şahı,
Kürdün zərbəsindən çox çəkmiş ahı.
Yunanlar uşaqdı kürdlər yanında,
Kürdün də qanı var Yunan qanında.
Böyük sərkərdələr çoxalsın deyə,
Yunanlar meyl etmiş kürdü sevməyə.
İsgəndər min kürdü seçib aparmış,
Gözəllər kürdlərdən toxum tutarmış.
Yunan gözəlləri deyirlər bir vaxt,
Hərdən kürdlərlə olublar xoşbəxt.
Qədim abxazların kürd babaları,
Qafqazda çox qurmuş sərt qalaları.
Əcəmi, yezidi kürdlər bir zaman,
Yayılıb tutmuşdur dunyanı tamam.
Tarix xəlbirləmiş bu qədim xalqı,
Başqa xalq onun tək çətin qalardı.

****

Gəl danma tarixin həqiqətini,
Kim qurdu Şəddadi Kürd dövlətini?
Məhəmməd Ben şəddad kürdü istəsən,
Qədim kitabları açıb görərsən.
Onlar düz iki yüz iyirmi üç il,
Hakimlik etdilər, bu asan deyil!
Gəncəni yenidən saldılar onlar.
Tarixdə əbədi qaldılar onlar.
Qurdular Gəncədə mərkəziyyəti,
Ucaldı bu yurdun şanı -şöhrəti.
Onlar gətirdilər Qafqazı cana,
Vergi də qoydular ilk Gürcüstana.
Yüksəkdə tutdular şeiri - sənəti,
Yaydılar dünyaya mədəniyyəti.
Dikbaşlıq eləmə, gəl dinlə bir az,
Bu yerdə naqqalıq əsla yaramaz.
O zaman yazırdı Qətran Təbrizi,
"Gəncə elm yuvası, şeir dənizi".
Ağılla, idrakla yaşayır Gəncə,
Cənnət bağçasına bənzəyir Gəncə".
İstəsən biləsən kürd hünərini,
Bəs edər görməyə Xudafərini.
Şəddadilər tikdi verib varını,
Həm onu, həm Gəncə qapılarını.
Karvanlar bu yerə qızıl gətirmiş,
Gedəndə bu yerdən kitab götürmüş.
Qızılla bəzənmiş qədim kitablar,
Qazılsa, Gəncədən çoxlu tapılar.
Gəncəni dağıdan o zəlzələdən
Axı, nə qaldı ki, danışım nədən?
Bu dərdi çəkdikcə ağrıdı ürək,
Tapmadı bir həmdəm eyləsin kömək.
Gəncənin şərəfi, şöhrəti o vaxt
Layiq görünürdü dünyaya paytaxt.
Yaxşı qarşılanar bu söhbət məncə,
Nizami kürd olub deyilə öncə.

****

Kürdlər tam alanda Qafqazı ələ,
Qafqazda erməni yoxidi hələ.
Qafqazın dağları kürdlərin olmuş,
Kürdlər bu yerlərdə çox qala qurmuş.
Ləzgilər soy kökün axtarsa əgər,
Görər ki, qohumdu qılıncla xəncər.
Qafqazın tarixin öyrənə bilsən,
Mənim dediyimi təsdiq edərsən.
Çeçenlər kürdlərdən törənib bir vaxt,
Onlar da mərdliklə olublar xoşbəxt.
Bir qoca çeçəndən get soruş bunu,
Sənə deyəcəkdir kürd olduğunu.
Kürdün kimliyini bilmək istəsən,
Gərək Zəngəzuru gəlib görəsən.
Tarixçi görsəydi Bisütun dağın,
Burdan başlayardı tarix yazmağın.
Misir ehramından bəzi cizgilər,
Ağ oğlan qəsrində aydın görünər.
Daşı daşlarla yox,dəmirlə yonan,
Min hikmət yaratmış bu yerdə inan.
Zəfər bayrağını dağlara vuran,
Dağların üstündə qalalar quran.
Azadlıq yolunda çox qurban verən,
Bu xalq unudulur bilmirəm nədən?

****

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.
Kəsərli qılıncı, sürətli oxu,
Kürdlər çox işlədib, tarixdə onu.
Ağır döyüşlərdən zəfər bayrağın,
Kürdlər qaldırıblar, məhv olsun xain.
Xainlik olmasa, inan ki, kürdlər.
Qayada bağ salıb məhsul götürər.
Şərqin şahlarını kürdlər qorumuş,
Kürd olan sarayda sakitlik olmuş.
Qorxusuz yaşamış bəzən ölkələr,
Ordu başçıları olanda kürdlər.
Qədim hindliləri Xəzərdən qovan,
Kürd xanı deyilmi, kürdəxanıdan?
Namərd orduları qafqazda əzən,
Məgər kürd deyilmi, danırsan nədən?
Qıyıq gözlüləri, Tuğyan çayında,
Kürdlər məğlub etmiş bahar ayında.
O vaxtdan kəsilmiş şərq hücumları,
At ilə, it ilə cum ha cumları.
Türklər öyünməsin çox cövlan edib,
Dar gündə köməyə kürdlərə gedib.
Kürdün qılıncı ilə dirçəlmiş Tatar,
Danılsa bu fakta dəlil tapılar.
Qədim Əhrəmilər döyüşdən əvvəl,
Kürdlərlə güləşib xeyir görüblər.

****

Xəzər sahilində Mərdi - Məkanı
Kürdlər salıbdılar. Bu məkan hanı?
Qılınc dünyasının qoç qəhrəmanı,
Bircə Koroğludur, gəl onu tanı.

****

Kürdlər nə yaradıb qoyub dünyada,
Çətindir hamısın gətirmək yada.
Oxuyan olsaydı daş kitabları,
Günəş tək parlardı əqlin açarı.
Kürdün yapıncısı qədim zamandan,
Qorumuş insanı qardan - borandan.
Təsəvvür etdiyin ən qədim dünya,
Ən çox əylənmişdir kürd oyunuyla.
Kürdlərin getdiyi yallılar ki, var,
Böyük qayalarda əksi tapılar.
Qədim muğamları öyrənsən əgər,
Qəlbini maqnit tək hikmətə çəkər.
Bayatı, heyratı, şux diringələr.
Dinləsən bu gün də xoşuna gələr.

****

Kürdlərdən söz açan pirani demiş,
Kürdün qazandığın dostları yemiş.
Kürddə adət deyil var yığıb qoymaq,
Kürdün yeməyidi bal ilə qaymaq.
Kürdün süfrəsində kabab yeyənlər,
Süfrədən duranda "əhsən" demişlər.
Kürd ilə dostluğu bacarsan əgər,
Sənə quzu kəsər ölənə qədər.
Kürdlə qonşu olsan, basma ayağın,
Dar gündə olacaq sənin dayağın.
Baxıb görkəminə gəl sanma fağır,
Kürdün mənliyi var, özündən ağır.
Kürdlərin tarixin nəzmə çəkəndə
Kürdlər qalmamışdı doğma vətəndə.
Kürdlər yadlar üçün ölümə getmiş,
Çox xalqı ölümdən Kürd xilas etmiş.
Bu xalqın tarixin tam yazsam əgər,
Ta tarix yazmaqdan xalqlar əl çəkər.
Çox sirri açmağa göstərsəm maraq,
Bil ki, söndürülər bu yanan çıraq.
Eloğlu, qoy qalsın bəzi söhbətlər,
Vaxt gələr, onlar da nəzmə çəkilər.
Vəfa, etibar, sədaqət hər nə var
Axtarsan hamısı kürddə tapılar.
Hər nədən söz açdım, mindən biridi,
Belə danışmaq da kürd hünəridi!

Əziz oxucu, hansı bir xalqın tarixini ürəyimə yatacaq səviyyədə nəzmə çəkmişəmsə, özümü mənən o xalqın övladı saymışam. Mənim atam azərbaycanlı, anam kürd qızıdır. Hər iki xalq mənim üçün əzizdir.

Atanı anadan ayırma, oğul,
Çəkiclə zindanın birdir yarası.

Zəngəzur qəzeti

Kürd İmperatorluqları

Qutilərin varlığı çox qədimlərə uzanır. Bu günə qədər bilinən ilk Quti imperatoru Emnatum miladdan əvvəl 3100-cü illərdə yaşamışdır.

Lağas kralı Adadnari hələ miladdan əvvəl 2400-cü illərdə Karda xalqından söz etmişdir. Eyni fikri Ur (Our) kralı Kmil Sin də Kurde torapqlarından bəhs edərək təsdiqləmişdir. Hitit kralı I Şuppilulita m. ə 1370-ci ildə Qurde xalqından söz açmışdır. Daha sonralar Assur kitabələrində Kardaka yaylasından və Kurtie – Kurti xalqından bəhs olunmuşdur.

Assur kralı Tukulti İnor, Qutilərə «Kurdi» deyirdi (Bax: İhsan Nuri Paşa, səh-33).

Milladdan 900 il əvvəl yaşamış Assur kralı Adalnirari Kusi, Kuti, Subari orduları ilə vuruşduğunu qeyd edir. Bu kral öz kitabələrində Qutiləri «Kürdi» deyə adlandırıb.

Kürd xalqının tarixini incələyərkən araşdırmaçıların müxtəlif dəyərli əsərlərindən istifadə etdikləri İhsan Nuri Paşa bu haqda belə demişdir:

- Kürd əsilli olan Khaldi (Xaldi), Ararati. Subari, Nauri, Mitanni, Muşki və Kassit dövlətlərinin Qutilərdən ayrıldığını, yəni hamısının kökünün qutilərə dayandığını göstərən əsərlər var. Bunlardan biri m. ə 1280-1261-ci illərdə yaşamış Asur kralı I Salamanasar krallığından qalan kitablarda bunu yazır: «Bir ulduz kimi parlayan Quti xalqı yalnız çoxluğu ilə deyil, əzm, şiddət, dəhşət və yıxıcılıqları ilə tanınmaqdadır. Düşmənçilikləri mənə də qarşı sürüb getdi».

Kürd Quti dövlətinin dağılmasından təxminən 1000 il sonra yaşamış Assur kralı Salmanasar, beləcə Quti qollarından gələn və öz yerinə çatan yeni kürd xalqlarının və onların dövlətlərinin qutilərin soyu və övladları olaraq tanıtmaqdadır. Onlar üçün min illik bir zaman fasiləsindən sonra da yenə quti sözlərini işlətməkdədir.

Etdiyi müharibələrdən sonra kral Salmanasar bunları yazmışdır: «Ararat sərhədindən Tur Abidinə qədər bir ölkə içində Quti qanı su kimi axıdıldı, lakin məğlub olmalıdılar».

… Yuxarıda adları çəkilən coğrafi terminlərin yerləşdiyi bölgələrdə bu gün də kürd xalqı yaşamaqdadır. Tarixi Babil ölkəsini fəth etmək ilk dəfə qutilərə nəsib olmuşdur. Quti dövləti parçalandığında, onların qollarından biri olan Kassitlərin parlaq və güclü dövrləri 725-ci ilə çatan bir məmləkətin təməlini Babildə saldılar. Kürd xalqının məşaləsini Subarilər, Mitanilər, Khaldilər, Muşki və Nayri dövlətləri vasitəsilə Med imperatorluğuna qədər daşıyıb gətirdilər.

Qutilərin kürd xalqının atası olduqlarını isbat etmək üçün «Ön Asiya və Mesopotomiya» tarixini incələyən və araşdıran elm və tarixçi amilləri də bu həqiqəti araşdırmalarında dilə gətirmişlər. Bunun isbatı olaraq Pensilvaniya Univerisitetinin professorlarından Speizer «Mesopotomiyanın kökəni» adlı əsərində kürdlərin qutilərlə Zaqros hulibiləri ilə eyni irqdən olduqlarını yazır (B. Nikitin, cild I. səh 91. Diponot).

Osmanlı tarixçilərindən Əhməd Rəfik «Ümumi tarix» adlı əsərində və onunla birlikdə Əmin Zəki də «Kürd tarixi» adlı əsərində müxtəlif fakt və sübütlarla eyni fikri təsdiqləmişlər (Ehsan Nuri Paşa, səh 38-40).

Tanınmış tarixçi Mucerson qutilərdən gələn Naviri xalqının hakimiyyətinin sonunda Kurti deyilərək adlandırıldıqlarını göstərməkdədir ki, bu da qutilərin kürdlərin ataları olduqlarını sübut edir. Hətta doktor Kontinov da miladdan 4000 min əvvəl Mesopotomiya və Zaqros dağlarında yerləşən xalqların Quti və Kusi (Kassit) deyə adlandırdıqları və ari irqdən olduqlarını, Kürd xalqının bu torpaqlardan enib gəldiyini vurğulayır. İstər Mucersonun, istərsə də doktor Kontinovun dediklərini təsdiq etmək üçün «Kürd ədəbiyyatı tarixi» əsərini göstərmək istərdik (II hissəyə bax).

- Şərqşünas Draver «Kürdlər və Kürd tarixi» kitabında qutilərin və kardaların kürd xalqının ataları olduqları olduğunu yazır. Digər bir şərqşünas Rayks da eyni fikirdədir (İ. N. P. səh. 173). Kürd xalqının qədimliyi və kürdlərin antik dövrdən gələn bir xalq olduğunu türk alimləri tərəfindən yazılmış «İslam ensklopediyası» əsərinin 1089-cu səhifəsində bunlar qeyd edilmişdir. Miladdan təqribən 2000 il əvvəl II Şumer dövrünə aid daş yazısında, Thureau-Danqin (Revue d Assurioloqie, v-99, VI, 67) bir Kardaka adına təsadüf edilir. Bu ölkə Driverin Van gölünün cənubunda göstərdiyi Su tayfasının yanında idi. Miladdan sonra 1071-ci ildə Malazgirddən Anadoluya girmiş türk xalqı ilə kürd xalqının heç bir qohumluğunun olmadığını Milli Təlim Nazirliyi tərəfindən nəşr edilmiş ensiklopediyada öz əksini tapmışdır. Adı bilinən Quti kralların-



dan Losirab, Şərlək, İks, Huş, Anri, Danzir, Trikan ən başlıca krallardandırlar. Bunlardan Şərləkə Firdovsinin «Şahnamə» əsərində Siyamən, İkş, Huşaya isə Huşəng adlandırılmışlar.

Babil dövlətinin süqutundan sonra, sadəcə 125 il 40 günlük Babil hökmranlığı zamanı həmsərhəd olan Quti krallarının sayı 14 olduğunu İ. N. Paşanın adı keçən əsərindən öyrənirik. Bazil Nikitin də qutilərin Sarqon xənadanlığına son verdiklərini və eyni dövlətin miladdan öncə 2496 – cı ilə qədər hökmranlığının sürdüyünü yazır (B. Nikitin «Kürdlər» cild I, səh-31).

Özü Quti soyundan olan Louqal Oton (Louqan kralı) Erun kralı olaraq Quti kralı Trikanini məğlub etdi. Quti xalqı bu məğlubiyyətdən sonra bəyliklərə bölündü. Bu dağınıqlıq içindən Bitlis bölgəsindəki qutilər Kardaka adını aldılar. Bəxtiyari dağlarındakı və ətrafındakılar müstəqillik qazandılar. Ancaq tarixi baxıma görə, qutilərdən sonra bu ölkə xalqını yetişdirdiyi və tarixə damğasını vuran iki yeni türk dövləti meydana gəldi. Bunların parlaq və görkəmli dönəmi 725 il sürən kürd Kussi – Kassit dövləti ilə bu dövlətin yaşama müddətinin ortalarında yer alan və təqribən 175 illik bir yaşam sürən Böyük Kürd Mittani imperatorluğudur.

Kürd Kassit – Kussi imperatorluğu

Kürd Kassit - Kussi dövləti haqqında məlumat verərkən bu haqda da qabaqcadan bildirmək istəyirik ki, bu dövlətə Cəmşidin adı verilmişdir. Hətta Firdovsinin «Şahnamə» əsəri də Kassit - Kussi dövlətini kinayə ilə Cəmşidin milləti hesab edir.

Quti imperatorluğunun dağılmasından sonra quti xalqının yaratdığı bu dövlət siyasi hakimiyyətini m. ə 1891-1171 – ci illərdə sürdürmüşdür. Qərb tarixçiləri isə bu hakimiyyətin sonunu 1160-cı il olaraq göstərir (Mauriçe Meumao, «Le Monte antiqie» əsəri, Paris 1976. Səh-160).

Kürd sivilizasiyası bu dönəmdə insanlığa böyük mənfəət verdi. Sənət, mədəniyyət, ədəbiyyat, el sənətləri, heykəltaraşlıq, rəsm və ev əşyalarının formalaşdırılmasında Kürd Kussi dövləti, Mitani dövləti ilə birlikdə çağdaşları Hititlərə, Asurlara və fironların idarəçiliyində olan Misir ölkəsinə böyük ölçülərdə təsir etmişdir.

Tarixi araşdırmalarda və İraq Kürdüstanındakı arxeoloji qazıntılar zamanı əldə edilən kürd milli kalaritinə uyğun olunan şahanə heykəllər 1984-cü ildə Bağdad Milli Muzeyinə qoyulub. Yenə Kürd Kassit imperatorluğuna aid adlı – sanlı «Sinus səhnəsi» adlı daş üzərində yonularaq gerçəkləşdirilmiş əsər Parisin «Laubre» muzeyini bəzəməkdədir. Belə nümunələrdən yüzlərlə saymaq olar.

Beləliklə, güclü Firon hakimiyyətindən geridə qalmayan, böyük bir tarixi zənginliyə malik olan Kürd Kassit dövləti siyasi, iqtisadi, eləcə də elm sahəsində irəli getmələrini göstərən dəlillərlə sübut etməkdədir.

Ölkələr arasında əlaqələr qurulur, məktublar yazılır, elçilər təyin edilirdi. Xüsusilə firon ölkəsi Misirlə Kürd Kassit dövləti arasında idxalat və ixracat, kredit və ya mübadilə yolu ilə yardımlar şəklində təşkil olunurdu. Bu dövlətdə barış və sülh müqavilələri imzalanırdı. Beləliklə, tarixin bildiyi ən qədim zamanlardan günümüzə qədər dövlət quruluşu ilə, dövlətlərarası danışıqların hüquqi təməlləri Kassit – Kussi imperatorluğunda rast gəlinir (Bu haqda geniş məlumat almaq üçün bax: Mauriçek Muleau «Len Monte Antique». Səh-161).

İdarəetmə sistemində yeni bir qayda yaradılmışdı. Tapınaqlardan dini ayinlərlə yanaşı sənət, mədəniyyət və ədəbi əsərlər də sərgilənməkdə idi. Kürd xalqı bu adətlərini günümüzə qədər də davam etdirməkdədir. Bu dövlətin idarəetmə, hüquqi, toplumsal və mədəni qurumlarının o zamanda ən irəli bir düzəndə olması bir təsadüf deyil. Çünki, Kassitlər m. ə 1530-cu ildə ulu babaları qutilər kimi Babili (Babilosu) tamam işğal etdilər. Qərbin qədim dövr tarixçilərinin bildirdiklərinə görə, Kürd dövlətinin rəhbərləri məğlubiyyətə uğratdıqları Babilon ölkəsinə məxsus olan uyqarlığa da sahib oldular. Məlum olduğu kimi, daha əvvəllər də bu ərazilərdə Hammurapinin yaratdığı monarxiya hakimiyyəti mövcud idi. Babil uyqarlığına öz damğasını vuran bu kral Assurları, Esəhnunna və Mari krallıqlarını məğlub edərək miladdan əvvəl 1695-ci ildə ölkəsinin sərhədlərini bir xeyli genişləndirdi. Həm Hammurapi (m.ə 1729-1686), həm də sələfi kral Şamsu İloina (m.ə 1686-1648) ölkədə hüquqi dövlət qurmuşdular. Ölkədə sağlam idarəetmə üsulu vardı. Maliyyəçilər (Tacirlər təşkilatının rəhbərləri), hakimlər və vilayət valiləri mərkəzdəki büroya bağlı idilər. Dövlətin amirləri Vali və Bələdiyyə sədrləri kimi vəzifələr də yazılı əmrlərin həyata keçirilib keçirmədiyini diqqətlə izləyir. Siyasi və iqtisadi yaşamı tək özü idarə edirdi.

Hammurapinin hüquq kodu çox məşhurdur. İnsanlıq tarixində bilinən ən qədim qanunu qoymaq yalnız ona nəsib olmuşdur. Bu kodake (kod) araşdırıldığında bu ölkədə kralın xalqın atası və qoruyucusu olub, güclü ilahi varlıqlardan (Tanrılardan) aldığını görürük:

- Tanrıların diqqəti və sevgisi olan mən Hammurapi ölkədə ədaləti yaşatmaq, ziyankarları və qatilləri məhv etmək, xalqımın üstündə günəş kimi doğaraq dünyanı aydınlatmaq üçün Tanrı Manrunun vəzifələndirdiyi bir çoban olaraq idarə etdiyim xalqıma heç bir zaman zülm etmədim və tənbəl olmadım. Mənim yaxşılıqsevər kölgəm ölkəmdəki bütün şəhərlərin üzərinə yayıldı. Şumer və Akkad ölkəsi insanlarını da bağrıma basdım. Onları sülh içində idarə etdim. Mənim mövcudluğum onları da qorudu. Güclü olanın zəifi məhv etməməsi üçün, yetimlərə və dullara haqlarını qorumaq üçün ölkədə ən yaxşı ədalət quraraq, bunları qoruyacaq qanunları bildirmək üçün bu lövhəyə dəyərli sözlərimi yazdım. Adil bir kral olaraq mənim varlığım önündə ilsak edirəm (Hammurapi qanunları – ön söz. Səh -160).

Beləliklə, Kürd Kassit dövləti Babili fəth edib öz ərazisinə qatdığı zaman bu ölkə üzərində sosial – iqtisadi, idarəetmə və mədəni bir vaxtda inkişaf edən xəzinə vardı. Kassilər də Babili almadan öncə böyük bir dövlətin təmsilçiləri idilər. Qaldı ki, Hammurapi monarxiyasının da Kassitlərin atası olan Quti ölkəsindən eyni bir biçimdə miras olaraq bir çox şeylərin dövr almasına, bu da alimlər tərəfindən təsdiq edilməkdədir.

Quti və Hurrilər dövründə atı daşıma və çəkmə vasitəsi kimi ilk dəfə insanlıq Kassitlər zamanında minik heyvanı kimi də istifadə etmişlər.

Bu tapıntıdan həm bir yerdən başqa yerə tez getmək məqsədi üçün, həm də müharibələrdə hərbi vasitə kimi də yararlanırdılar. Digər tərəfdən də Neolitin vaxtından ən önəmli şəkildə rast gəldiyimiz və tarixçilərin təxminlərinə görə, hələ palçıqkən üst-üstə qoyularaq inşa edilən kərpic ilk dəfə Kassit dövlətində içinə saman qarışdırıb gündə qurudulmaqla inşaatda istifadə edilmişdir. Aradan 3500 il keçməsinə baxmayaraq, kərpic Ön Asiyanın inşaatında ən başlıca vasitədir.

Araşdırdı: Tahir Süleyman

XX əsrdə erməni rəsmi dairələrinin kürdlərə qarşı həyata keçirdiyi deportasiya, repressiya və terror aktları haqqında

Qərbi Azərbaycanda kürdlərə qarşı törədilən deportasiya, repressiya və terror aktlarından bəhs etməzdən öncə həmin regionda kürdlərin məskunlaşma arealı və demoqrafik vəziyyətləri barədə məlumat verməyə ehtiyac vardır.

Qərbi Azərbaycan ərazisində yaşayan əhalinin milli tərkibi haqqında ilk müfəssəl məlumatı İrəvan xanlığının rus qoşunları tərəfindən işğalından sonra rus tarixçi-statisti İvan Şopen tərəfindən 1829-1832-ci illərdə aparılan kameral siyahıyaalmanın nəticələrindən əldə etmək olar. İ.Şopenin verdiyi məlumata görə, işğaldan sonra keçmiş İrəvan xanlığının ərazisində 6435 nəfər şiə, 3.978 nəfər sünni, 324 nəfər yezdi kürd yaşamışdır.

İrəvan xanlığının işğalından sonra Alagöz (Ələyəz) dağının ətəyindəki bir sıra boşalmış türk kəndlərində də Türkiyədən gələn yezdi kürdlər məskunlaşmışdılar. Yezdi kürdlər 1839-cu ildə Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində yerləşmişdilər. Nəhayət, yezdi kürdləri 1877-1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyə ərazisindən gələrək Bağdad Dolu-Taxt və Kiçik Cəngi kəndlərində yerləşmişdilər. Sonralar Ermənistanın rəsmi dairələri tərəfindən adları dəyişdirilən, lakin əsasən yezdi kürdlərinin yaşadıqları kəndləri əhatə edən Araqats (Ələyəz) rayonu təşkil edilmişdi.

1886-cı ildə keçirilən ailəhesabı siyahıyaalmanın nəticələrinə görə, İrəvan quberniyasında 670.405 nəfər yaşamışdır ki, onlardan 251.327 nəfərini azərbaycanlılar, 36.478 nəfərini kürdlər təşkil etmişdir. Azərbaycanlılar ümumi əhalinin 37,5 faizini, kürdlər isə 5,44 faizini təşkil etmişdir.

1890-cı illərdə Türkiyədə baş qaldıran erməni üsyanlarının yatırılmasından sonra təqribən 400 min erməni Rusiyaya köç etmiş, onların da xeyli hissəsi İrəvan quberniyasının ərazisində məskunlaşmış və nəticədə quberniya ərazisində ermənilərin xüsusi çəkisi süni surətdə yüksəlmişdi. 1897-ci il Ümumrusiya siyahıyaalmanın nəticələrinə görə, İrəvan quberniyasında yaşayan 829.556 nəfər əhalinin 313.176 nəfərini azərbaycanlılar, 49.389 nəfərini kürdlər təşkil edirdi. Kürdlərin də 35.675 nəfərini müsəlman kürdlər, 13.714 nəfərini isə yezdi və erməni-qriqorian dinini qəbul etmiş kürdlər təşkil edirdi. Ümumiyyətlə, XIX əsrin sonlarında müsəlman və yezdi kürdlər indiki Ermənistan ərazisinin 34 kəndində yaşayırdılar.

Türkiyədən gələn yüz minlərlə erməniləri daimi məskunlaşdırmaq üçün 1905-1906-cı illərdə erməni silahlı dəstələri kütləvi qırğınlar törətmişdilər. Təkcə həmin illərdə İrəvan quberniyası ərazisində 150-yə yaxın türk-müsəlman yaşayış məntəqəsi viran edilmiş, əhalisi qırğınlara məruz qoyulmuş və evlərindən didərgin salınmış, həmin kəndlərin əksəriyyətində Türkiyədən gələn ermənilər məskunlaşdırılmışdı.

1915-1916-cı illərdə Türkiyə ərazisin-dən 300 minə yaxın erməni gələrək Cənubi Qafqazda məskunlaşmışdı. Həmin ermənilərin böyük bir qismi İrəvan quberniyasının ərazisində cəmləşmişdi. 1917-ci il "Qafqaz təqvimi"nə görə, 1916-cı ildə İrəvan quberniyasında yaşayan 1.120.242 nəfər əhalinin 373.582 nəfərini azərbaycanlılar, 59.132 nəfərini kürdlər, onlardan 36.508 nəfərini müsəlman kürdlər, 12.624 nəfərini isə yezdi kürdlər təşkil etmişdir .

1919-cu ilin iyun-avqust aylarında Ermənistan daşnak hökuməti Daxili İşlər Nazirliyinin qərarı ilə siyahıyaalma keçirilmişdir. Respublika ərazisində qeydə alınan 917.297 nəfər əhalidən 122.185 nəfərini müsəlmanlar, 48.672 nəfərini isə qeyri-müsəlmanlar təşkil etmişdi [5, s. 178]. Erməni müəllifi Zaven Qorqodyan yazır ki, daşnakların

"təmizləmə" siyasəti nəticəsində 1919-cu ildə 200 min nəfərdən artıq türk və kürd Ermənistandan qovulmuşdur.

1922-ci ildə Sovet Ermənistanında keçirilən siyahıyaalmanın nəticələri daşnakların hakimiyyəti dövründə həmin ərazidə türk-müsəlman əhaliyə qarşı törədilən soyqırımın miqyasını əyani şəkildə nümayiş etdirir. Belə ki, Ermənistanda yaşayan 781.011 nəfər əhalinin 76.555 nəfərini Azərbaycan türkləri (9,8 faiz), 705 nəfərini (0,1 faiz) kürdlər təşkil etmişdir.

1926-cı ildə keçirilən ikinci Ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Sovet Ermənistanında 880.464 nəfər əhali yaşamışdır ki, onlardan 85.554 nəfəri azərbaycanlılar, 3.025 nəfəri müsəlman kürdlər, 12.237 nəfəri isə yezdi kürdlər olmuşdur [13, s. 4-8]. Faiz etibarilə azərbaycanlılar ümumi əhalinin 9,76 faizini, müsəlman kürdlər 0,4 faizini, yezdi kürdlər isə 1,4 faizini təşkil etmişdir.

1931-ci il siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 1.050.633 nəfər əhalinin 106.768 nəfəri azərbaycanlılardan (10,1 faiz), 19.268 nəfəri (1,9 faiz) kürdlərdən ibarət olmuşdur.

1930-cu illərdə Ermənistanda həyata keçirilən repressiyaların dalğasının fonunda azərbaycanlılar və müsəlman kürdlər daha ağır zərbə almışdılar. Xalq düşmənlərini, trotskiçi-buxarinçi casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Moskvaya belə məlumat verilmişdi ki, Ermənistanda Araz və Yuxarı Arpaçay çayları boylarında yaşayan müsəlmanlar casusluq edir və guya elliklə Türkiyəyə keçmək fikrindədirlər. Ona görə də 1937-ci ilin payızında və 1938-ci ilin yazında Ağbaba, Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiədzin, Hoktemberyan, Meğri rayonlarının Türkiyə və İranla həmsərhəd kəndlərində yaşayan azərbaycanlı və müsəlman kürd ailələri kütləvi surətdə repressiyaya məruz qalmışdılar. Minlərlə ailə Orta Asiyaya və Qazaxıstana sürgün edilmişdir. Ümumiyyətlə, XX əsrin 30-cu illərində Ermənistandan 50 mindən artıq azərbaycanlı və müsəlman kürd repressiyaya məruz qalmışdır.

1939-cu ildə keçirilən üçüncü ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 1.282.330 nəfər əhalinin 130.997 nəfərini azərbaycanlılar (10,2 faiz), 20.481 nəfərini kürdlər (1,6 faiz) təşkil etmişdir.

1947-ci il dekabrın 27-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qəbul etdiyi qərara əsasən, 100 min kolxozçu və digər azərbaycanlı əhalinin üç il ərzində Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi qərarlaşdırılmışdı. Lakin 1948-1953-cü illərdə azərbaycanlı əhali ilə bərabər, müsəlman kürdlər də Ermənistandan deportasiya edilmişdilər. Ona görə də 1939-cu ildən1959-cu ilədək keçən 20 il müddətində Ermənistanda yaşayan azərbaycanlı əhalinin və müsəlman kürdlərin sayı kəskin şəkildə azalmışdı. 1959-cu ildə keçirilən dördüncü ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 1.763.048 nəfər əhalinin 107.748 nəfərini azərbaycanlılar (6,1 faiz), 25.627 nəfərini kürdlər (1,5 faiz) təşkil etmişdir.

1970-ci ildə keçirilən beşinci ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 2.491.873 nəfər əhalinin 148.189 nəfəri azərbaycanlılardan (5,9 faiz), 37.486 nəfəri kürdlərdən (1,5 faiz) ibarət olmuşdur.

1979-cu ildə keçirilən altıncı ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 3.037.259 nəfər əhalinin 160.841 nəfərini azərbaycanlılar (5,3 faiz), 50.822 nəfərini kürdlər (1,7 faiz) təşkil etmişdir.

Sovet hakimiyyəti illərində Ermənistanda müsəlman kürdlər əsasən Vedi (Ararat), Zəngibasar (Masis), Basarkeçər (Vardenis) rayonlarında və İrəvan şəhərində yaşayırdılar. Ermənistanda ayrıca müsəlman kürd kəndi yox idi. Azərbaycanlı kəndlərində yaşayan kürdlər əhalinin 10-15 faizindən çoxunu təşkil etmirdilər. Yezdi kürdlər isə əsasən Ələyəz (Araqats), Talin, Abaran, Hoktemberyan (Armavir), Artaşat, Dilican rayonlarında və İrəvan şəhərində yaşayırdılar.

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqeyindən istifadə edən Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini anneksiya etməyə cəhd göstərməklə yanaşı, Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və ermənilərlə qarışıq 94 yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən çox azərbaycanlı, 18 min müsəlman kürd, min nəfər rus-dilli əhali Azərbaycana qovulmuşdur.

Ermənistanın Ələyəz rayonunda doğulub böyüyən, İrəvan Dövlət Universitetinin filologiya fakültəsini bitirən, sonralar İrəvan radiosunun kürdcə verilişlər redaksiyasında və Ələyəz rayon komsomol komitəsinin katibi işləyən İşxan Aslanoviç Ankosi Ermənistanın müstəqilliyə qovuşmasından sonra təzyiqlərə tab gətirməyərək Ermənistanı tərk etmək məcburiyyətində qalmış və 1993-cü ildən Krasnodarda yaşayır, "Midiya" Kürd Milli-Mədəni Muxtariyyətinin sədri, Kürdüstan Milli Konqresinin üzvü kimi yezdi kürdlərin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətini davam etdirir. Onun atası Aslan Xudoyan uzun müddət yezdi kürdlərin yaşadığı rayonlarda rəhbər vəzifələrdə işləmiş, ermənilərin kürdlərə qarşı diskriminasiyasının canlı şahidi olmuşdu.

İşxan Ankosi yazır ki, hələ ötən əsrdə 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Ermənistanda millətçilik əhval-ruhiyyəsi ən yüksək həddə çatmışdı. Millətçilik daha çox Yakov Zarobyanın Ermənistan KP MK-nın birinci katibi olduğu dövrdə özünü büruzə vermişdir. Məhz Y.Zarobyanın açıq şəkildə dəstəyi sayəsində Ermənistanda antikürd siyasəti yeridilmişdir. İşxan Ankosi yazır: "Biz kürdlər praktik olaraq hər gün, hər saat hakimiyyət dairələri tərəfindən xalqımıza qarşı yeridilən diskriminasiya siyasətini hiss edirdik". O, daha sonra qeyd edir ki, hələ XX əsrin 80-ci illərində Ermənistan rəhbərliyi kürdlərlə azərbaycanlılar arasında qarşıdurma yaratmaq siyasəti yeritmişdir. Belə ki, kürdlərin kəndlərindən olan təmsilçiləri Ermənistan KP MK-ya dəvət edilərək onlara "respublika ərazisində yaşayan bütün kürdlərin kompakt ərazidə yaşamaları və heyvandarlıqla məşğul olmaları üçün" onların Amasiya rayonuna köçmələri təklif edilmişdi. Həmin vaxt Amasiya rayonunda yaşayan əhalinin 85 faizindən çoxunu azərbaycanlılar təşkil edirdi. İşxan Ankosi yazır ki, bununla Ermənistan rəhbərliyi kürdlərin əli ilə azərbaycanlıların Amasiya rayonundan sıxışdırılıb çıxarılmasına nail olmaq və gələcəkdə müsəlman kürdlər ilə azərbaycanlılar arasında yaratdıqları düşmənçilikdən istifadə etmək məqsədi güdürdü. Məhz müsəlman kürdlərin Amasiya rayonuna köçməkdən imtina etmələrindən sonra onları cəzalandırmaq üçün 1983-cü ildə Ermənistan hökuməti Ararat vadisində qoyunçuluğun qadağan edilməsi barədə qərar qəbul etmişdi.

Davamı səh. 8-də

Nazim MUSTAFA
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru

XX əsrdə erməni rəsmi dairələrinin kürdlərə qarşı həyata keçirdiyi deportasiya, repressiya və terror aktları haqqında

Əvvəli səh. 7-də

Ermənistan hökuməti yezdi kürdlərinin əli ilə Amasiya rayonunda yaşayan azərbaycanlıları deportasiya etmək istəmişdi. Belə ki, Amasiya rayonu ərazisində Ələyəz rayonunun kürd kəndləri üçün yaylaq yerlərinin ayrılmasını istəmişdilər. Bu məqsədlə yezdi kürd kəndlərinin təmsilçilərinin iştirakı ilə Amasiya rayonunun dağ kəndlərinə baxış keçirilmişdi. Əslində, Ələyəz rayonunun özü yaylaq rayonu olub, dəniz səviyyəsinə görə Amasiya rayonu ilə eyni səviyyədə idi. Digər tərəfdən, onsuz da otlaq sahəsinin qıtlığından əziyyət çəkən Amasiya rayonunun ərazisindən Axuryan və Ani rayonlarının erməni kəndləri üçün çox-çox əvvəl yaylaq yerləri ayrılmışdı. Onu da qeyd etmək lazımdır ki, Amasiya rayonunda yaşayan azərbaycanlı əhalinin böyük əksəriyyəti mal-qarasını uzun sürən qış aylarından salamat çıxarmaq üçün qonşu erməni rayonlarının kəndlərindən ot almaq məcburiyyətində qalırdılar. Yezdi kürdləri Ermənistan hökumətinin əsl niyyətini başa düşüb, bu təklifdən imtina etmiş və əhalisinin sıxlığına görə Amasiya rayonundan qat-qat seyrək olan və geniş otlaq sahələrinə malik qonşu Qukasyan rayonundan yaylaq yerlərinin ayrılmasını istəmişdilər. Lakin Ermənistan rəhbərliyi buna razı olmamış və bu məsələ beləcə gündəlikdən çıxarılmışdı.

İşxan Ankosi yazır ki, hələ 1987-ci ildən Ermənistan KP MK-nın, Nazirlər Sovetinin, Ali Sovetin və güc strukturlarının bilavasitə örtüyü altında "Antikürd komitəsi" fəaliyyət göstərirdi. Bu qrupa İrəvanda yezdi kürdlərinin daha çox yaşadığı Myasnikyan rayon Partiya Komitəsinin birinci katibi Muradyan rəhbərlik edirdi. 1990-cı ildə ermənilərin antikürd kampaniyası apogey həddinə çatmış, kürdlər əleyhinə vərəqələr yayılmış, onların evləri yandırılmışdı. Bundan sonra İşxan Ankosinin iştirakı ilə 9 nəfərdən ibarət kürdlərin nümayəndələrini uzun təkidlərdən sonra Ermənistan KP MK-nın birinci katibi Vladimir Movsesyan qəbul etmişdi. Nümayəndə heyəti bir daha əmin olmuşdu ki, müəyyən antikürd qüvvələri mövcuddur və onların qarşısında konkret vəzifələr qoyulmuşdur. Elə həmin görüşdən ayrılan nümayəndə heyətini ermənilər Mərkəzi Komitənin qarşısındaca döymüşdülər. İşxan Ankosi yazır: "Hər şey aydın idi: əgər sağ qalmaq istəyirsənsə, çamadanını götür, haydı vağzala doğru".

O, daha sonra qeyd edir ki, 1988-ci ildə Spitakda baş verən zəlzələdən iki gün sonra Araqats (Ələyəz) rayon partiya komitəsinin üçüncü katibi Valeri Tonoyan Camışlı kəndində yaşayan yezdi kürdlərinə demişdi ki, dekabrın 11-də erməni millətçiləri kürdlərə qarşı qırğınlar törədəcəkdilər. Təkcə Ələyəz rayonunda 11 yezdi kürd kəndi darmadağın ediləcəkdi. Bunun üçün yezdi və müsəlman kürdlərin yaşadıqları evlər və cinayətin konkret icraçıları əvvəlcədən müəyyən edilmiş, benzindaşıyan maşınlar hazır vəziyyətə gətirilmişdi. Sadəcə olaraq, dekabrın 7-də baş verən zəlzələ nəticəsində ermənilərin növbəti cinayətlərinin qarşısı alınmışdı.

1991-ci ildə kürd ziyalılarından ibarət bir qrup müsəlman və yezdi kürdü arasında Ermənistan rəhbərliyinin apardığı təfriqəçilik siyasətinə qarşı etirazlarını bildirmək üçün prezident Levon Ter-Petrosyanın qəbulunda olmuşdu. Kürd ziyalısı Çərkəze Raş demişdi: "Məgər siz bir şərqşünas kimi bilmirsiniz ki, yezdilər digər kürdlərdən yalnız dini inanclarına görə fərqlənir və kürd xalqının bir parçasıdır? Sizin siyasətiniz kürdlərin müxtəlif konfessiyaları arasında nifaq yaratmağa yönəlib". Levon Ter-Petrosyan cavab vermişdi: "Biz erməni xalqının maraqlarından çıxış edirik".

Kürdlərə qarşı törədilən qətl və qırğınların cəzasız qalması erməni millətçilərini yeni-yeni qırğınlara həvəsləndirirdi. 2006-cı il avqustun 17-də Kotayk vilayətinin Zovuni kəndində yaşayan yezdi kürdlərlə ermənilər arasında kütləvi dava baş vermişdi. Həmin vaxt 42 yaşında yezdi kürd Kərəm Avdalyan qətlə yetirilmişdi. Hadisə yerinə gələn Ermənistan Yezdiləri İttifaqının sədri Aziz Tamoyanın başına odlu silahı dayayaraq demişdilər ki, kürdlər rədd olub öz ölkələrinə getsinlər. Bu cinayəti Ermənistanın hüquq-mühafizə orqanları ört-basdır etmişdilər. 2006-cı il dekabrın 7-də K.Avdalyanın anası, arvadı və iki oğlu Ermənistan Prezidentinin iqamətgahı qarşısında özlərini yandırmışdılar.

2009-cu il iyun ayının 3-də Abovyan rayonunda Məcid Hasoyan adında yezdi kürdün 6 nəfərlik ailə üzvünün hamısını erməni qonşuları qətlə yetirmişdilər. Hansı ki, həmin ailənin qətlə yetirilən ən kiçik üzvü Tengizin 13 yaşı var idi və ona daha çox işgəncə vermiş, venalarını doğramışdılar. Üst-üstə Hasonan ailəsinin üzvlərinə 80 bıçaq zərbəsi vurmuşdular. Bundan sonra erməni qonşuları yezdilərin saxladıqları pulları və qızılları oğurlamışdılar.

Ararat (Vedi) rayonunun Qaralar kəndində 1988-ci ilədək azərbaycanlılarla yanaşı, ermənilər, müsəlman və yezdi kürdləri birgə yaşayırdılar. Azərbaycanlılarla müsəlman kürdlər 1988-ci ildə Qaralardan deportasiya edilmişdilər. 1994-cü ilin iyul ayında ermənilər Qaralar kəndində yaşayan yezdi kürdlərə qarşı qırğınlar törətmişdilər. Bununla bağlı Azərbaycan Kürd Mədəniyyət Mərkəzi dünya xalqlarına müraciət edərək qeyd edirdi ki, "qaniçən erməni hərbçiləri Vedi (Ararat) rayonunun yezdi kürdlər yaşayan Qaralar kəndində 50-dən çox dinc sakini qətlə yetirmişlər". Azərbaycan Kürd Mədəniyyət Mərkəzi ermənilərin təcavüzünə son qoymaq və yezdi kürdlərini məhv olmaqdan xilas etmək üçün dünya xalqlarını səslərini ucaltmağa çağırmışdı.

Ermənistanda daşnakların hakimiyyəti dövründən aparılan etnik təmizləmə siyasəti nəhayət, müasir Ermənistan hakimiyyəti tərəfindən başa çatdırıldı. Erməni ümummilli hərəkatının 1994-cü ildə İrəvanda keçirilən mitinqlərindən birində Levon Ter-Petrosyan demişdi: "O şeyi ki biz 2-3 il ərzində etdik, digərləri bunu 600-700 il ərzində edə bilməyiblər. Biz Ermənistanı digər xalqlardan təmizlədik".

Erməni eksperti Karine Ter-Saakyanın verdiyi məlumata görə, 2002-ci ildə Ermənistan parlamenti yezdilərin kürd olmaması barədə qətnamə qəbul etmişdir. Ermənistan hökumətindən dəstək alan həftəlik "Yezdixana" qəzeti kürdlərə qarşı yazılar dərc edir. İrəvan radiosunda bir saatlıq kürdcə verilişlərdə yezdilərin kürd olmadığı təbliğatı aparılır. 1992-2012-ci illərdə Ermənistanda yaşayan yezdilərin 30 faizi ölkəni tərk etmək məcburiyyətində qalmışdılar. Məsələn, əgər 1990-cı illərin əvvəllərində Ələyəzin Hakko kəndində 100-dən çox yezdi ailəsi yaşayırdısa, 2012-ci ildə burada 16 yezdi ailəsi qalmışdı. Bir çox yezdilər iqtisadi vəziyyətin ağırlığına tab gətirməyərək ərzaq və digər yardımlar almaq üçün xristianlığı qəbul etmək məcburiyyətində qalırlar. Məsələn, Ələyəz rayonunun Amre-Taza (keçmiş Karvansara, hazırda Saduns kəndi – N.M.) kəndində yaşayan yezdilərin təqribən 35 faizi xristian protestanta çevrilmək məcburiyyətində qalmışlar.

Rəsmi Ermənistan dairələrinin azərbay-canlılara və müsəlman kürdlərə qarşı apardıqları etnik təmizləmə siyasəti hazırda yezdi kürdlərə qarşı davam etdirilir. Bir zamanlar kürdlərin ermənilərlə birlikdə türklərə qarşı vuruşduqlarını yazan erməni tarixçiləri və siyasətçiləri bu gün kürdlərin ermənilərin soyqırımında iştirakçı olmaları barədə iddialarla çıxış edirlər.

Etnik azlıqlara qarşı Ermənistanda həyata keçirilən diskriminasiya siyasəti Avropa Şurasının İrqçilik və irqi dözümsüzlüyə qarşı mübarizə komissiyasının hesabatlarında da öz əksini tapmışdır. Komissiyanın 13 fevral 2011-ci ildə dərc edilən hesabatında qeyd edilir ki, etnik azlıqlar olan yezdilərin torpağa mülkiyyət sənədi almaq, suvarma və otlaqlar problemləri mövcuddur. Habelə, yerli hakimiyyət, polis və ordu tərəfindən yezdi icmalarının hüquqlarının pozulması faktları aşkar edilmişdir.

Müsəlman kürdlərin Ermənistandan deportasiyası zamanı yezdi kürdlər, çox təəssüf ki, erməni millətçi dairələrinin yanında yer almışdılar. Lakin çox keçmədi ki, yezdi kürdləri də eyni aqibəti yaşadılar. Bu gün diskriminasiyaya və kütləvi qırğınlara məruz qoyulan yezdi kürdlər Rusiyaya, Ukraynaya, Belorusa, Qərbi Avropa ölkələrinə, ABŞ-a, hətta Avstraliyaya üz tuturlar. Erməni vandalları kürdlərin qəbiristanlıqlarını buldozerlərlə yerlə yeksan edirlər.

2011-ci ildə keçirilən siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 3.018.854 nəfər əhalinin 35.308 nəfərini yezdilər, 11.911 nəfərini ruslar, 2.162 nəfərini kürdlər təşkil etmişdir .1979-cu ildə keçirilən siyahıyaalmanın nəticələri ilə müqayisədə kürdlər artmaq əvəzinə 13.352 nəfər azalmışdır. Əslində, kürd ailələrində çoxuşaqlılığın normal həyat tərzi olması nəzərə alınsa, 1979-cu ildən keçən 32 il ərzində, yəni 2011-ci ildə Ermənistanda yaşayan kürdlərin sayı azı iki dəfə artmalı idi.

Ermənistanın şəhərlərində yaşayan yezdi kürdləri əsasən şəhərin kommunal xidmət və yaşıllaşdırma sahələrində çalışırlar. Ermənilərin özlərinə rəva görmədikləri işlərdə çalışdırılan yezdilər diskriminasiyaya məruz qalırlar. Əgər 1989-cu ildə İrəvanda 7086 yezdi kürdün yaşadığı qeydə alınmışdısa, 2011-ci ildə onların sayı 3268 nəfər idi. Şəhərlərdə yaşayan yezdilər öz evlərini dəyərdəyməzinə satıb Rusiyanın şəhərlərinə köçmək məcburiyyətində qalırlar. Təkcə bu faktlar kürdlərin Ermənistanda nə dərəcədə diskriminasiyaya, deportasiyaya və terrora məruz qalmalarının əyani göstəricisidir.

Nazim MUSTAFA
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezi-

“O dağlar azaddı” - dedi Hüseyn Kürdoğlu...

Mərhum deməyə dilim gəlmədiyi Hüseyn Kürdoğlu adlı bir gözəl şairimiz həyatımın ağır keçən, son üç ayda az qala ölümlə uğraşdığım günlərin birində yuxuma gəldi. Üzü gülürdü, “Laçın dağlarından gəlmişəm, o dağlar azaddı” - bunu dedi və getdi. Bu yuxunu necə yozacağımı bilmirəm. Bircə onu deyə bilərəm ki, çox zaman yuxular çin olur və bu yuxuda Hüseyn Kürdoğlunun “dağlar azaddı” kimi xoş xəbərinin gerçək olacağına inanıram.

Doxsanıncı illərdə yazılan şeirlərin böyük bir qismi işğal olunmuş dağlarımızın, kəndlərimizin həsrətiylə yazılıb. Bu şeirlərdə fəryad da var, çağırış da... Hüseyn Kürdoğlunun o illərdə yazdığı şeirləri oxumaq kifayətdir ki, doxsanıncı illərin Azərbaycan poeziyasında HƏSRƏT, ÇAĞIRIŞ ərazilərinə” daxil olaq.

Doxsan üçüncü ildə, Laçın işğal olunandan sonra yazılan bir şeir:

Qismət olmayaydım ayrı torpağa
Gözlərim Laçını görəydi bir də.
Sürünüb çıxaydım İşıqlı dağa,
Əllərim bənövşə dərəydi bir də.

Beşbulaq üstündə quraydım dəyə,
Canım alan yara “can” deyə-deyə.
İldırım çaxanda baxaydı göyə,
Qaçaydı, qoynuma girəydi bir də.

Biçarə Kürdoğlu, ah çəkib inlə.
Bu qanlı dövranın hökmünü dinlə.
Qoşa at minəydim o nazəninlə,
Köhləni yanımca sürəydi bir də,
Gözlərim Laçını görəydi bir də.

Hüseyn Kürdoğlunun Laçınlı duyğuları poeziyada özünəməxsus LAÇIN obrazını yaradır. Bu obrazı zaman etibarilə üç məqamdan izləmək olar: Laçının azad və xoşbəxt günləri... Şair Laçına anam deyir, dizinə baş qoyur. Deyirdi ki: “coşum Dəli dağın boranı kimi, Şeh səpim Qırxqızın dumanı kimi. Məcnun bulağının mərcanı kimi şeirimi yaxana düzüm, ay Laçın. İkincisi: Laçının işğalı... H.Kürdoğlunun “Yaralı torpağım, yaralı sevgim” kitabında Laçın Həsrət simvoluna çevrilir. Yara hələ təzədi, qaysaq bağlamayıb. Şair inanır ki, Azərbaycan oğulları Laçını işğaldan azad edəcəklər. Odur ki, üzünü laçınlılara tutub deyir: “Alay tutun, vaxtdır daha, laçınlılar, Bir yol açın xoş sabaha, laçınlılar!” Yaxud: “Qoca Kürdoğlunu bir əsgər sayın, Çağırır Qarabağ, çağırır Laçın...” Üçüncü məqam: Laçın artıq xatirəyə dönür. O, şairin yuxularına girir. Kəlbəcərli, Laçınlı, Həkərili günlər, o bölgədə olan meşələr, dağlar, dərələr, çaylar, göllər də tez-tez yada düşür... Bu tipli şeirlər Laçın obrazının ayrı-ayrı dolğun cizgilərini təşkil edir.

Hüseyn Kürdoğlu müasir poeziyamızın aparıcı şəxslərindən biri idi. O, çox təvazökar insan idi. Heç vaxt “mənim şeirim”, “mənim poeziyam” ifadələri səslənməzdi dilində. Azərbaycan poeziyasının natur fəlsəfəsinin yaranmasında H.Kürdoğlunun da müstəsna rolu var. Görkəmli tənqidçi Yaşar Qarayev “təbiət: poeziya və ekologiya” məqaləsində H.Kürdoğlunun dördlüklərindən söz açaraq yazırdı: “Hüseynin dördlüklərində xalis xəyyamvari ruh yoxdur. Taleyin yox, təbiətin müdrikliyinə heyranlıq və pərəstiş var. Burada müdrik nəsihəti. Hikməti və ibrətli qənaətləri təbiətdən lövhələr-bədii peyzaj əvəz edir”.

Bulud dağ çiynində yapıncı kimi,
Hər təpə bir çoban balıncı kimi.
Araz parıldayır ay işığında
Babəkin sıyrılan qılıncı kimi.

Qoy görüşsün bir dodaqla bir yanaq,
Eşq oduna bir alışaq, bir yanaq.
Tökülübdür bir üzünə qara tel,
Ay tutulub: bir yan qara, bir yan ağ.

“Azərbaycan” şeirində dörd misra ilə fəlsəfi fikir söyləmək, həyat, ölüm, dünya və zaman haqqında poetik düşüncələr hasil etmək klassik ənənələrdən gəlir. Lakin onu da qeyd edim ki, şeirin bu kiçik formasında uğur qazanmaq hər şairə müəssər olmur.O yerdə ki, şair başlayır “filosofluq” eləməyə, o zaman şeir dönüb olur “kəlam”, “hakimanə söz” yığını. Hüseyn Kürdoğlunun dördlükləri belə bir iddiadan uzaqdır. Şair çalışır ki, dörd misrada həcmcə böyük bir şeirdə deyə bilmədiyi fikri poetik ümumiləşdirmə ilə deyə bilsin, bir bənzərsiz lövhə yaratsın. Bir neçə misal göstərə bilərəm:

Saçından rəng alsın gərək qaranlıq,
Gözündə bir gilə kövrək qaranlıq.
Dünyaya göstərir ay camalını,
Əyninə geydiyin ipək qaranlıq.

Yıxsın qarşısından Araz barını,
Dərək Kür barı tək, Araz barını,
Araz körpüsündə qoy bir tar çalım,
Sahillər dinləsin Arazbarını.

Qoca İşıqlının saçı dümağdır,
Gecələr sinəsi çıraq-çıraqdır.
Bəlkə yun əyirir bu qarı nənə
Təpələr yanında yumaq-yumaqdır?!

O qıza neylədin, a yağı bulaq,
Kəsilmiş üstündən ayağı, bulaq.
Bir zaman dirilik şərbətim oldun,
İndi ay zəhrimar, a yağı bulaq.

Sənsiz qor tökülür qoynuma gecə,
Alov geyinirəm əynimə gecə.
Özgə bir gözələ baxmışdım dünən,
Min şahmar sarıldı boynuma gecə.

Misallardan göründüyü kimibu dördlük nümunələri (əslində, rübai) şeirdə az sözlə maraqlı fikir söyləməyin mümkün olduğunu sübuta yetirir. Diqqət yetirsəniz, bu rübailərin heç birində yavan-yalxı sözlər gözə dəymir və bu sözlər dörd misrada obraz yaratmaq məramına xidmət edir.

Hüseyn Kürdoğlu ədəbiyyata əllinci illərin əvvəllərində gəlib. İlk şeiri 1950-ci ildə, “Azərbaycan gəncləri” qəzetində dərc olunub. ADU-nun filologiya fakültəsində oxuyanda respublika qəzetlərində şeirləri ilə müntəzəm çıxış edib və elə ilk şeirlərindən ustadların diqqətini cəlb edib. Məsələn, Bəxtiyar Vahabzadə gənclərə həsr etdiyi bir məqaləsində yazmışdı: “…Hüseyn Kürdoğlu da ümid verən gənclərdəndir. Onun şeirləri təbii, səmimi və axıcıdır. Gənc şair qələmə aldığı mövzunu dərindən duyub, yaşamadan yazmır. Bu cəhətdən onun “Yol üstündə tək qovaq”, “Görüş xatirəsi”, “İnanmıram”, “Torağayım” və s. şeirləri çox maraqlıdır. Şair yazır:

Bir gözəldən ilham aldım,
Dağ döşündə fikrə daldım,
Öz qə lbimi tutub çaldım,
Şair elər bu saz məni

Bəxtiyar müəllimin o zaman cavan Hüseyn Kürdoğlunun şeirlərində sezdiyi bu cəhətlər sonralar onun yaradıcılığının başlıca məziyyətlərinə çevrildi. Hüseyn Kürdoğlu həmin o təbiiliyə, səmimiliyə həmişə sadiq qaldı.

Mən Hüseyn Kürdoğlunun əlli illik yaradıcılıq yolunu izlədim və tam yəqinliklə əmin oldum ki, onun müasir poeziyamızda özünəməxsus yeri var. Heç də o fikirdə deyiləm ki, onun poeziyasına sağlığında obyektiv qiymət verməyiblər və dünyasını dəyişəndən sonra buna daha çox ehtiyac var. Həm də qətiyyən düşünmürəm ki, sağlığında onun şeirlərinin bədii məziyyətləri, poetik özəllikləri barədə söz deməyiblər. Axı, Hüseyn Kürdoğlu doğrudan da bir kimsəyə bənzəmirdi. Əsasən xalq şeiri üslubunda qələm çalan və sözün həqiqi mənasında müasir qoşmanın, gəraylının, bayatının özünü yaradan Hüseyn Kürdoğlu ədəbi tənqidin diqqət mərkəzində idi. Amma bunu da qeyd etməliyəm ki, klassik poeziyamız və aşıq şeiri ilə müasir poeziya arasında yaranan daimi təmas və körpülərin etibarlı sakinlərindən biri də Hüseyn Kürdoğlu olmuşdur.

Nədənsə mən XX əsr poeziyamızın ustadlarından olan Hüseyn Ariflə Hüseyn Kürdoğlu arasında (öncə bu barədə bir işarə verdim) daha doğrusu, onların yaradıcılıq dünyası arasında bir doğmalıq görürəm. Onların hər ikisi xalq ruhunun tərənnümçüsü idilər, klassik aşıq şeirinin-bu böyük poeziya ənənəsinin ləyaqətli davamçıları idilər, bu ənənəni müasir dövrdə-yeni biçimdə, yeni bədii təfəkkür işığında inkişaf etdirirdilər. Onlar ənənənin əsiri deyildilər, bu ənənəyə canlılıq və poetik təravət gətirən şairlər idilər.Məlum məsələdir ki, “köhnə” hesab etdiyimiz formalarda bədii uğur qazanmaq olduqca çətindir, bunun üçün xüsusi poetik istedada malik olmalısan.Hüseyn Kürdoğlu “köhnə” havalara yeni ritm, yeni ahəng gətirən şairlərdən idi.

“Hüseyn Kürdoğlu xalq ədəbiyyatını sevir” demək bəlkə də onun yaradıcılığına bəsit yanaşmaq kimi düşünülər. Hüseyn Kürdoğlu ədəbiyyata elə xalq ədəbiyyatının canlı təcəssümü kimi gəlib. Məlum məsələdir ki,xalq ədəbiyyatından təsirlənməyən şair tapmaq çətindir, amma təsirlənmək xalq ədəbiyyatı nümunələri səviyyəsində nəsə yaratmaq demək deyil. Hüseyn Kürdoğlunun yazdığı qoşmalar, gəraylılar, təcnislər, bayatılar əgər belə demək mümkünsə, “orijinal”a çox yaxındır. Onun təcnislərini bu sırada xüsusilə qeyd eləmək lazımdır. “ Klassik və folklor ənənələrindən yaradıcılıqla istifadə etmə mədəniyyəti” (Qasım Qasımzadə) bu təcnislərdə və həmçinin cinas üstündə qurulan digər şeir formalarında aşkar nəzərə çarpır.

Qobustan-daş adamlar,
Göz yaşım daşa damlar.
Duymaz daş adamları
Ürəyi daş adamlar.

Çiçəyə həmdəm arı,
Sızıldar dəm-dəm arı.
Mənim bağrımdan keçir,
Dünyanın qəm damarı.

Söz varmış demə səndə,
Demirsən, demə sən də.
Sirrin gözdən oxunur,
Nə fərqi deməsən də?

Böyük şairimiz Hüseyn Ariflə Hüseyn Kürdoğlu arasında bir doğmalıq olduğunu vurğulamaq istəyirəm. Bu doğmalığı şərtləndirən təkcə onların hər ikisinin folklorla, zəngin xalq ədəbiyyatı ilə bağlılığında deyil, həm də təbiət şairi kimi tanınmalarıdır.Təbiətdən yazmayan, gülə, çiçəyə, dağa, dərəyə, çölə, çəmənə şeir həsr etməyən şair tapmaq çətindir, amma əsl təbiət şairlərindən söz düşəndə barmaqla sayılacaq qədər şair adı üzərində dayanırsan: Hüseyn Arif, Hüseyn Kürdoğlu, Musa Yaqub, Məmməd Aslan - bu şairlər təbiəti öz dilində dilləndirən şairlərdir. Onların şeirləri təbiət vasitəsilə insanları, cəmiyyəti, dünyanı dərk etməyə səsləyən şeirlərdir. Biz onların şeirləri vasitəsilə təbiəti duyur, sevir və dərk edirik. Hüseyn Kürdoğlu da nədən yazırsa-yazsın, öz fikrini, hiss və duyğularını təbiət obrazları vasitəsilə açıqlamağa çalışır. Onun təbiət şeirləri barədə yazılan bəzi fikirlərə müraciət etmək istəyirəm. Hüseynin şeirlərində taleyin yox, təbiətin müdrikliyinə heyranlıq və pərəstiş var. Burada müdrik nəsihəti, hikmətli və ibrətli qənaətləri təbiətdən lövhələr-bədii peyzaj əvəz edir. Qartal qiyyəsi, çiçək təbəssümü, durna qatarı, çay nəğməsi, bulud karvanı olan dördlüklər formaca da, dil-ifadəcə də folklora, təbiətə doğmalığı ifadə edir” (Yaşar Qarayev). “Şairi təbiətlə bağlayan hansı mənadır, hansı istək,hansı idealdır? Əlbəttə, yalnız onun gözəlliklərindən estetik zövq almaq deyil. Belə olsaydı, şairin təbiətə münasibəti təmənnalı niyyət daşıyardı. Əslində isə şair təbiətin varlığında tükənməz, təmənnasız səxavətə heyrandır. Təbiətin bütövlüyündə, süniliyin ona yad olmasında mənalar axtarır. Təbiətə qovuşmağı, onunla birliyi arzulayır, poetik şəkildə ideallaşdırır” (Camal Mustafayev). “Hüseyn Kürdoğlunun poeziyası ana təbiətdəki tarazlığı, harmoniyanı vəsf edir. Hüseyn Kürdoğlunun şeirə gətirdiyi Laçın, Xaçın, Qırqız, Yeddi qardaş, İşıqlı, Kirs...-bu poetik obrazlar müəyyən bir yurdun, ulusun təkcə adları yox, bütövlükdə Azərbaycanın poetik rəmzidir” (Cavanşir Yusifli).

Səhər-səhər şeh düzümü boynunu əyən
Göy otların yarpağı da titrədir məni.
***
Gedirəm, salamat qalın, meşələr,
Dağlar qoynundakı qalın meşələr.
Ürkək maralları gizlədin barı,
Otların qaydına qalın, meşələr.
***
Çırpınar, döyüşər yel yıxan ağac,
Sızlar balta ilə əl yıxan ağac.
Baxın, həlak olmuş igid deyilmi
Daşqın çay üstündə sel yıxan ağac?

Belə misalların sayını qat-qat artırmaq olar.

Hüseyn Kürdoğlu şeirləri mövzuca rəngarəng idi. İndi bunları bircə-bircə təsnifləndirmək, bölgülərə ayırmaq fikrindən uzağam. Ancaq bir məsələni qeyd etməyi lazım bilirəm: O,bütün şeirlərində səmimi idi. Həmişə axtarışda idi, onu tutduğu şeir yolundan, ənənələrdən ayırmaq mümkün deyildi. Bəzi yaşıdlarının və cavanların bir çoxunun poetik dəblərə uyduğu bir zamanda H.Kürdoğlu yenə ilk şeirlərindən birində dediyi kimi yalnız “öz qəlbini tutub çalırdı”. Dərk edir və anlayırdı ki, qaynaqlandığı xalq şeirinin potensial imkanları hələ tükənməyib, hələ bu çeşmənin suyu gur axır. Akademik Bəkir Nəbiyev haqlı olaraq yazırdı ki, Hüseyn Kürdoğlu müasirləri arasında dördlüyün, bayatının, təcnisin əsl ustadı idi.

... Hüseyn Kürdoğlunun mənə bir bulağı xatırlatdı. Həmişə gur, duru bir bulağı.Əlbəttə, o bulağın suyu qurumayıb və nə qədər ki, Azərbaycan poeziyası var, o bulaq da qurumayacaq.

Hüseyn Kürdoğlunun qoşmaları, gəraylıları, rübai və bayatılarının içində artıq klassik nümunəyə dönən şeirlər də az deyil. Mən onun “Laçın bənövşəsi yadıma düşdü” qoşmasını XX əsr Azərbaycan poeziyasının ən gözəl incilərindən biri kimi qiymətləndirirəm. BƏNÖVŞƏ obrazı Qurbanidən üzü bəri neçə şairin ürəyini dilləndirib, amma bu sırada parlaq nümunələr o qədər də çox deyil. H.Kürdoğlunun Bənövşəsi isə ..heç nə demirəm, baxın, bu Bənövşə Dərdimizin bənövşəsidir.

Dərdim səhər-səhər bağçadan səni,
Gətirdim ad günü yara, bənövşə.
Laçın bənövşəsi yadıma düşdü,
Qanadı bağrımda yara bənövşə.

Yetdi dövranımız yaman illərə.
Qırxqızın göz yaşı döndü göllərə.
Özünü qayadan atdı sellərə,
Neçə əsir düşən Sara, bənövşə.

Sonda qayıdıram o yuxuya. Hüseyn Kürdoğlunun üzünə mənə tutub “Dağlar azaddı” dediyi o Söz. Yuxudu bu, bəlkə H.Kürdoğlu ruhu bu yuxudan xəbərsizdi. Onun ruhu Laçının, Şuşanın, Kəlbəcərin, Xocalının başı üzərində dolaşır. Deyir ki: “Hər gecə Sarıbaba yuxuma girir mənim, bir ovuc torpaq verir, ah çəkir, dönür gedir”. Deyir ki: “Gözlərimdən axır indi Həkəri, Dağ həsrəti dağdan ağır sələmdir”.

“Dağlar azaddı” dedi Hüseyn Kürdoğlunun ruhu. O dağlar bizim, biz də o

AZƏRBAYCAN MƏNBƏLƏRİ KÜRD XALQI HAQQINDA

Azərbaycanın azadlıqsevər, mübariz və adlı-şanlı şairi Xəlil Rza Ulutürk, müstəmləkə altında əzilən xalqlar haqqında belə demişdir: **"Planetin hər hansı bir guşəsində azad olmayan bircə millət, bircə fərd qalıbsa, mən öz səadətimi tam saya bilmərəm. Bəşəriyyətin ayrılmaz və qüdrətli bir qanadı olan qəhrəman Kürd millətinin azadlığı, dili, adət və gələcəklərini yaşatması uğrunda mübarizə aparması ürəyimcədir."**

Şair qəhrəman kürd xalqının inqilabi mübarizəsini yüksək qiymətləndirmiş, dərdinə acımış, onun mübarizəsinə bir çox şeirlər həsr etmişdir. Şair bu xalqın işıqlı gələcəyinə inanaraq yazır:

Hələ millətlər var ki,
Milliyəti danılır.
Köksündə dəvə qəlbi,
Fil ürəyi olsa da.
Müstəmləkə möhrüylə
Cırtdan kimi tanınır.
Hələ Həjar oxuyur:
-Kürdüstanım, dərdli Vətən,
Nalan Vətən!
Şər parçası bir vəhşinin
Pəncəsində qalan Vətən!

"Krasnodar qartalları" kitabı

Xəlil Rza qəhrəman kürd xalqının azadlıq mübarizəsinə və onların milli lideri General Molla Mustafa Barzaniyə rəğbətini belə vəsf etmişdir:

Mən gizlədə bilmərəm qranit qürurumu,
Əzəldən cəsurların, mərdlərin heyranıyam.
Topların qarşısında, tankların qabağında,
Daşla, yabayla çıxan kürdlərin heyranıyam.
Güclüdür fatehlərin topu, tankı, raketi,
Vulkanların üstündə cırtdanlar dura bilməz:
Prezidenti dağlarda səngər quran millətin,
Azadlıq amalını tanklar susdura bilməz!
Toplar susdura bilməz!

"Yeni zirvələr" kitabı



Xalqımızın çox sevimli insanpərvər, həqiqət tərəfdarı, demokrat **Xalq şairi Söhrab Tahirin** kürd xalqı haqqında çox yüksək fikirləri var. Onunla apardığım müsahibələrin birində, mən kürdlər ifadəsi işlədəndə, Söhrab müəllim mənim sözümü yarımçıq qoyaraq: "Sənə qurban olum, kürdlər demə, böyük kürd xalqı de və ya sadəcə kürd xalqı de. Sən kürd olsanda, mənim qədər kürd xalqını tanıya bilməzsən. 1946-cı ildə Şah bizi Kirmanşaha, Kürdüstanın şəhərlərindən birinə sürgün etdi. Orda kürd qardaşlarımız bizə o qədər qayğı ilə yanaşdılar ki, biz mühacirətdə olduğumuzu demək olaraq ki unutmuşduq. Bir dəfə mən yoldaşlarımla Bisitun dağından qayıdırdıq, o zaman Kürdüstan Qurtuluş Ordusu ilə Şah ordusu arasında müharibə gedirdi. Gördüm bir kürd fədaisi, bir şah pastargahı (polisi) ilə ucadan danışır. Danışıqdan məlum oldu ki, kürd fədaisi öz 8-9 yaşlarında bir oğlan uşağını rastargaha verərək, beşatılanını ondan almaq istəyir. Lakin pastargah razı olmaq istəmir. Sonda pastargahı razı saldı, öz doğma oğlunu onun qucağına qoydu və beşatılanı ondan alıb, öpüb çiyninə asdı və dağlara qəhrəmanlar diyarı Kürdüstanın azadlığı uğrunda mübarizəyə getdi, ama öz oğlunu öpmədi, öz doğma oğlunu öpmədi. Mən inanıram belə övladları olan xalq, nəvaxtsa öz azadlığını, müstəqilliyini əldə edəcək."

-Azərbaycanın görkəmli şairi və alimi **Qasım Qasımzadə** "Qəzəbli dağlar" poemasını kürdlərin milli-azadlıq mübarizəsinə həsr etmişdir. Poemada deyilir ki, üsyançı və əyilməz bir qoca kürdü həbs edirlər. Qocanı döyüb ölümcül hala salırlar, ondan bir kəlmə qopara bilmirlər. O susur. Lakin:

Bu sükut söyləyir:
-Alçaq, yaramaz,
Ağalar bir yolluq eşidin bunu:
Qəzəbli dağlardan qoparmaq olmaz,
Qazi Məhəmmədin ölməz ruhunu!
Yenə öz gücünü toplayıb əgər,
Ona qılınc çəksə bütün fitnə-şər,
Kürdü dediyindən döndərə bilməz,
Məsəldir ki, polad sınar, əyilməz!

Qocanın oğlunun ömür-gün yoldaşı qucağında körpə uşaq, qaynatasına baş çəkməyə gəlir. Zindan rəisi bu dağ gözəlini həyətdə görüb, ona şit sözlər deyir və güman edir ki, onu yoldan çıxara biləcəkdir.

Keçirdi qəlbindən elə bu zaman,
Minbir çirkin əməl rəyisi zindan.
Lakin o bilmirdi o dağ gəlini,
Tutmuş başı üstə namusu bayraq.
Qaldırsa bircə yol iti əlini
Onun sinəsini parçalayacaq.
Lakin o bilmirdi, qara qaşını,
Kürdüstan gözəli nə üçün çatmış.
Neçə şərəfsizin kəsib başını,
Ərinin ayağı altına atmış.

Gəlin qaynatası ilə görüşür. Qocanın körpə oğlan nəvəsi babasının qollarındakı paslı zənciri dartır, onu açmaq üçün inad göstərir. Qoca nəvəsinin bu hərəkətindən fərəhlənir.

Qoca nəvəsini görüb inadkar,
Gün kimi açıldı qaşı-qabağı.
Dedi: -Bürünsə də dumana dağlar,
Zindana dönsə də vətən torpağı,
Nəslimiz igiddir, işimiz haqdır,
Əsarət zənciri qırılacaqdır.
Qızım, çəkinmirəm əsla ölümdən,
Oğlum qoymayacaq yerdə qanımı.
O da ələ keçsə, inanıram mən,
Nəvəm alacaqdır intiqamımı.

-Qəhrəman kürd xalqının ürək dostu, demokratiya carçısı, haqqı-ədaləti hər şeydən üstün tutan, Azərbaycanın görkəmli xalq şairi, türk xalqının böyük oğlu **Bəxtiyar Vahabzadə** kürd xalqının azadlıq mübarizəsinə biganə qalmamışdır. Şair ərəb əsgərlərinə üz tutub deyir:

Azadlıqdır, azadlıq,
Bu gün davası kürdün.
Əlçatmaz dağlar olmuş,
Doğulandan bu yerdə,
Yurdu-yuvası kürdün.

Kürd dağlara çəkilmiş,
Onun azadlığına
Xətər dəyməsin-deyə.
Kürd dağlara çəkilməz,
Dağlar kimi başını
Heç vaxt əyməsin-deyə.
Əyməkmi istəyirsən
Sən o vüqarlı başı?
Yox, yox! Bu mümkün deyil,
Ətəyindən tök daşı.

"İnsan və zaman" kitabından

FƏTƏLİ XAN İSGƏNDƏRXAN OĞLU XOYSKİ, DÜMBÜLÜ KÜRD TAYFASINDAN OLAN MƏŞHUR AZƏRBAYCAN KÜRDÜDÜR. O, AZƏRBAYCAN CUMHURİYETİNİN BAŞ NAZİRİ OLMUŞDUR

Dümbüli kürd tayfasından olan Fətəli (Fəth Əli) Xan İsgəndər Xan oğlu Xoyski 1875-ci ildə Şəki şəhərində anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi. Onların əsli İran Azərbaycanın Xoy şəhərindəndir.

F.Xoyski 1918-ci il dekabrın 26-da təşkil etdiyi III hökumət kabinəsində də Nazirlər Şurasının sədri və Xarici İşlər naziri vəzifəsini tuturdu. Məhz onun dövründə Azərbaycan dövlət orqanlarının özülü qoyulmuşdu. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrail qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Cümhuriyyətinin pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdı.

Fətəli Xan Xoyski görkəmli dövlət xadimi idi

Dümbüli kürd tayfasından olan Fətəli (Fəth Əli) Xan İsgəndər Xan oğlu Xoyski 1875-ci ildə Şəki şəhərində anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi. Onların əsli İran Azərbaycanın Xoy şəhərindəndir.

F.Xoyski 1918-ci il dekabrın 26-da təşkil etdiyi III hökumət kabinəsində də Nazirlər Şurasının sədri və Xarici İşlər naziri vəzifəsini tuturdu. Məhz onun dövründə Azərbaycan dövlət orqanlarının özülü qoyulmuşdu. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrail qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Cümhuriyyətinin pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdı.

XX əsrin əvvəllərindən Azərbaycanda güclənməyə və genişlənməyə başlayan milli azadlıq hərəkatı millətinin qabaqcıl övladlarının səyi ilə düzgün istiqamətləndirilərək qalibiyyətlə başa çatdırılmış və 1918-ci il mayın 28-də bütün müsəlman Şərqində ilk demokratik respublikanın yaradılması ilə nəticələnmişdi. Milləti bu müqəddəs amala doğru aparan görkəmli siyasi və dövlət xadimlərindən biri də Fətəli xan Xoyski olmuşdur. 1875-ci il dekabr ayının 7-də Şəki şəhərində anadan olmuş Fətəli xan Xoyskinin atası İsgəndər xan əslən Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Buradan Qafqaza, Azərbaycanın Nuxa qəzasına köçmüş və Nuxada ailə həyatı qurmuşdur. İsgəndər xan rus ordusunda general-leytenant rütbəsindək yüksəlmişdir. İsgəndər xanın Cahangir xan, Hüseynqulu xan, Fətəli xan və Rüstəm xan adlı dörd oğlu olmuşdur. Onlardan Fətəli xan ilə Rüstəm xan Moskva Universitetinin hüquq fakültəsini bitirmişdilər (muvafiq olaraq 1901 və 1913-cü illərdə). Hər ikisi uzun müddət rus ədliyyəsində prokuror, sonra isə vəkil işləmişdilər (Hüseyn Aypara Azərbaycan ictimai mübarizəsi tarixi, Bakı, 1991, səh 235-236). Mövsüm Əliyevin Rüstəm xan Xoyski haqqında məqaləsində ("Odlar yurdu", 1990-cı il, iyun, № 12-13) oxuyuruq ki, Xoyskilərin əsli-nəsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Onların nəslinin adı Dünbülü Batman Qılıncdır. 1803-1806-cı illərdə Azərbaycanı işğal edən rus ordusunun komandanı general Sisianov Peterburqa göndərdiyi raportda Fətəli xanın ulu babası, Xoy xanı olan Cəfərqulu xanı Xan Xoyski kimi təqdim etmişdir. Həmin dövrdən bu nəsil Rusiyanın müstəmləkəsi olan Azərbaycanda Xoyski familiyası ilə məşhurlaşmışdır.

1902-1907-ci illərdə Fətəli

xan əvvəlcə Suxumda barışıq hakiminin köməkçisi, sonra həmin məhkəmədə müstəntiq, daha sonralar isə Yekaterinador dairə məhkəməsində prokuror nəzarəti prokurorunun müavini olmuşdur. Onu da qeyd edək ki, hələ Moskva Universitetində təhsil aldığı tələbəlik illərində gənclər hərəkatına qoşulmuş, Moskva Universitetini təkcə hüquqşünas kimi deyil, həm də geniş dünyagörüşlü bir siyasətçi kimi başa vurmuşdu. 1905-ci ilin avqustunda Nijni Novqorod şəhərində keçirilən Rusiya müsəlmanlarının I qurultayında yaradılmış "İttifaqi müslimin" təşkilatının işində fəal iştirak etməsi, hüquq və iqtisadiyyat komissiyalarının tərkibindəki gərgin fəaliyyəti də bu deyilənləri bir daha təsdiq edirdi. 1907-ci ildə Fətəli xan Xoyski Yelizavetpol quberniyasından II Dövlət Dumasına deputat seçilir və Dumanın müsəlman fraksiyasına daxil olur. Dumadakı fəaliyyətində xüsusilə aqrar məsələ və onun həlli yolları haqqında fikirləri böyük əhəmiyyətə malik olmuşdu. Fətəli xan öz çıxış və təkliflərində çarizmin aqrar məsələnin həllində də müstəmləkəçilik siyasəti yeritməsini pisləyir və göstərirdi ki, bu məsələdə yerli xalqların hüquqlarının bundan sonra da tapdalanmasına heç bir vəchlə yol vermək olmaz və çarizmin köçürmə siyasəti torpaq məsələsi ədalətli həllini tapana qədər dayandırılmalıdır.

1996-cı il yanvarın 6-da "Azərbaycan" qəzetində Dilarə Seyidzadə və Asif Rüstəmlinin dərc etdirdikləri "Vətənə, xalqa sədaqət rəmzi" adlı məqalədə göstərilir ki, F.Xoyski deputat səlahiyyətlərindən istifadə edərək həmkarları X.Xasməmmədov və M.Mahmudovla birlikdə Rusiyanın Müdafiə Nazirinə sorğu göndərmiş, hərbi səhra məhkəməsinin ölüm hökmü çıxardığı qafqazlı hərbçilərin əfv olunmasını xahiş etmişdi. Xoyski eyni zamanda mayın 18-də 173 deputatın imzası ilə milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunması haqqında Dövlət Dumasına layihə təqdim etmişdir. Yalnız 1907-ci il iyunun 3-də Dövlət Dumasının qovulması həmin layihənin müzakirəsinə imkan verməmişdir. Bir sözlə, F.Xoyski xalqının mənafeyi ilə bağlı bütün məsələlər ətrafında öz fikrini bildirmək üçün Duma tribunasından məharətlə istifadə etmişdir. Görünür, bu sahədə əldə edilən təcrübə F.Xoyskinin sonrakı siyasi fəaliyyətində də silinməz izlər buraxmışdır. O, 1908-ci ildən 1917-ci ilin əvvəllərinə kimi əvvəlcə Gəncə, sonra isə Bakı dairə məhkəmələrində andlı müvəkkil

Tahir Süleyman İraq Respublikasının Prezidenti ilə görüşdü

İraq Respublikasının Prezidenti cənab Bərhəm Salehin dəvəti ilə, "Azərbaycan Kürdləri" İctimai birliyinin sədri və "Diplomat" qəzetinin baş redaktoru olaraq,



Bağdad səfərimiz haqqında:

- Oktyabr ayının ortalarında Süleymaniyyə şəhərindən tanımadığım yazıçı Mahmud Sənqavi telefonla zəng edərək qeyd etdi ki, noyabr ayının əvvəllərində bir neçə ziyalı ilə Bakıya gəlmək istəyirik. Məqsədimiz Azərbaycanda yaşayan kürdlərlə, azərbaycan parlamenti və ziyalılarla görüşməkdir.

- Bildirdim ki, Azərbaycan sakit, sabit və demokratik bir ölkədir istədiyiniz zaman gələ bilərsiniz. Onsuzda hər həftə Ərbildən, Duhokdan, Kərkükdən, Süleymaniyyədən yüzlərlə turist qonaq gəlir gəzirlər qayıdırlar, sizdə onlar kimi gələ bilərsiniz, gəlişinizə heç bir maneə ola bilməz.

Noyabırın ikisində gecə saat 5 radələrində mənə mesaj gəldi ki, bəs biz üç nəfərdən ibarət bir heyyətlə gəlmişik, ikimizin sənədi qaydasındadır, lakin bizi Azərbaycana gətirən Mahmud Sənqavi Qarabağa giriş çıxış etdiyinə görə saxlanılıb.

-Səhər Heydər Əliyev adına hava limanına gedərək qonaqlar haqqında maraqlandım, aidiyyatı rəsmlər bildirdilər ki, bu adam Ermənistana ordan da qanunsuz Azərbaycan ərazisi olan Qarabağa giriş-çıxış etdiyi üçün geri qaytarılacaqdır. Bu məsələlərə bir başa cənab Prezident nəzarət edir.

Dedim ki, əgər lazım bilirsinizsə, ehtiyac varsa İraqın indiki Prezidenti ilə bir başa əlaqəmiz var, xahiş edərik ölkəmizin çox hörmətli prezidenti cənab İlham Əliyevlə əlaqə saxlasın. Bu arada İraqın Azərbaycandakı konsulu cənab Səgvan Botani də gəldi və məsləhət oldu Mahmud Səngavi bu səfər qayıtsın, başqa zaman gələr.

-Mahmud Səngavi kimdir? "O, ilk öncə Kürdüstan bölgəsində tanınmış yazıçıdır, ömrü boyu Kürdüstanı qoruyan Peşmərgə-fədai olub, KYP-nın siyasi bürosunun üzvüdür və Gərmiyan bölgəsinin Peşmərgə güclərinin rəhbəridir".

Mən Mahmud Səngavidən nə üçün Qarabağa getməsini soruşdum. O, bildirdi ki, biz ermənilərin Azərbaycan ərazilərinin işğal etməsindən, Xocalı qətliyamı haqqında azdan çoxdan məlumatımız var. Lakin Avropanın bir sıra ölkələrində eləcədə İraqda bir sıra mətbuat orqanları yazırlar ki, guya ermənilər Qarabağda kürd xalqına muxtariyyat veriblər, kürdlər orda sərbəst yaşayırlar. Məndə bir yazıçı kimi deyilən Kürdüstan Muxtariyyatına getmək məqsədi ilə Qarabağa getdim. Kaş getməyəydim, çünki boşaldılmış xaraba kənd və qəsəbələrdən başqa bir mənzərə rastıma gəlmədi. Hər kənddə iki, üç erməni ailəsi gördüm. Onlardan orda yaranan Kürdüstan Muxtariyyatını, orda yaşayan kürdləri soruşdum. Rişxəndlə üzümə gülərək dedilər yəqin sən yuxu görmüsən nə kürd, nə Kürdüstan onlar bu kəndlərdən qaçıb gediblər Azərbaycana. Mən kor peşman geri qayıtdım və bu olaylar haqqında yazılar yazdım, mətbuatda çıxışlar etdim və düşündüm Azərbaycana gələrək azərbaycanlı, kürd qaçqınlarla görüşüm və İraq xalqına Qarabağ həqiqətlərini çatdıram, çünki bizdə uzun illərdir siz yaşadığınız faciəvi haqsızlıqları yaşamaqdayıq.

Mahmud Səngavi qayıdarkən bildirdi ki, beş nəfər hazırlaşın sizi İraq Prezidentinin administrasiyası adından İraqa dəvət edəcəyik və prezident cənab Bərhəm Salehlə şəxsən görüşəcəksiniz.

Gözlənilən dəvətnamə gəldi, on nəfər heyyətdən ibarət



deputat, jurnalist, yazıçı və şair dəvət edirdilər. Çox təəssüflər olsun təklif etdiyim insanlar ehtiyat edərək Bağdad səfərindən imtina edirdilər. Sonda qəzetimizin əməkdaşlarından biri ilə səfərə gedəsi olduq. Noyabırın 29-unda təyyarə ilə Bakıdan Ərbilə uçduq, orda bizi gözləyən maşınla Süleymaniyyə şəhərinə getdik. Axşamüstü şəhərə çatdıq və əvvəlcədən nəzərdə tutulan mehmanxanada yerləşdik. İki gün Süleymaniyyə şəhərində bir sıra dövlət xadimləri ilə görüşlər keçirtdik. Dekabırın 1-ində xüsusi təyyarə ilə Bağdada getdik, dekabırın 2-sində günorta saat 2 radələrində bizi prezident iqamətgahına apardılar və gözlədiyimiz görüş baş tutdu.

Prezident Bərhəm Saleh qonaq otagının qapısında bizi çox səmimi qarşıladı və xoş gəlmisiniz deyək bizim qolumuzdan tutaraq otağa dəvət etdi. Bizimlə gedən heyyət əyləşdikdən sonra bir daha bizə xoş gəldiyimizi bildirdi. Məndə öz növbəmizdə, bizi dəvət etdiyi üçün cənab prezidentə öz təşəkkürümü bildirdim və yeni İraq Respublikasının Prezidenti seçildiyi üçün təbrik edərək bu məsuliyyətli işdə uğurlar arzuladım.

Söhbət əsnasında cənab Bərhəm Saleh bildirdi ki, mənim səmimi salamımı Azərbaycan Prezidenti çox hörmətli cənab İlham Heyder oğlu Əliyevə çatdırasınız, cənab İlham Əliyevə qarşı böyük hörmətim və rəğbətim var, güman edirəm iki qardaş ölkələr arasında mədəni, iqtisadi, siyasi əlaqələr yaranacaqdır. Çünki burda ərəblərlə, kürdlərlə, asurilərlə, kıldanilərlə yanaşı türkmanlar da yaşayır hansıki onlar özlərini azərbaycanlı hesab edirlər və sizdə tarixən azəri türkləri ilə azəri kürdləri qaynayıb qarışdığı kimi, burdada türkmanlarla kürdlər qaynayıb qarışıblar. Uzun illərdən sonra artıq Azərbaycanın səfirliyi də Bağdadda fəaliyyət göstərir. Arzu edərdim ki, Ərbildə də, Süleymaniyyədə də Azərbaycan konsulluğu açılsın. Çünki 80-dən artıq ölkələrin konsulluqları Kürdüstan Bölgəsində fəaliyyət göstərir. Eyni ilə Türkiyədə və bir sıra başqa ölkələrdə olduğu kimi Azərbaycanda da Kürdüstan Bölgəsinin nümayəndəliyi açılsa mədəni, siyasi, iqtisadi əlaqələrimiz yaranar və möhkəmlənər.

Görüş zamanı bildirdim ki, Azərbaycan Respublikası 30 ilə yaxındır ki, mənfur qonşumuz Ermənistanla müharibə edir və yeddi rayon, Qarabağ işğal altındadır. İyirmi Yanvar, Xocalı kimi faciələr yaşadıq. Dörd minə qədər mülki əhalimiz ermənilərin əlində əsirlikdədir. Ermənilərin ucbatından milyon yarım xalqımız doğma yurd-yuvalarından zorla çıxardılaraq qaçqın və köçkün kimi Azərbaycana yerləşdiriliblər . Bütün bunlara baxmayaraq ölkəmizin çox hörmətli Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti sayəsində çoxmillətli Azərbaycan Respublikası çox sakit, sabit, əmin amandır və MDB ölkələri arasında inkişaf etmiş bir ölkə kimi tanınır.

Qeyd etdim ki, biz yaşadığımız faciələri sizdə yaşamısınız. Ona görə də, siz də qardaş ölkə olaraq, haqqın, ədalətin tərəfdarı olaraq Azərbaycanın tərəfini tutan ölkələr sırasında Ermənistanın haqsızlığına qarşı münasibətinizi bildirməlisiniz. Kürd xalqının nümayəndəsi kimi, bir ölkənin prezidenti olaraq, bu gün minlərlə azəri kürdünün, azəri türkünün qız-gəlini ermənilərin əsirliyindədir. Dörd ildir ki, iki mülki həmvətəndaşımız Kəlbəcərdə olan ata-babalarının qəbirlərini ziyarətə gedən Dilqəm Əsgərov və Şahbaz Quliyev həps olunaraq olmazın işgəncələrinə məruz qalıblar. Onların və işğal olunmuş ərazilərin qaytarılmasına siz də öz növbənizdə cəht edəsiniz, münasibət bildirsəniz hər halda müsbət təsiri olar. Çünki siz İraq Respublikasında, Kürdüstan bölgəsində ermənilərə hər cür şərait yaratmısınız.

Prezident Bərhəm Saleh öz növbəsində bildirdi ki, illərdir ki, siz yaşadığınız faciələri İraqda yaşayan xalqlar yaşayıb və mən sizi gözəl başa düşürəm. Öz növbəmdə bizimdə əlimizdən nə gəlirsə əsirgəməyəcəyik.

Sonda qeyd etdi ki, Novruz bayramı ərəfəsində Azərbaycandan 10-nəfər parlamentər, jurnalist, yazıçı və şair dəvət olunacaqsınız .

Məndə öz növbəmdə bizi dəvət edib səmimi qarşıladığına görə, Bərhəm Saleh cənablarına təsəkkürümü bildirdim və arzu etdim ki, iki qardaş ölkələr arasında əlaqələr yaranar və bir gün belə bir görüş Azərbaycanda baş tutar.

SEROK KOMARÊ ÎRAQÊ BRÊZ BERHEM SALIH PÊŞWAZÎYA SERNIVÎSARÊ ROJNAMA``Dîplomata Kurd`` Tahir Silêman û hevalên wî kir

-Rojekî ji Kurdistanê, ji bajarê Silêmanîyê têlêfonek minra hat. Xortekî cîwan bi nabê Dukan miva diaxifî.

-``Kekê Tahir min têlêfona te ji hevala hildaye em bi serkarîya Mehmud Sengawî çend kes hes dikin bêne Azerbaycan, Baku zîyaret bikin û der bare kurdên Azerbaycanê agahî hildin.``

Min bersîv da û got: Ser sera werên, kîngê bên wusa bizanibin mala brayêwe li Baku heye keremkin , ez xizmeta wedame.

-Mehmud Sengawî kîye?

Mehmud Sengawî xelkê Başûrî Kurdistanê, bajarê Silêmanî nehîya Germîyanêye. Hemu jîyana xwe buye Pêşmergê Kurdistanê, çend cara wextê şêr brîndar buye, rêvebirê Pêşmergehên Germîyane , endamê Mekteba Sîyasîyê YNK-ê ye û nivîskare , çend pirtukên wî ronahî dîtîye.

02-11-2018-dê salê şev têlêfon hat wekî kekê Mehmud Sengawî hevalên xweva hatine matara Bakuyêne. Miqabin kekê Mehmud Sengawî çûye Qerebaxê û mora Qerebaxê li pasportê wî lêdane, lema xadîkirine û pirsîyar dikin bo çi çuye Qerebaxê?

Ez siba hatim matarê û xebatkarên asayîşa balafirxanê û polîsanva hevdîtin kir û konsûlê Îraqê yê Azerbaycanê kekê Segvanjî hat û me xeberdan kir wekî kekê Mehmud berdin. Asayîşa Azerbaycanê got tenê serok komarê Azerbaycanê dikare desturê bide.

Me got, pêwîstî hebe em dikarin serok komarê Îraqê brêz Cenabî Berhem Salihra hîvî bikin ew têlê bike serokê komarê Azerbaycanê brez cenabî Îlham Elîyêv wekî kekê Mehmud berdin.

Lê kekê Mehmud qaîl nebu, nehîşt û got, emê wextekî din bêne Bakû zehmetî nedine tu kesî.

-Min pirs kir: `` Kekê Mehmud xêre tu çûyîy Qerebaxê?``

- Kekê Mehmud bersîv da û got:

-`` Mera digotin li Qerebaxê Kurdistana Sor heye, wura Otonomîya Kurda 1994-salê hatîye damezirandinê. Min xwast çawa rewşenbîrekî kurda wekî herim wan kurdênme zîyaret bikim û binêhêrim rewşa wan çawane? Der bare kurdên Kurdistana Sor pirtukekî binivîsînim û agahî bidime gellê kurdê Başûr wekî ewjî agahdarbin.

Lê ez çume Qerebaxê çi kurd, çi Kurdistan min kurdek li wur nedît, xêncî gundên xereve û xalî. Min pirs kir lê kanî Otonomîya Kurdistanê wekî Wekîlê Misto dinivîse min ava kir? Gotin, otonomîya çi ? Kurdê çi kurd hemu bi dagirkirina ermenîya Qerebaxê hemû revîne çûne Azerbaycanê. Ez wê nêtê hatime Azerbaycanê wekî bizanibim rewşa kurdên Qerebaxê çi lê hatîye, rewşa wan çawane? Lê vê care nebu careke din emê şandeke deh kesan bêne nava kurdên Azerbaycanê``

-Ez Mehmud Sengawî deh kesên parlamênter, rojnamevan û rewşenbîr dewatî Îraqê, Kurdistanê dikim û emê amedakarîya hev dîtina bi Serokê Komara Îraqê, birêz cenabî Berhem Salihva bêk bînin.

28-meha 11-da 2018-salê bi harîkarîya kekê Segvan, konsula Îraqê vîzame amade bû û bilêtên me hat qutkirin û em 29-11-2018-a ji balafirxana Bakuyê firîne Hewlêrê. Kekê Dukan û Enver benda mebûn. Em berêvarê gêhîştine bajarê Silêmanî li mêvanxanê cîwar bun. Sivetirê kekê Mehmud Sengawî, Doktor Taha Berwarî û hine hevalava em çûne ofîa kekê Doktor Taha Berwarî . Kekê Taha mêvanîke qiran da me û me bona çuna Bexdayê goftu go kir wekî 02-12-2018- sale em herin hev dîtina serokê Komara Îraqê brêz cenabî Berhem Salih bikin.

01-12- 2018-ê sale em bi frokekî taybet ji Silêmanî çune Bexda mêvanxanê cîwar bun sivetirê 02-12-2018-salê nîvro çune îqama Serokatîyê. Pey demekî kurt serokê komara Îraqê cenabî Berhem Salih ber derge em bi germî û dil pêşwazî kir em dane runiştandinê xêr hatin kirinê şunda xwe runişt.

Pirsîyara der barê kurdên Azerbaycanê , hurmet u rêzê kekê cenabî Berhem, der bare serokê Azerbaycanê Îlham Elîyêv û pêwîstîya helaqetîya navbera dewleta Îraqê û Azerbaycanê peywendîyên aborî, çandî, sîyasî pêşbixin û bona despêka helaqetîyê 10-kes ji Azerbaycanê dewatî Îraqê kir.

Min ji serokê Îraqê cenabî Berhem Salih çend hîvîdarî kir,

1. Wextê navbera şerê Azerbaycanê û Ermenîstanê nêzîkê 3000-kurd û azerî jin –zarok , keç dîl ketine destê ermenîyan . Hun dikarin peywendîyê serok dewleta Ermenîstanêva çê bikin wekî wan dîla rizgar bikin , bînin Îraqê paşê derbasî Azerbaycanê bikin.

2. Du kurdênme ji Kelbecerê Dîlqem Eskerov û Şahbaz Qulîyev çune ser merzelên kal û bavên xwe ermenî ew girtine, eva 4-salin girtîgehêdane.

3. Bona kurdên Azerbaycanê ``Maleke Kurda`` bê kirrîn wekî gellên me çanda xwe bide jîyandin.

Serokê hêja cenabê Berhem Salih got wekî serok komarê Ermenêstanê ew dewat kirîye Ermenîstanê. Hun navên wan mera bigîhînin emê wê pirsê serokê Ermenistanêra goftû go bikin.

Em jî gumanin serokê Komara Îraqê brêz cenabî Berhem Salih ser van mijara karekî erênî derîne hole.

Em ji nabê `` Yektêya civata ``Kurdên Azerbaycanê`` û rojnama ``Dîplomata Kurd`` spasîya xwe dikin kekê Mehmud Sengavî, wekî harîkar bu bo hevdîtina Serok Komarê Îraqê cenabî Berhem Salih.

Amade kir: Tahir Silêman serokê Yektîya Civata `` Kurdên Azerbaycanê`` û sernivîsarê rojnama ``Dîplomata Kurd``

Zəngəzurun Hacısamlı camaatı

XVIII yüzilin ikinci yarısında Qaraçorlu mahalında bir neçə tayfa icması və kənd camaatı cəmlənmişdi. Ən böyük icmalardan biri Hacısamlı camaatı idi.

Camaat öz adını Hacı Sam Şadılıdan alıb. Bəzi qaynaqlara görə, Hacı Sam Xorasanda ömür-gün sürüb. Hacı Samın Hüsən adlı oğlu vardı. Hüsən Xorasanda, Məşhəd dövrəsonra Qaraçənli tayfası bu yurdda məskunlaşmışdı. Qaraçənlilərin ilk düşərgəsi Bazardüzü idi.

Hacısamlı camaatı Qarabağ xanlığının siyasi yaşamında mühüm rol oynamışdı. Rus-Iran savaşlarında fəal iştirak etmişdi. Gah ruslara, gah da iranlılara kömək etmişdi. Hacısamlıların Qacar ordusuna köməyi haqqında tarixçi Mirzə Yusif Qarabağı

rində dünyaya gəlmişdi. Heyvandarlıqla məşğul idi. Müqəddəs Məkkəyi-Mükərrəmi ziyarət etmişdi. Hacı Hüsənin Şirin bəy adlı oğlu vardı. Şirin bəy Məşhəd civarında dünyaya göz açmışdı. Yekəlib, yetman igid olandan sonra, tayfa-toluğunu (10 ailədən ibarət Babadünlü tayfasını) başına yığıb, Qarabağa üz tutmuşdu. Ilk dəfə Ərdəşəvə və Vağazin torpaqlarında binələmişdi. Zorkeşişdə məskunlaşan qeyri-müsəlmanlar Şirin bəyin tayfasına korluq vermiş, malheyvanını otlağa buraxmamışdı.

Yaxşı, Sımko heç bir səbəbi olmadan nə məqsədlə Mar Şəmunu öldürdü? Bu haqda müxtəlif fikirlər var. Bəzi tədqiqatçılar Sımkonun bu hərəkətini böyük səhv olaraq qiymətləndirdilər. Ancaq bir qism sənədlərə görə Sımko Rusiya və İngiltərənin dəstəyi ilə Mar Şəmunun belə böyük bir qüvvə ilə Kürdüstanın bu bölgəsində dövlət quracağına inanmışdır. Xüsusilə M.Şəmunun öldürülməsindən sonra liderliyə gətirilən Petros, Lozan konfransında Kürdüstanda assurilər üçün bir yerin təyin edilməsini istəyirdilər.Tipik Fələstində yəhudilərə yaradıldığı İsrail dövləti kimi. Və ya Leninlə Atatürkün razılaşması ilə Araz boyu qədim Azərbaycan torpaqlarının İqdır, Ərzurum, Ağrı, Amasiya, Vana qədər yəni Araz Azərbaycan Cumhuriyyətinin bir hissəsinin Türkiyəyə verilməsinə qarşılıq Türkiyədən qovulmuş və qədim Azərbaycan torpaqlarında yeni qondarma Ermənistan respublikasının yaranması üçün şərait yaratdi və Musavat hökumətini bolşeviklərə təslim etdi.

İranın adlı-sanlı yazarı və şairi Məliküm-Şüarrayi Bahar "Siyasal Partilərin qısa tarixi" adlı kitabında belə yazır:

"Lozan" konfransında erməni Petros Londonun dəstəyi ilə assur və kəldanilərin ən köhnə millətlərindən olduqları, yurdlarının isə Mosuldan Osmanlı Kürdüstanından və İran Kürdüstanından Urmiyaya qədər olan ərazini onlara verilməsini, ayrıca özləri üçün bəlirli bir mərkəz və iqamətgahın verilməsini tələb edirdilər. Bununla birlikdə assurların İngiltərə və Rusiya üçün müxtəlif xidmətlər etdiklərinə və edəcəklərinə söz verirdilər. Türklərin yürütdükləri çabaların Mar Şamunun öldürülməsində üzaq bir fikir yoxdur. Hər necə olursa-olsun Sımkonun bu planı İngiltərə və Rusiyanın Kürdüstanda və Cənubi Azərbaycanda bir assur - erməni dövləti qurmaq planını pozmuşdur. Cilo məsələsinin yatırılmasından sonra 1919 -cu ilin yazında Sımko bölgədəki gücühü artırmaq məqsədilə planlarını hazırladı. Təbriz Urmiya yolunu öz himayəsi altına aldı. 1919-cu ilin sonlarında Sipahandari Azam Azərbaycana vali təyin edildi. Sipahsalar Ziyaud Devlə adında birini Urmiya hakimi olaraq göndərilmişdir. O, Sımkoya qarşı dirənməyə və öz müdafiəsini əldə etməyə çalışdı.

Araşdırdı: Tahir SÜLEYMAN

1947-ci il. Mustafa Bərzani və onun kürd peşmərgələri Azərbaycanda

1946-cı ilin dekabrında İranda Mehabad respublikası süqut edir. İranın baş nazir Qəvame-Səltənə ilə Mehabadın lideri Qazı Məhəmməd arasında avqustda Tehranda bağlanmış razılaşma pozulur və şah qoşunları həm Təbrizi, həm də Mehabadı ələ keçirir. 1947-ci ilin 30 martında Qazı Məhəmməd, qardaşı Sədr Qazı və Mehabad respublikasının müdafiə naziri Seyf Qazı dar ağacından asılır.

Şah qoşunlarına qarşı müqaviməti yalnız respublikanın Baş komandanı, general Mustafa Bərzani davam etdirir. 44 yaşlı Bərzani sonunda qüvvələr nisbətinin bərabər olmadığını və məğlubiyyətin qaçılmazlığını anlayaraq İranı tərk etmək və SSRİ-yə keçmək qərarına gəlir. 1947-ci ilin iyununda o, silahlı dəstəsi ilə Naxçıvanla sərhədi keçərək Azərbaycan ərazisinə, Culfaya daxil olur. Beləliklə, Bərzaninin və tərəfdarlarının 12 il davam edən SSRİ dövrü başlayır. Həmin dövrün bir neçə ili Azərbaycan SSR-də keçir.

* * *

SSRİ ərazisində dəfələrlə Bərzani ilə ünsiyyətdə olmuş əfsanəvi Sovet əks-kəşfiyyatçısı Pavel Sudoplatov (1907-1996) özünün 1990-cı illərdə işıq üzü görən "Xüsusi əməliyyatlar" adlı memuarlarında xatırlayır: "Bərzani SSRİ-yə gəlməzdən bir müddət əvvəl İrandakı kürd üsyançıların rəhbərləri şahın qurduğu tələyə düşürlər: onlar danışıqlar üçün Tehrana çağırılır, burada həbs edilir və edam olunurlar. Yalnız Bərzani həmin qismətdən qaça

bilir. Şah onu danışıqlara dəvət edəndə, Bərzani cavab verir ki, yalnız bir halda Tehrana gələ bilər - əgər şah özünün ailəsini girov kimi Bərzaninin mənzl-qərargahına göndərərsə. Şahla ilkin danışıqlar davam edən müddətdə isə o, qüvvələrinin böyük hissəsini İranın şimal rayonlarına, SSRİ ilə sərhədin yaxınlığına yerləşdirir".

1947-ci ilin iyununda SSRİ Daxili işlər nazirinin müavini Vasili Ryasnoy Stalinə məruzə edir: "Bu ilin 15 iyununda Naxçıvan 41-ci sərhəd dəstəsinin hərbi müşahidəsinə görə, Sovet-İran sərhədindin cənub-qərbində İran təyyarələri peyda olaraq Ağgül gölündən (İran) cənuba doğru uçuşlar keçirib. Onlar bizim ərazilərimizə 200 metrə qədər məsafədə daxil olublar. Elə həmin dövrdə bir neçə bomba partlayışı da qeydə alınıb".

Qonşuların qeyri-adi hərbi fəallığının səbəbləri Moskva üçün sirr deyildi. Vasili Ryasnoyun həmin məruzəsində deyilirdi: "Əldə olunmuş bilgilərə gör, İran Kürdüstanında, Uşnu rayonunda (Urmiyə gölündən cənub-qərbə) 1947-ci ilin martından başlayaraq İran hökumət qoşunları ilə İraqdakı bərzan tayfasının tərksilah olmaqdan imtina etmiş üzvləri arasında hərbi əməliyyatlar başlayıb. Kürd bərzan tayfası 1945-ci ildə İraqdan köçərək İranda məskunlaşıb".

Beləliklə, əvvəl İraqda, sonra isə İranda məğlubiyyətə düçar olmuş molla Mustafa Bərzani kor dalana sıxışdırıldığını yaxşı anlayaraq yeganə qurtuluş yolunu Azərbaycan ərazisinə keçməkdə görürdü. Onun hərbi birləşmələri Maku yaxınlığında şah qoşunlarını məğlub edərək SSRİ sərhədinə doğru hərəkət edirdilər.

Pavel Sudoplatov memuarlarında sərhəddə toplaşmış Bərzani tərəfdarlarının sayı barədə yazır: "Sərhədi keçən Bərzani tərəfdarlarının sayı 2 minə yaxın döyüşçüdən ibarət idi, elə bir o qədər də onların ailə üzvləri vardı". Ancaq digər Sovet əks-kəşfiyyatçısı - Vadim Udilov isə özünün "SSRİ-də terror aktları və təxribatlar" kitabında onların sayının 500 nəfər olduğunu yazır.

İyunun 15-də İran təyyarələrinin bombardmanı altında Araz çayı boyu sərhədə ilk kürd dəstəsi yaxınlaşır. Dəstədən 2 nəfər Sovet sahilinə keçərək Mustafa Bərzaninin Stalinə məktubunu sərhəd komissarına təqdim edir. Ancaq Moskvadan cavab gecikir. 16 iyunda səhər tezdən İran sərhədində öz şəxsi mühafizəçilərinin əhatəsində Bərzani də peyda olur və dəstəsinin SSRİ-yə üzüb keçməsinə icazə üçün danışıqlar aparmaq istəyir. Ancaq sərhədçilərə yalnız bir tapşırıq verilmişdi: diskussiyaya girməmək, sərhədi pozan kürdləri isə saxlamaq və tərksilah etmək.

İyunun 17-də kürdlərin vəziyyəti daha da çarəsizləşir və Araz çayı ilə əvvəlcə yaralılar və taqətdən düşən bir qrup silahlı keçərək Naxçıvan ərazisinə daxil olur. Bu 160 nəfərdən 40 odlu silah götürülür. Çayın o biri sahilindən müşahidə aparan Bərzani öz tərəfdarlarının sərhədçilər tərəfindən atəşə tutulmadığını gördükdə, iyunun 18-də dəstəsinin qalan üzvlərinin də çayı keçməsinə göstəriş verir. Bu vaxt kürdlər silahlarının bir hissəsini İran tərəfdəki qamışlıqlarda gizlədərək sərhədi keçirlər. İyunun 19-da SSRİ Daxili işlər nazirliyi əməliyyatın

nəticələrinə dair Stalinə məlumat göndərir: "İyunun 18-i axşama qədər Molla Mustafa Bərzaninin başçılığı altında kürd dəstəsi Sovet ərazisinə keçib. Onların ümumi sayı 499 nəfərdir. Kürdlərdən götürülüb:

303 tüfəng, 5 avtomat, 55 tapança, 54 qumbara, 13 binokl, 13 min patron. Saxlanılmış kürdlər Naxçıvan şəhərinə aparılıb və burada sərhədçilərin mühafizəsi altındadırlar".

İran sərhəd komissarı tezliklə Sovet həmkarına müraciət yollayaraq Bərzani və tərəfdarlarının təhvil verilməsini təklif edir. Müraciətdə deyilirdi: "Dostluq münasibətlərimizin pozulmaması naminə xahiş edirik ki, 400 əclafı geri qaytarasız". Ancaq Sovet tərəfi bu xahişə məhəl qoymur. Bununla da, Bərzaninin və onun kürdlərinin əvvəlcə çox qısa müddət çəkəcəyi fərz edilən, ancaq 12 ilə qədər davam edən "Sovet dövrü" başlayır.

* * *

Bir müddət Culfada saxlandıqdan sonra, kürdlər Abşerond yerləşdirilirlər. Bərzani isə qısa müddət Şuşada qalır, sonra isə Bakıya köçürülür. Onun Sovet rəhbərliyinə "sosializm uğrunda mübarizəyə hazır olduğuna" dair söylədiyi nitqlər isə istər Miocəfər Bağırovda, istərsə də Moskvadan gələn emissarlarda xəfif ironiya doğurur. Sovet tərəfində əsas təəccüb yaradan cəhətlərdən biri kürdlərdə çox güclü inkişaf etmiş tayfa-nəsil münasibətləri idi. Onlar Bərzanini az qala ilahiləşdirirdilər və bu cür geridə qalmış ictimai münasibətlərlə sosializm quruculuğuna dair vədlər qətiyyən bir-birinə uyuşmurdu.

Odur ki, Sovet rəhbərliyi bu arxaik münasibətləri heç olmasa yumşaltmaq, kürdlərin cəmiyyətə assimilyasiyasına nail olmaq üçün hətta kürdləri Bərzanidən bacardıqca təcrid də edirdi. Üstəlik, kürdlərin arasında kommunist təbliğatı aparmaq, yaxud oraya öz adamlarını salmaq cəhdləri də uğur gətirmirdi - kürdlər yadlar üçün qapalı idilər. Bununla bağlı, Pavel Sudoplatov bir epizodu da xatırlayır - artıq Daşkənddə olanda onların Bərzaninin əhatəsinə informator yerləşdirmək cəhdləri həmin şəxsin izsiz-tozsuz yoxa çıxması ilə nəticələnir.

* * *

1947-ci ilin payızında Sudoplatov Bərzani ilə görüşüb danışmaq üçün nazir Abakumov tərəfindən Bakıya göndərilir. O, memuarlarında bu barədə yazır:

"Mən Bərzaniyə TASS-ın (Sovet İttifaqı Teleqraf Agentliyi) baş direktorunun muavini və Sovet hökumətinin nümayəndəsi kimi təqdim olundum. əyatımda ilk dəfə idi ki, əsl feodal ilə rastlaşırdım. Bununla belə, Bərzani məndə fərasətli siyasətçi və təcrübəli hərbi rəhbər təsiri yaratdı. O dedi ki, son yüz ildə kürdlər farslara, iraqlılara, türklərə və ingilislərə qarşı 80 dəfə üsyan qaldırıb və onların 60-ından çoxunda kömək üçün Rusiyaya müraciət edərək adətən yardım alıblar. Cavab olaraq mən elan etdim ki, Sovet tərəfi Bərzaninin və onun zabitlərinin bizim hərbi məktəb və akademiyalarımızda xüsusi təlim keçməsinə razıdır. Həm də ona bildirdim ki, kürdlərin Azərbaycandan Orta Asiyaya köçürülməsi müvəqqəti xarakter daşıyır və onların Kürdüstana qayıtmaqları üçün şərait yetişənə qədər davam edəcək..."

Sudoplatov xatirələrində daha bir maraqlı məqama toxunur: "Abakumov mənə Bərzani ilə söhbətlərin nəticələrini, habelə Stalinin kürdlərin hərbi tədris müəssisələrimizdə təhsil almalarına razılıq verdiyini Mircəfər Bağırovla bölüşməyi qadağan etmişdi. Məsələ ondadır ki, Bağırov Bərzanidən və onun adamlarından İran Azərbaycanında vəziyyəti destabilizasiya etmək üçün yararlanmaq niyyətindəydi. Ancaq Moskvada fərz edirdilər ki, Bərzani İranda yox, məhz İraqda daha lazımlı ola bilər - oradakı ingilispərəst rejimi devirmək üçün..."

* * *

1947-ci ilin oktyabrında Bərzani Azərbaycan kommunistlərinin rəhbəri Bağırova öz məktub-memorandumunu yollayır. O, Bağırovdan aşağıdakı məsələlərə münasibət bildirməsini xahiş edir:

"1. Tərəfdarlarım ilə görüşməyə icazə verilməsi.

2. Onların təhsili üçün şəraitin yaradılması.

3. Aylıq bülletenin çapının təşkil edilməsi.

4. BMT-yə kürdlərə münasibətdə yeridilən ədalətsiz siyasətlə bağlı şikayətin göndərilməsi.

5. Stalinlə görüşün təşkil olunması".

Noyabrın 15-də o, Bağırova daha bir məktub yollayır. Bərzani məktubunda Bağırovu "Şərq xalqlarının rəhbəri" adlandırır. "Biz taleyimizi Sovet dövləti ilə bağlamağı vacib saydıq, çünki, bu hakimiyyət azadlığın dayağı və xalqların ümididir", - Bərzani yazır. Həmin məktubunda o, "çox məşəqqətli, incidlilmiş və təhqir olunmuş vəziyyətə düşən azadlıq hərəkatı döyüşçülərinə diqqət ayırmasını" xahiş edir.

Məmməd Süleymanov

1947-ci il. Bağırov və Bərzani. Kürd Peşmərgələrinin Bakıdan köçürülməsi

Kürd xalqının əfsanəvi lideri, general Molla Mustafa Bərzaninin ölümündən 39 il ötdü

Azərbaycanda olduğu dövrdə Mustafa Bərzaninin burada yaşayan kürdlərlə çoxsaylı görüşləri təşkil olunur, habelə o, Ermənistandakı kürdlərlə tanış olmaq üçün dəfələrlə Yerevana gedir. Onun təklifləri sayəsində Bakıda kürd yazıçı və şairlərinin əsərləri çap olunur, Yerevanda isə kürd radiosu açılır və 1937-ci ildə bağlanmış kürd dilində qəzet bərpa edilir. Həmin dövrdə Yerevan pedaqoji məktəbində kürd fakültəsi açılır, Ermənistan Dövlət nəşriyyatında ("Armqosizdat") isə kürd dilində ədəbiyyatın nəşri üzrə xüsusi komissiya yaradılır. Bu da hamısı deyil: Ermənistan Yazıçılar İttifaqının tərkibində kürd seksiyası, Ermənistan Elmlər Akademiyasında kürdşünaslıq bölməsi, Yerevan universitetində isə kürdoloji fakültə yaradılır. Azərbaycana nisbətən, Ermənistanda kürdlərlə bağlı tədbir və yeniliklərin çoxluğunu isə yəqin ki, Mircəfər Bağırovun Bərzaniyə olan nisbətən inamsız münasibəti ilə əlaqələndirmək olar.

Bərzaninin daha bir ideyası Azərbaycan ərazisində Kürd muxtar rayonunu bərpa etmək idi. Məlum olduğu kimi, vaxtilə Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl və Şuşa rayonlarının ərazisində "Qırmızı Kürdüstan" mövcud idi. Sonralar ləğv olunan həmin strukturun yenidən yaradılması ideyası istər Moskvada, istərsə də Bakıda

neqativ qarşılanır. O cümlədən, Mircəfər Bağırov həmin ideyaya böyük skepsislə yanaşırdı, Bərzaninin öz millətinin nümayəndələrinə nəzarət istəyini isə onun "öz xanlığını yaratmaq" cəhdi kimi qiymətləndirirdi. Ümumiyyətlə, kürd xalqında olan arxaik tayfa münasibətləri və sərt iyerarxiya Mircəfər Bağırovun tənqidinə səbəb olur.

Bərzaninin digər istəyi isə İraqa dönəndən sonra orada Kürdüstan dövləti yaratmaq barədə Stalini yola gətirmək idi. Sudoplatovun memuarlarından bəlli olur ki, Stalin həmin ideyaya da qol çəkmir.

***

Vadim Udilov "SSRİ-də terror aktları və təxribatlar" kitabında yazır: "Bərzani bəyan edir ki, İran hakimiyyətinə qarşı mübarizəni davam etdirmək niyyətindədir və Sovet hökumətindən onun dəstəsinə istirahət üçün bir neçə ay vaxt, silah-sursat verilməsini, hərbi təlimlər üçün şərait, sonra da İrana qayıtmaq üçün icazə verilməsini xahiş edir. İrandan təslimçi qaçışın revanşını götürmək ideyası həm Moskva, həm də Bakıda partiya rəhbərliyinin xoşuna gəlir. 1949-cu ildə DİN-in Stalinə məruzəsində bu barədə deyilir: "Mustafa Bərzaninin arzularına uyğun olaraq Azərbaycan KP(b) MK-nin katibi yoldaş Bağırov hökumətə Bərzaninin dəstəsinin Xəzər dənizi sahilindəki düşərgələrdən birində yerləşdirmək, onları ərzaq və sursatla təmin etmək, habelə şəxsi heyəti hərbi işə öyrətmək barədə təkliflər verib".

Hökumət müvafiq qərarı qəbul edir. Həmin qərara əsasən, Bərzaninin dəstəsindən 3 atıcı bölük, artilleriya batareyası, minaatıcı batareya, minaaxtaran taqım, rabitə və tank taqımları formalaşdırılır. SSRİ Silahlı qüvvələri Nazirliyindən şəxsi heyətə təlim keçmək üçün 25 zabit göndərilir.

Elə görünür ki, SSRİ Bərzaninin dəstəsindən ordu özəyi kimi istifadə etməklə miqyasca böyük olmayan müharibəyə hazırlaşır. Əks halda onun əsgərlərindən tankçı hazırlamaq nəyə gərəkdir?! Ancaq çox tezliklə bəlli olur ki, Sovet rəhbərliyi kürd xalqının planlarını qətiyyən düzgün anlamayıb: Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) Moskvaya məlumatında göstərilir ki, Bərzaninin şeyx komissarları inanclı kürdlər, həmçinin azərbaycanlılar qarşısında xütbələrlə çıxış etməklə onları heç də Sovet hakimiyyətini sevməyə çağırmırdılar. Yəni, söhbət teokratik bir iyerarxiyadan gedir, Bərzaninin Sovet quruluşu haqda söylədiyi pafoslu kəlmələr isə niyyətlərini ört-basdır etmək fəndindən başqa bir şey deyilmiş.

DİN-in Stalinə məruzəsində deyilir: "Bir müddət sonra agentura yolu ilə müəyyən edildi ki, Mustafa Bərzani siyasi savadsız şəxs olmaqla bərabər, kürd tayfalarını birləşdirərək onlardan knyazlıq qurmaq və bu knyazlığın rəhbəri olmaq niyyətindədir. O, SSRİ-də olduğu dövrə onun heç nəyə öhdəlik götürmədiyi müvəqqəti bir təzahür kimi baxır. Bu cür əhval-ruhiyyəni nəzərə alaraq yoldaş Bağırov hökumət qarşısında məsələ qaldırıb ki, kürd xalqının dəstələri Azərbaycan SSR ərazisindən çıxarılsın və bacardıqca İranla sərhəddən uzaqda yerləşdirilsin…"

Bağırovun təklifi yetərli olur. SSRİ Nazirlər Sovetinin 1948-ci il 9 avqust tarixli qərarına əsasən DİN tərəfindən Bərzaninin dəstəsinin Bakıdan çıxarılaraq Özbəkistan SSR ərazisinə, Daşkənd dəmir yolunun Verxneye-Komsomolskoe stansiyasına daşınmasına başlanılır. Bakıdan kürdlərin çıxarılması birdəfəlik aksiya kimi yox, hissə-hissə, xırda dəstələr halında icra olunur. Onlar yeni ərazidə kolxozlarda yerləşdirilir, eyni zamanda burada hərbi təlimləri keçmək üçün şərait də yaradılır. DİN-in məruzəsində qeyd olunur ki, 1948-ci ilin sonunda Mustafa Bərzanin Özbəkistan komunistlərinin başçısı Yusupovla görüşü olur və həmin görüşdə Bərzani öz dəstəsinin şəraitindən narazılığını bildirərək vəziyyətin və gələcək planların müzakirəsi üçün Stalinlə görüşü təşkil etməyi Yusupovdan xahiş edir.

Göründüyü kimi, Sovet hökuməti Bərzaninin heç də "kommunizm qurucusu" olmadığını aydınlaşdıran kimi kürdlərin Bakıdan uzaqlaşdırılmasını qərarına gəlir. Yəni, bu siyasi oyunda hər kəsin öz mənafeyi vardı, üstəlik bu mənafelər üst-üstə düşmürdü. Həmin dövrdə (ta 1950-ci illərin ortalarına qədər) kürdlər Yaxın Şərqdə SSRİ-nin yeganə müttəfiqi idi və Moskva onlardan istər İraqda, istərsə də Suriyada Qərbə qarşı yararlanmaq niyyətindəydi. Bərzani isə öz növbəsində ya İranda, ya da İraqda müstəqil Kürdüstan dövləti qurmaq üçün əlləşirdi.

***

DİN-in məruzəsindən də görünür ki, Bərzaninin dəstəsinin Azərbaycandan kənarlaşdırılmasıda maraqlı olan şəxslərdən biri məhz Bağırov idi. Kürd müəlliflər tərəfindən yazılmış "Mustafa Bərzani" bioqrafik kitabında da bu versiya vurğulanır. Kitabdan bir epizod:

"Bərzani tərəfdarları özlərinin Orta Asiyaya sürgün olunmalarını repressiya kimi qəbul edirlər və Bağırovla Bərzani arasındakı münasibətlərin pisləşməsi ilə əlaqələndirirlər. Məsələn, onlar Daşkənddə Orduxan Cəlilə belə bir əhvalat danışır: "Bağırovun ad günündə bayram süfrəsi arxasında yubilyarın yaxınları ilə bərabər "Tudə"nin MK-nin katibi Pişəvəri və general Bərzani də əyləşibmiş. Şən söhbətlər və sağlıqlardan sonra Bağırov hiss edir ki, Bərzani çox qayğılıdır və üzünü ona çevirərək soruşur: "Niyə heç nə yemirsən?" Bərzani isə cavab olaraq yoldaşları ac və yoxsul olduğu bi vaxtda SSRİ-yə əylənmək üçün gəlmədiyini söyləyir. Məhz həmin məclisdən bir qədər sonra kürdlər Bakıdan çıxarıldığından Bərzani tərəfdrları köçürülmə əməliyyatının Bağırovun onlara qarşı münasibətinin soyuması ilə bağlayırlar". Belədir, ya yox? – hökm vermək çətindir. Fakt odur ki, kürdlər Özbəkistan kolxozlarından, bir hissəsi isə Altay vilayətində yerləşdirilir. Bərzani narazılığını Stalinə yazdığı məktublarla ifadə edir. O, Stalinə 72 məktub yazır, ancaq heç bir cavab almır. Bərzani fərz edir ki, məktublar Stalinə gedib çatmır, odur ki, qonşuluqda yaşayan bir qadından Moskvaya getməyi və məktubu orada poçt qutusuna salmağı xahiş edir. Kürdlərin həmin vaxtlardakı narazılıqlarını sonralar Xruşşovla görüşündə Bərzani zarafatla bu cür ifadə edəcəkdi: "Mən 5 dövlətə qarşı vuruşmalı olmuşam – İraq, İran, Türkiyə, Azərbaycan və Özbəkistana qarşı". Bəzi kürd tarixçiləri Bağırovun Bərzaniyə qarşı intriqalar apardığını və bu işdə Beriyanın xidmətindən yararlandığını yazır. Ancaq Pavel Sudoplatovun xatirələrindən də görünür ki, Stalinin xarici siyasət sahəsində böyük ümidlər bağladığı Bərzani ilə çətin ki Beriya və Bağırov açıq qarşıdurmaya keçərdilər. Sudoplatova, görə, kürdlərin Azərbaycandan Özbəkistana köçürülməsi ideyası başdan ayağa Moskvanın ideyası idi və SSRİ-nin Yaxın Şərqə maraqlarının soyuması fonunda bu addım siyasi cəhətdən düzgün addımdı. Sudoplatov yazır: "Mən Yusupovun kabinetinə Bərzaninin başçılığı altında İrandan Azərbaycana qaçmış 3000 kürdün məskunlaşdırılması təklifi ilə gəlmişdim. Onları Qafqazda saxlamaq çox təhlükəli idi, odur ki, rəhbərlik kürdləri Özbəkistana köçürmək qərarına gəlmişdi…"

***

Kürdlərin Özbəkistan dövrü 1958-ci ilə qədər – İraqda 14 iyulda kral II Feysəlin devrilməsinə qədər davam edir. Mütləqiyyətin süqutundan sonra molla Mustafa Bərzani İraqa dönür…

Məmməd Süleymanov

Göyçədə bir kənd vardı

Slavik ƏHMƏDOV

XX əsrin əvvəllərində dünyanın müxtəlif olkələrindən qaxtakan (muhacir) ermənilərin axınınadək olan dövürdə qərbi Azərbaycanın Göyçə gölü ətrafında 50-dək azərbaycanlı, bir neçə erməni kəndi və 10- dan çox kürd kəndi vardı.Kürd kəndlərindən bəzilərinin adları belə idi: Məlikli, Alçalı, Ördəkli, Adıyaman, Gunde Gole,Gözəldərə, Horguli, Cəmbərək.. Bu kəndlərdən ikisi Göysu və Kefli (bəzən Kır da deyirdilər kürdcə daşlı,qayalı yamac deməkdir) Göyçə mahalının Basarkeçər (indi Vardenis) bölgəsində yerləşirdi. Əvvəlcədən deyək ki, bütün bu kürd kəndlərinin əhalisinin taleyi faciəli olmuşdur.

Bu yazıda yalnız Kefli kəndi və kürd sakinlərinin acı, keşməkeşli taleyindən söhbət açılır. Kefli kəndi Basarkeçərin cənub-şərqində, Basarkeçərdən Daşkənd kəndinə gedən 7 kmlik yolun sağ tərəfində, daşlı-qayalı Qırma və Seyiddağ dağlarının ətəyindəki düzənlikdə, Basarkeçərlə Daşkəndin arasında yerləşirdi. Kəndin qərbi dağlıq olduğundan heyvandarlıq və maldarlıq üçün əlverişli idi. Kəndin şərq tərəfi düzənlik idi.Yuxarıda haqqında danışılan yol və kiçik çay buradan keçirdi.Yolun sol tərəfi əkin sahələri idi. Düzənliyin yuxarısında kiçik dərə vardı. Bu dərəyə "Kürdlər dərəsi" (Nəwala kurda) deyilirdi. Dərənin sağında çox da hündür olmayan bir təpə vardı.Təpənin başı qəbiristanlıq idi. Aşağıda isə çayın üstündə su dəyirmanı vardı. Kəndin yuxarısında, dağlıq tərəfdə çökəkdə bir bulaq vardı. Bulağın axarı yox idi. Su çıxdığı yerdə qayalıqda batırdı. Bütün kənd içməli suyu buradan götürürdü. Kefli kəndi təxminən XİX əsrin ortalarından sonra, rus-türk müharibələri dövründə bina olunmuşdu. Burada yaz, yay aylarında Əyricə (Ağrıca) və Ağmağan yaylaqlarında yaylayan bıruki (pirki) kürdlər məskunlaşmışdı. Kənddə 70-dən çox ev vardı. Evlər qara bazalt daşdan tikilmişdi. Kənddə təxminən 300-350 sakini var idi.Əhali əsasən heyvandarlıq, maldarlıq və əkinçiliklə məşğul olurdu. Kənddə varlı, nüfuzlu adamlar olsa da, ağa, bəy yox idi. Kənd əhalisinin yaxınlıqdakı Daşkənd və Qoşabulaq kəndlərində yaşayan azərbaycanlılarla səmimi dostluq və qonşuluq münasibətləri vardı. Basarkeçər erməniləri ilə də münasibətlər pis deyildi.Təkcə dağın o üzündəki Qırxbulaq (sonralar Akunq) kəndinin ermənilər tez-tez Keflinin geniş otlaq və yaylaq sahələrini otarır, zəbt edir, haqsız münaqişə törədir, sakit durmurdular. Kənd camaatı ermənilərin bu haqsızlıqları qarşısında müqavimət göstərir, geri çəkilmirdilər. Ara-sıra gərginləşən, toqquşma həddinə çatan bu münaqişə uzun illər davam etdi...

-Birinci Dünya müharibəsi illərində vəziyyət get-gedə pisləşir.Gərginlik 1918-ci ildə son həddə çatır.Başqa cəbhələrdə məğlubiyyətə uğrayan daşnak ordusu Göyçə gölü hövzəsinin Kəvər, Qaranlıq və Gözəldərə bölgələrinin dinc azərbaycanlı və kürd sakinlərini doğma yerlərdən qovub çıxarır, ələ keçənləri qılıncdan keçirirlər. Heç bir günahı olmayan minlərlə qoca, qadın və uşaq öldürülür. Daşnaklar ələ keçən uşaqların bir qismini Eçmiədzinə aparıb xaç suyuna salırlar...Göyçənin bu bölgəsinin doğma sakinləri elə o vaxtdan yurdlarından perik düşürlər.

Göyçənin Basarkeçər bölgəsində də ermənilər azərbaycanlılara və kürdlərə qarşı daha dözülməz fitnə-fəsadlar törətməyə başlayırlar. Belə ki, silahlı dəstələr düzəldir, yollarda pusqu qurur, kəndlərə basqınlar edirlər. Bütün bunlara daşnak Selkov başçılıq edir. Selkovun başçılığı ilə talanlar, qırğınlar son həddə çatır. Daşnaklar topları Seyiddağ yaylağındakı Qırmızıdağ yüksəkliyinə qoyub bütün kəndləri atəşə tuturlar. Aralarında Qaraimanlı Məşədi İsa, Şişqayalı Tanrıverdi, Daşkəndli Məşədi Qasım, Hacı Rəhim, Qoşabulaqlı Söyün və digərlərinin də olduğu azərbaycanlı və kürd ağsaqqallar

Zodlu Səməndağanın evinə toplaşır, çıxış yolu axtarırlar. Ermənilərə sülh təklif olunur, lakin ermənilər buna məhəl qoymurlar. Belə olduqda tədbir görülür, qaniçən cəllad Selkov öldürülür. Lakin köməksizlik Göyçəliləri daşnak ordusu qarşısında çıxılmaz vəziyyətdə qoyur. Silah-sursat olmadığından itki çox olur. Hücuma ilk məruz qalan kəndlərdən biri də Kefli kəndi olur. Kürdlər kəndi tərk etməyə məcbur olurlar. Daşnaklar Kefli kürdlərindən də müxtəlif yerlərdə ələ keçən çoxlu adam öldürürlər. Şərif Nəbi oğlu və onun oğlu Əli, Sımo Davud Gözəldərə yaylağında, Əli Xalidin 14 nəfər ailə üzvü və qohumu Ağrıca (Əyricə) yaylağında öldürülürlər. Səfər Hami, Oze Hacı, Əme Bıro Gədəbəydə Başkənd ermənileri tərəfindən qətlə yetirilir. Gəncədə bazarda qoyun satarkən Həsən Xəmo, Sımo Həsən və Əhməd Mıho Novruz ermənilər tərəfindən öldürülür, qoyunları talan kimi aparılır. Davud Xəmo, Sımo Xəmo və Teymur Sevo (Səfər) Cəmbərəkdə başları kəsilərək qətlə yetirilirlər...(Bu, Kefli kürdlərindən öldürülənlərin yalnız bir qisminin dəqiqləşdirilmiş siyahısıdır.)

1918-ci ildə bütün Göyçə camaatı kimi Kefli kürdləri də doğma yurdlarını tərk edirlər.Onların bir qismi Göysu kürdləri ilə birlikdə Türkiyəyə gedirlər. Kürdlərin bir hissəsi isə bir vaxtlar yenidən doğma yurda qayıtmaq ümidi ilə Azərbaycana gəlirlər.Onların bir hissəsi Gədəbəydə,bir hissəsi Şəmkirin Zəyəm qəsəbəsində,bir hissəsi isə Yevlaxda sığınacaq tapır,min bir məhrumiyyətlərə düçar olurlar. Dörd il sərgərdan didərgin həyatı keçirdikdən sonra, nəhayət, 1922-ci ildə Göyçəlilərə doğma yurda qayıtmaq nəsib olur. Ancaq hamı qayıtmır. Kefli kəndinin kürdlərinin də çox az bir hissəsi, on iki ailə doğma kəndə qayıdır.Bunlar Abdulla Haminin, Həsən Səfərin, Lətif Məmmədin,Telli Məmmədin, Rza Davudun, İbrahim Səfərin, Xudeda Məhərrəmin, Pirverdi Məhərrəmin, Qasım Məhərrəmin, Bəkir Cəvonun, Qasım Nadirin və Bəkir Nadirin ailələri idi.

Kənddəki evlər, dəyirman, qəbiristanlıq dağıdılmışdı.Əhalini içməli su ilə təmin edən bulaq olan çuxur iri daşlarla,torpaqla doldurulmuşdu.Dağılmış kənd bu ailələrin əli ilə yenidən bərpa olunur, bütün ağrı-acılara baxmayaraq həyat öz axarına düşür. Ancaq bulağı bərpa etmək mümkün olmadığından içməli su problemi yaranır... Bolşeviklərlə dil tapıb hökumət idarələrinə soxulmuş daşnaklar yenə dinc durmur, minbir fitnə-fəsad törətməyə çalışırlar.Onlar Daşkənd azərbaycanlıları ilə kürdlər arasına nifaq salmağa çalışırlar. Lakin dini, imanı, inamı bir bu iki qonşu kəndin arasına nifaq sala bilmirlər.Əsl məqsəd isə tamam başqa idi. Basarkeçərə və Qırxbulağa yaxınlıq, geniş torpaq sahələri, zəhmətkeş kürdlərin firavan həyatı daşnaklara rahatlıq vermir. Əməllərinin baş tutmayacağını görən daşnaklar başqa bir hiyləyə əl atırlar. Onlar Qırxbulaq ermənilərini məişət zəminində kürdlərə qarşı ədavətə təhrik edirlər. Qırxbulaq ermənileri əvvəllər olduğu kimi, ancaq bu dəfə daha həyasızcasına gah otlaqları otarır, gah yaylaqları zəbt edir, mal-qara oğurlayır, gah da ayrılıqda dava-dalaş salır, silahla hədələyirlər. Amma nə Kefli əvvəlki Kefli idi, nə də Keflidəki kişilər.Hiyləleri baş tutur. Növbəti münaqişədən sonra kənddən üç nəfər ağsaqqalı, Həsən Səfəri, Lətif Məmmədi və Rza Davudu həbs edib Kəvər həbsxanasına salır, gizlincə öldürməyi qərara

alırlar. Bununla kürdləri qorxudub kənddən çıxarmaq istəyirlər.

Basarkeçər ermənilərindən kürdlərin mərdliyini, hünər və qeyrətini qiymətləndirən, humanistliyi, nüfuz və hörmətinə görə bölgədə sayılan Melikyan Qriş haqsızlığa dözməyib Kəvər milis rəisi Andoyan Mukel və müavini Nazaretyan Seponun yanına gedir,onlardan bu biabırçılığa son qoymağı,kürdləri azad etməyi tələb edir. Ancaq daşnaklar onun da qılığına girir, şərt qoyurlar ki, əgər Kefli camaatı Göyçənin istədikləri başqa bir yerinə köçməyə razı olsalar, həbs etdiklərini azad edərlər.Ayrı çarə görməyən Həsən Səfər, Lətif Məmməd və Rza Davud başqa yerə köçmək tələbi ilə razılaşırlar...

Kefli camaatının narahat günləri yenidən başlayır.Kəndin ağsaqqalları sərasər üç ay bütün Göyçəni gəzir,yeni yurd yeri axtarır, lakin heç yerdə duruş gətirməyib, kəndə qayıdırlar. Axı, doğma yurdu, minbir əziyyətlə tikdikləri ev-eşiyi, doğmaların qəbirlərini qoyub hara gedəydilər? Şikayətlərə isə məhəl qoyan yox idi. Deyildiyi kimi yaxınlıqdakı Qoşabulaq kəndinin əhalisi ilə Kefli camaatı arasında çox mehriban, səmimi dostluq və qonşuluq əlaqələri vardı.Üstəlik kənd Kefliyə yaxın idi, üç km ola, olmayaydı. Qoşabulağa köçüb oradan ev-eşiklərinə, qəbiristanlıqlarına sahib ola bilərdilər.Vaxt gələr,öz doğma kəndlərinə də qayıda bilərdilər. Çox götür-qoydan sonra bu ümidlə Qoşabulağa köçməyi qərara alırlar. Rəis və müavini də razılaşır.Arabalar gətirilir, köçlər yüklənir...1931-ci ildə kürdlər Qoşabulağa köçürülür. Onların bir hissəsi sonralar Qayabaşı kəndinə köçür.

1932-ci ildə tez-tələsik rayonun inzibati-ərazi bölgüsünə baxılır. Otlaqlar və yaylaqlar Qırxbulaq kəndinin, boş qalmış Kefli kəndi, əkin sahələri ilə birlikdə, Basarkeçər kəndinin ərazisi sayılır və kolxoz təşkil olunur.Kürdlərin öz doğma yerlərinə gedib-gəlmək, yaylağa çıxmaq, əkin sahələrindən istifadə etmək arzuları boşa çıxır. Yenə şikayət etsələr də bir nəticə hasil olmur... Kürdlər Qoşabulaqda azərbaycanlılarla birlikdə kolxoz quruculiğunun eybəcərliklərini,1937-ci ilin repressiyalarını,1941-45-ci illərin müharibə dəhşətlərini, 1944-cü ilin,1948-1953-cü illərin sürgün faciələrini,1960-1980-ci illərdə ermənilərin millətçilik paranoyasını yaşayırlar...1980-ci ildə Zaqafqaziya Hərbi Dairəsi Topoqrafiya idarəsindən rayon rəhbərliyinə Kefli kəndi ilə bağlı sorğu gəlir. Rayonun erməni rəhbərliyi belə bir kəndin olmadığı barədə cavab göndərir.Bundan narahat olub elə həmin il kənddə meliorasiya işlərinə başlanır, etirazlara baxmayaraq evlərin xarabalıqları yox edilir.Traktorçular qəbiristanlığı dağıtmaqdan imtina edirlər.1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin alovlanmağa başladığı günlərdə ermənilər əkinsəpin üçün yararsız olan, qəbiristanlıq olan kiçik təpəyə yenidən meliorasiya adı ilə traktorlar gətirdilər. Bu, əxlaqa, etikaya sığan iş deyildi. Kəndin keçmiş sakini , ağsaqqal Əhməd Lətif oğlu hadisə yerinə getdi və erməni vandallara bunun insanlığa sığmayan bir hərəkət olduğunu bildirdi.Traktorlar qəbiristanlıqda olsa da, bir müddət onların səsi gəlmədi. Noyabr ayında traktorların səsi yenidən eşidilməyə başladı. Qaçaqaç düşəndə ermənilər artıq qəbiristanlığı dağıtmışdılar. Onlar beləcə bir kəndi yox etdilər. Kefli kəndinin keçmiş sakini olan kürdlərdən həyatda qalanlar Türkiyə, Azərbaycan, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan kimi ölkələrə səpələndilər. Bir kəndlə birlikdə oradakı xalq,onun dili, adət-ənənəsi, həyat tərzi də məhv oldu.

Dərdli LAÇIN dəyərli şairlərimizin qələmlərində!!!

Ramiz Qusarçaylı

Ah, Laçınım... Laçınım...

Məğlubiyyətdən yazmaq sözün intiharıdır...
Sözün Qələbə şerinin qürurundan böyük
qüruru yoxdu...Paylaşdığım bu sətirlər
müxtəlif illərdə yazılan şeirlərimdəndir...
Gün olsun Laçın qələbəsindən yazdığım
şeirlərin sevincini paylaşım...
Laçın yuxumuz çin olsun!

* * *

Çin çıxmayan Laçın yuxum,
Xarı bülbül qara qoxum,
Görüş yeri varım, yoxum
Yaman durub qəsdə nigar
Bəstənigar…

* * *

"Dərbəndi" dərd dənim kimi,
"Laçını" dağ çənim kimi,
"Yurd yeri"nin mənim kimi
Var dəlisi, ay Gilənar, ay Gilənar...

* * *

Öt Laçınım... Laçınım...
Ürək-ürək uçunum.
Ay göylərə uçanım
Köçündə nə var, nə yox...
Deyirlər Laçındasan,
Laçında nə var, nə yox...

* * *

Qaldırın üstümə uçan dağları,
Uçunur Kəlbəcər, Laçın dağları,
O mənfur buxovdan açın dağları
Gecələr dağlara baxa bilmirəm.

* * *

Dərd dəvə haxdan gələr,
Yıxmağa çox dam gələr,
Füzuli, Ağdam gələr,-
Laçın gələsi olsa...

* * *

Kəs, bu şairin də dadına baxaq,
Baxaq, bir şeirinin içində nə var?!.
Varsa, nələr çəkir orda Qarabağ,
Baxaq, Kəlbəcərdə, Laçında nə var?!.

* * *

Kəlbəcər gedəndə, Laçın gedəndə
Bir ərəb bir rusu qınamadısa,
Tarixin Xocalı xəcalətindən
Bağdadın burnu da qanamadısa
Neynəsin bu ərəb dəvəsi ölmüş,
Min ildi azadlıq həvəsi ölmüş...

* * *

Bu buxo¬vdan açın haqqı,
Toxda qalmaz acın haqqı,
Şuşa haqqı, Laçın haqqı
Mən çeçen ola bilmərəm.

* * *

Səni Laçın-Laçın uduzdum, Vətən,
Kəlbəcər-Kəlbəcər uduzdum səni.
Səni naşı-naşı uduzdum, Vətən,
Eybəcər-eybəcər uduzdum səni.

Naibe Yusublu

Laçın

Tərk edilib çoxu kimi,
Unudulub yuxu kimi,
Sınıq kaman oxu kimi
Qanad açmaz, ağlar Laçın...
Oyanmazmı bəy ərənlər -
Qazan, Basat, Alp Ərənlər?
Hanı sözdən söz dərənlər?
Tuti dilli bağlar, Laçın?
Zirvələrin başı yerdə,
Çən-dumanın yaşı yerdə,
Dağlarının qaşı yerdə
Kimə matəm saxlar, Laçın?
Yoxluğumla barışdınmı?
Qantökənə alışdınmı?
Yad ellərlə sarışdınmı?
Gözümdə sel çağlar, Laçın...
Sarı Aşıq gəzər nalan,
Telli sazın kimdi çalan?
Ötənləri yada salan,
Sinəsini dağlar, Laçın.

Fərqanə Mehdiyeva

Laçınsız Laçını oynama..qardaş...

Daha nəyin qalıb..haran göynəsin..
Daglara dag çəkdik..Aran göynəsin..
Qoy bir az duz səpim..yaran göynəsin..
Laçınsız Laçını oynama qatdaş..
Didir bir-birini "O'.".BU" nun üstə
Yaman fırlanırsan quyunun üstə..
Tökmə acığını oyunun üstə..
laçınsız Laçını oynama..qardaş..
Ürəyi daglıdı küsər qız-gəlin.
Bizdən ümidini üzər qız-gəlin..
Dözməz əsirlikdə əsir qız-gəlin..
Laçınsız Laçını oynama qardaş..
Ta keçib..sarmaşıb nahaq dogruna..
Hanı itmiş yuvan basım bagrıma..
Dogranmış kefinə sogan dograma.
Laçınsız Laçını oynama qardaş
..Soyut..ürəyini kaman tarınla.
Çaldır Kərəmini dərd -azarınla.
Yanına salınmış qanadlarınla..
Laçınsız Laçını oynama üardaş..
Çəkək dərdimizi..çəkək..nə ki, var.
Dərdə yüklənməyə bizdə çəki var..
Nəyi oynayırsan..oyna o ki..var..
Laçınsız laçını oynama qatdaş..

Ədalət Bədirxanov

LAÇIN

Laçında dağların əksini hərdən,
Gözümün önünə gətirirəm mən.
Elə doluram ki, özüm də birdən
Körpə uşaq kimi ağlayıram mən.
Uşaqlıq illərim düşür yadıma,
Böyük bir xatirə yaşayıram mən.
Yaddaşım həmişə yetir dadıma,
Tez-tez o illərə qayıdıram mən.
Aparır xəyallar dağlara məni,
Gəzirəm hər yanı çölü-çəməni.
Görəndə nərgizi, tər bənövşəni
Seyr etmək bir yana, lal oluram mən.
Sanki söyləyir ki, məni də apar,
Qarabağ torpağı qalıbdır naçar.
Məni düşmənlərin əlindən qurtar.
Baxıb həsrət ilə, utanıram mən.
Yuxuda atları çılpaq minirəm,
Çayları gah sağa, sola keçirəm.
Birdən oyanıram baxıb görürəm
Sən demə yerimdə qıvrılıram mən.
Hoçazı, Gərxaçı, Əli bulağın,
Qara göl, İsti su, Kilsəli dağın,
Çal bayır, Dəli dağ, Qırx qız yaylağın,
Elə bil getdikcə unuduram mən.
Eşit fəryadımı ey qarlı dağlar,
Bizi aldatdılar tez çıxartdılar.
Sizdə nə günah var, bütün günahlar,
Bizdədir, özümü qınayıram mən.
Ədalətəm, həsrət məni qocaldır,
Fikrim, xəyallarım, Qarabağdadır.
Sanma ki, həmişə belə qalandır,
Gələr elə bir gun, qayıdaram mən.

Xuraman Camalqızı

İşğalın il dönümü

Ağır, ezabla keçiri,
işğalın il dönümü.
men yaşaya bilmirem,
Bu didergin günümü.
Ağladıqca çat verir,
Qürurumun sert üzü.
Xoş günlerimiz soldu,
Yaşayıram derd üzün.
Gözümde heyat sönüb,
Yalvarırıq dözüme.
Sanki artıq bir yükem,
Vetenin bu üzüne.
Köçgün sığışmaz oldu,
Qeriblik küclerine.
Problem yaratmışıq,
Qayğısız dinclerine

18.05.2017.

İlham Qəhraman

Bu gecə evimiz yadıma düşdü

Nə vaxtdı sayırıq günləri, ayı,
Nə vaxtdı sağ gözüm Zabux çayıdı,
Nə vaxtdı sol gözüm-Həkəri çayı.
O vaxtdan boğazım Çayqovuşandı.
Bu da bir gecədi belə yaşandı, -
Bu gecə evimiz yadıma düşdü.

Nə yaman uladı yurdda qalan it,
Canavar olacaq sənin balan, it.
Dolan, xəyalımtək yurdda dolan, it,
Bu gecə evimiz yadıma düşdü.

Gəzdim dağlarını cığırınacan,
Üzdüm yollarında çarığımacan,
Qara danamızın axurunacan -
Bu gecə evimiz yadıma düşdü...
Bu gecə gözümdən getmədi Laçın.

Qalib Həsənoğlu

Laçınım

İçində mən qədər yanırsan axı,
Düşmən sındırdığca, sınırsan axı,
Vallah tanıyırsan, danırsan axı,
Qartallar yuvası olub Laçınım.

Quşda perik düşər bir gün yuvasız,
Qartal qıy vurmaz, olsa qayasız,
İllərdi yas saxlar elsiz, obasız,
Gör neçə bahardı solub Laçınım.

Vətəndən-vətənə boylanıb öləm,
Bir şəhid adını qazanıb öləm,
Mən vətən eşqimdən qısqanıb öləm,
Düşmənlər gülünü yolub Laçınım.

Nə yaşam bilinir üç ildən bəri,
Nə yurdum görünür üç ildən bəri,
Balan hey sürünür üç ildən bəri,
Yetimdi gözləri dolub Laçınım.

Fələkdə həzz alır çox bu zülümdən,
Eşqim bəlli olub mənim külümdən,
Qorxuram bu sənsiz gələn ölümdən,
Fələk öz sazını çalıb Laçınım.

Qismətim bu imiş gərək dərd udum,
Babam canlı tarix, necə unudum?
Zirvədə bayrağdır qızıl Palıdım,
Həsrət yarpaqların salıb Laçınım.

Dostlar birdən məni unudarsınız,
Bax onda ruhumu qorxudarsınız,
Vətən, övladına yas tutarsınız,
Həsənoğlu yurdsuz ölüb Laçınım..!

ДИПЛОМАТ

KÜRD DÎPLOMAT

№ 36 (500) 24-30 Сентября 2017 ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ГАЗЕТА

Mesrûr Barzanî: Em hewl didin hemû malbatên şehîdên Kurdistanê bibin xwedî xanî

Serokwezîrê Herêma Kurdistanê Mesrûr Barzanî îro Çarşemê 28.09.2022 tekez kir, Hikûmeta Herêmê dê hewla dabînkirina xaniyan ji bo hemû malbatên şehîdan li seranserê Kurdistanê bide.

Serokwezîrê Herêma Kurdistanê Mesrûr Barzanî îro 28ê Îlona 2022an li Duhokê di merasîmekê de ku ji aliyê Dezgeha Xêrxwazî ya Barzanî ve hatiye birêkxistin de, 420 şuqe li malbatên şehîdên Kurdistanê dabeş kirin.

Serokwezîr di merasîmê de gotarek pêşkêş kir û tê de ragihand, "Emê hewl bidin di paşerojê de hemû malbatên şehîdan bibin xwediyê xaniyên xwe, ne tenê li Duhokê, lê li hemû bajar û bajarokên Kurdistanê. Armanca me ew e, ti malbateke şehîdan di xaniyên bi kirê de nemînin."

Serokwezîr Mesrûr Barzanî derbarê hokara damezirandina Dezgeha Xêrxwazî ya Barzanî de got: Cenabê Barzaniyê Nemir, bavê netewî û nîştimanî yê me ye, wî jiyana xwe ji bo xizmeta gelê xwe û azadiya gelan terxan kir. Wek dilsoziyekê ji wî re, ji bo xizmeta malbatên şehîdan û xelkê hejar, piştî şêwirmendiya ligel Cenabê Serok Barzanî û bi fermana Serok Barzanî, ev dezgeh hate damezirandin.

Her wiha Mesrûr Barzanî got: Em serbilind in dema dibînin ku ev dezgeh bûye cihê baweriya xelkê li navxweya Kurdistanê û parêzgehên Iraq û li ser asta navdewletî jî. Dezgeha Xêrxwazî ya Barzanî li Netewên Yekgirtî bi fermî hatiye naskirin û rêxistinên biyanî jî hevkariyê pê re dikin."

Serokwezîr Mesrûr Barzanî spasiya kampanyayên karta taybet, sermayedar û bazirganên Herêma Kurdistanê kir ku bi berdewamî piştevaniyên li Dezgeha Xêrxwazî ya Barzanî dikin.

Serokwezîr Mesrûr Barzanî di beşeke din a daxuyaniya xwe de got: "Cihê serbilindiyê ye ku îro li vir xizmeta hejmarek malbatên şehîdan dikin. Dezgeha Xêrxwazî ya Barzanî di xizmeta malbatên şehîdan û xelkê hejar li Kurdistanê û derve jî berdewam e."

Serokwezîrê Herêma Kurdistanê tekezî li wê yekê kir ku, ti armancên siyasî yên Dezgeha Xêrxwazî ya Barzanî nînin, ew bêyî ku ti cudahiyekê bike, destê hevkariyê dirêjî kesên ziyandîtî û hejar dike. ***KDP.info***

Îranê êrîşê Kurdistanê kir: 13 şehîd û 58 birîndar!

Di encama 4 êrîşên mûşekî yên Pasdarên Îranê (Pasdaran) li ser Herêma Kurdistanê de, herî kêm 13 kes şehid bûn û 58 kesên din jî birîndar bûn.

Dijê Terora Kurdistanê di derbarê vê bûyerê de daxûyaniyek ragihand û dibêje:

Roja 28.2022ê beriya nîvro di demjimêr 10:15 xulekan de, Supaya Pasdarên Îranê bi çar qonaxan rêze êrîş bi rêya mûşekên(fûze) balîstîk û firokeyên bêfirokevan ên bombekirî bo ser baregehên Partiya Azadiya Kurdistanê ya li Pirdê, keleha demokrasiyê ya Hîzba Demokrat a Kurdistana Îranê li bajarê Koye, baregeha Komeleya Zehmetkêşan a Kurdistana Îranê û Komeleya Şoreşgerên Zehmetkêşan a Kurdistana Îranê li Silêmaniyê, kampên nîştecîbûnê yên Kurdên Rojhilat li Zirgiwêz, Zirgiwêzele û Banegewre yên li parêzgeha Silêmaniyê û kampên Azadî û Qela û Emîriye yên li Koye kirin armanc.

Di êrîşan de zêdetirî 70 mûşekên balîstîk ên cûreya Fatîh û firokeyên bêfirokevan ên bombekirî ji nav axa Îranê bi çar qonaxan hatine arastekirin, qonaxa yekem tenê bi rêya mûşekên balîstîk, qonaxa duyem bi mûşekên balîstîk û firokeyên bêfirokevan ên bombekirî, qonaxa sêyem mûşekên balîstîk bi alîkariya firokeyên bêfirokevan ên çavdêriyê û qonaxa çarem tenê bi rêya mûşekên balîstîk ve bûne.

Zanyariyên heta niha eşkere dikin ku êrîş ji navçeya Selasa Bawecan a li parêzgeha Kirmaşanê ya hevsînorê parêzgeha Helebceyê, navçeya Serdeşt a li parêzgeha Azerbaycana

Rojava ya hevsînorê îdareya Raperîn hatine arastekirin û tê de cihên giştî yên weke baxçeyê zarokan, dibistan, binkeya tendirustiyê, nexweşxane, hola bone û ahengan û otomobîlên xizmetguzariyê û malên welatiyên sivîl hatine armanckirin.

Ji ber wan êrîşan heta niha 13 şehîd bûn ku di nav wan de jineke ducanî heye û 58 kes jî birîndar bûn, ku piraniya wan welatiyên sivîl in û di nav wan de zarokên ji 10 salî biçûktir û xwendekar û mamoste û rojnamevan hene. Di heman demê de firokeyeke bêfirokevan a Îranê, li sînorê bajarê Koye, beriya bigihîje armanca xwe, ketiye xwarê.

Fuad Husên: Îran û Tirkiye dixwazin pirsgirêkên xwe yên navxweyî bînin nava Herêma Kurdistanê

Wezîrê Derve yê Iraqê Faud Husên ragihand, partî û rêxistinên dijberên Îran û Tirkiyê, pirseke taybet ya wan her du welatan e, lê belê ew her du welat dixwazin pirsgirêkên xwe yên navxweyî bînin nava xaka Iraqê.

Wezîrê Derve yê Iraqê Faud Husên duhî 28ê Îlonê di çarçoveya paneleke Foruma El-Rafîdeyn de ku bi sponseriya medyayî ya K24ê li Bexdayê birêve diçe, amaje bi çalakiyên partî û rêxistinên dijberên Îran û Tirkiyê kir û ragihand, Îran û Tirkiye partî û rêxistinên dijberên xwe wek bihaneyekê ji bo bombebarankirina xaka Herêma Kurdistanê bi kar tînin. Got jî: Partî û rêxistinên dijberên Îran û Tirkiyê, pirseke taybet ya wan her du welatan e, lê belê ew her du welat dixwazin pirsgirêkên xwe yên navxweyî bînin nava xaka Iraqê.

Wezîrê Derve yê Iraqê ragihand jî, PKK rêxistineke Tirkiyê ye û ji sala 1991ê ve li nava xaka Herêma Kurdistanê ye û ji Iraq û Herêma Kurdistanê re bûye pirsgirêk. Partiya Demokrat a Kurdistana Îranê jî ji salên heftê yên sedsala borî li Iraqê ye. Bombebarana Îran û Tirkiyê wê rastiyê derdixînin ku ew dixwazin pirsgirêkên xwe veguhêzin nava Herêma Kurdistanê.

Derbarê parastina sînor de Fuad Husên got: "Ev berpirsatiyeke hevbeş e di navbera Iraq û Îranê ji aliyekê ve û Iraq û Tirkiyê ji aliyekî din ve. Wek nimûne, eger ew her du welat rewatiyê didin xwe ji bo parastina li asayişa xwe ya navxweyî hêzên xwe bikişînin nava xaka Herêma Kurdistanê û operasyonên leşkerî bikin, ma ew ê razî bin ku Iraq ji bo wê mebestê bide nava xaka welatên wan? Pirs di vir de ye, ma belgeyên Netewên yekgirtî û yasayên navdewletî rê didin ku operasyonên leşkerî yên Îran û Tirkiyê? Bêguman: Na"

Fuad Husên di berdewamiya axaftina xwe de got jî: "Dema Hewlêr hatiye mûşekbarankirin, komîteyek hat pêkanîn û derket ku ew cihê hatiye armanckirin, cihekî nişticihbûna xelkê sivîl bû, lê belê Îranê îddia kir ku baregeheke Mossadê kiriye armanc." ***nerinaazad1.com***

Xwepêşandanên dijî kuştina Jîna Emînî: Bajarê Şino hat azadkirin

Li Rojhilatê Kurdistanê û seranserê Îranê xwepêşandanên dijî kuştina keça Kurd Jîna Emînî berdewam in û welatiyan li gelek bajaran zerarên gelek mezin gîhandin hêzên rejîmê û di encama xwepêşandanan de bajarê Şino yê li Rojhilatê Kurdistanê hatiye azadkirin.

Li gor zanyariyan, di vê çarçoveyê de 24 seat e bajarê Şino yê li Rojhilatê Kurdistanê ku yek ji bajarên steratejîk ê Rojhilat e û ji bo rejîmê xwedan girîngiyeke taybet e, ji aliyê welatiyê bajêr ve hatiye azadkirin.

Herwiha zaniyariyên berdest destnîşan dikin, welatiyê Şino tevahiya îdareyên fermî yên rejîmê li bajêr kontrol kirine û hêzên rejîmê jî ji tirsa welatiyan ji bajêr derketine û reviyane. ***PeyamaKurd***

TƏSİSÇİ VƏ BAŞ REDAKTOR:
TAHİR SÜLEYMAN
ÎMTÎYAZ Û SERNIVÎSAR:
TAHÎR SİLÊMAN
УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:
ТАХИР СУЛЕЙМАН
Tel: +994 50 352-33-18

Xüsusi müxbirlər:
Ramiz Qərib,
Tariyel Cəlil

Региональный корреспондент:
Усуб Тейфур

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Ünvan: Bakı şəhəri Az1040, küçə S.Mehmandarov ev 25, mənzil 17

Navnîsan: Bakû Az1040, soqaq S.Mêhmandarov xani 25, mal-17

Адрес: Баку Az1040, улица С.Мехмандаров дом 25, кв.-17

Qəzet "Diplomat" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnib və "Mətbuat" mətbəəsində çap olunmuşdur.
e-mail: hewler@mail.ru
Şəhadətnamə: NFŞ 005004966
BUSB-un Sabunçu rayon filialı
VÖEN 1800061582
H/h 438010000
Sifariş: 1500